Xalqın qəzeti!

# Xalq qəzeti

№ 86 (31055) 16 may 2026-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# Türk dövlətləri qlobal rəqəmsal gələcəyə keçidin ön sırasına çıxır

## Prezident İlham Əliyevin Qazaxıstana işgüzar səfəri

*Türküstan şəhərinin Hazret Sultan Beynəlxalq Aeroportunda qarşılanma*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün mayın 15-də bu ölkəyə işgüzar səfərə gəlib.**

Türküstan şəhərinin Hazret Sultan Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Qazaxıstanın Dövlət müşaviri Yerlan Karin, Türküstan vilayətinin akimi Nuralxan Kuşerov və digər rəsmi şəxslər qarşıladılar.

### Türk dünyası XXI əsrin nüfuzlu geosiyasi güc mərkəzinə çevrilir



Səhifə ⇨ 4

### Azərbaycan TRACECA-nın ən önəmli qovşağıdır



Səhifə ⇨ 4

### Rusiya – Ermənistan: “boşanma” məntiqi və “taras bulbaçılıq”



Səhifə ⇨ 5

### TAP Azərbaycanı Avropa ilə birləşdirən mötəbər enerji körpüsüdür




Səhifə ⇨ 7

## Yeni Cənubi Qafqaz gerçəkliyi



Səhifə ⇨ 6

## Arazqırağına “Böyük qayıdış”



Səhifə ⇨ 8

### İrəvan seçkilərinə Tbilisidən baxış



Səhifə ⇨ 6

### Azərbaycanın rəqəmsal inkişaf uğurları TDT tribunasında



Səhifə ⇨ 7

### Bakı həbsxanası, “Qarabağ kartı” və Ermənistanda “kim-kimi”?



Səhifə ⇨ 5

# Türküstanla mədəni tanışlıq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak edən digər prezidentlərlə birlikdə Türküstan şəhərindəki "Həzrət Sultan" Muzey-Qoruğu ilə tanış olub.**



Dövlət başçılarına qoruq haqqında məlumat verildi. Bildirildi ki, "Həzrət Sultan" Milli Tarix-Mədəniyyət Muzey-Qoruğu 1989-cu ildə yaradılıb. Muzeydəki "Nadir Eksponatlar Zalı" Qazaxıstanın ən əhəmiyyətli muzey və sərgi layihələrindən biridir. Məqsəd orta əsrlər dövrünün nadir tarixi və mədəni irsini qorumaq və təbliğ etməkdir. Muzeydə Türküstanın zəngin tarixi, Türk dünyasının mənəvi irsi və Xoca Əhməd Yasəvi məqbərəsinə aid nadir artefaktlar nümayiş olunur. Hazırda muzey-qoruğun kolleksiyasında 26 mindən çox eksponat var ki, onların da təxminən 80 faizi artefaktdır.

*

Sonra Türküstanda yerləşən Xoca Əhməd Yasəvi məqbərəsi ilə tanışlıq oldu. Bura Mərkəzi Asiyanın ən böyük İslam memarlığı abidələrindən biridir və Qazaxıstanın mənəvi rəmzi kimi qəbul edilir. Məqbərə XIV əsrin sonunda görkəmli sufi şair, mütəfəkkir Əhməd Yasəvinin dəfn olunduğu yerdə Əmir Teymurun göstərişi ilə inşa olunub. Vahid memarlıq dizaynına malik bu kompleksdə 35-dən çox müxtəlif təyinatlı otaq yerləşir. Nadir artefaktların saxlanıldığı məqbərə İslam dünyasının mənəvi və mədəni mərkəzlərindən biri hesab olunur.





# Prezident İlham Əliyev Türk Sivilizasiyası Mərkəzinin təməlqoyma mərasimində



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak edən digər prezidentlər mayın 15-də Türk Sivilizasiyası Mərkəzinin onlayn təməlqoyma mərasimində iştirak ediblər.**

Dövlət başçılarına Mərkəz barədə məlumat verilib.

Bildirilib ki, layihə türk xalqlarının zəngin tarixi, mədəni və mənəvi irsinin qorunub saxlanmasına, öyrənilməsinə və təbliğinə yönəlib. Ən qabaqcıl standartlara uyğun inşa ediləcək mərkəzin əsas ideyası türk sivilizasiyasının dünya tarixində özünəməxsus yeri, dərin fəlsəfəsi və dövlətçilik ənənələri olan böyük sivilizasiya olduğunu nümayiş etməkdir.

*

Sonra "GovTech" rəqəmsal həllərin təqdimatı oldu. Qazaxıstanda süni intellektin inkişafı ilə bağlı həyata keçirilən layihələr barədə qonaqlara məlumat verildi. Eyni zamanda qeyd edildi ki, türk dövlətləri arasında, həmçinin bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi üçün böyük potensial var.





# Prezident İlham Əliyev Türküstanda TDT-nin qeyri-rəsmi Zirvə görüşündə iştirak edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstanın Türküstan şəhərində Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak edib.**

Dövlətimizin başçısını Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev qarşıladı.

Azərbaycan Prezidenti və tədbirdə iştirak edən digər dövlət başçıları birgə foto çəkdirdilər.

Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə çıxış edib.

## Prezident İlham Əliyevin çıxışı

– Hörmətli Kasım-Jomart Kemeleviç.

Hörmətli dövlət başçıları.

İlk növbədə, göstərilən səmimi qonaqpərvərliyə görə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə təşəkkürümü bildirirəm. Qədim və zəngin tarixi-mədəni irsə malik Türküstan şəhərində olmaqdan çox məmnunam. Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın işğaldan azad edildikdən sonra qardaşlaşdığı ilk şəhər Türküstan şəhəri olmuşdur. Qədim şəhərlərimiz də xalqlarımız kimi qardaşdır.

Qazaxıstan ilə Azərbaycan arasındakı sıx əlaqələri nümayiş etdirmək üçün təkcə prezidentlər səviyyəsində həyata keçirilən qarşılıqlı səfərləri göstərmək olar. Son 5 ildə bu, mənim Qazaxıstana səkkizinci səfərimdir. Prezident Tokayev isə Azərbaycana altı dəfə səfər etmişdir. Dörd il əvvəl imzalanmış Birgə Bəyannamə









əlaqələrimizi müttəfiqlik səviyyəsinə qaldırmışdır.

Sevindirici haldır ki, Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının ilk dəfə 2024-cü ildə Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə Görüşü təşəbbüsü artıq ənənəyə çevrilir.

Bu gün Türk Dövlətləri Təşkilatının beynəlxalq çəkisi artır, qlobal proseslərdə rolu və mövqeyi güclənir. Keçən ilin oktyabr ayında Qəbələ Zirvə Görüşündə sədrliyi qəbul edən Azərbaycan təşkilat çərçivəsində əməkdaşlığın daha da dərinləşməsi istiqamətində fəaliyyət göstərir.

Yaxın günlərdə Bakıda keçiriləcək BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası çərçivəsində Türk Dövlətləri Təşkilatının şəhərsalma üzrə yüksəksəviyyəli dialoqu təşkil ediləcək.

Türk xalqlarının elmi-mədəni birliyinə böyük töhfə vermiş Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr edilən Türk dünyası həftəsi iyun ayında Bakıda keçiriləcək. Əminəm ki, bu tədbir xalqlarımızın mədəni həyatında əlamətdar hadisəyə çevriləcək.

Hörmətli həmkarlar, Zirvə görüşünün mövzusu dövrümüzün çağırışlarını və prioritetlərini əks etdirir. Dünya rəqəmsal inkişaf və süni intellektin yaratdığı imkanlar sayəsində yeni inkişaf mərhələsinə qədəm qoyur. Türk dövlətləri bu prosesdə ön sıralarda yer almalıdır.

*(ardı 3-cü səhifədə)*

# Prezident İlham Əliyev Türküstanda TDT-nin qeyri-rəsmi Zirvə görüşündə iştirak edib

**(əvvəli 2-ci səhifədə)**



Azərbaycanın rəqəmsal suverenliyinin möhkəmləndirilməsi və innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi əsas vəzifələrimizdən biridir. Bu məqsədlə Rəqəmsal İnkişaf Şurası, Milli Süni İntellekt Mərkəzi və Süni İntellekt Akademiyası yaradılmışdır.

Ötən il ölkəmizdə Süni İntellekt Strategiyası qəbul edilmişdir. Strategiyanın əsas məqsədləri sırasında süni intellekt sənayesinin inkişafı, ixtisaslı kadrların hazırlanması və süni intellektin dövlət idarəçiliyində geniş tətbiqi yer alır.

Ölkəmizdə sabit genişzolaqlı internetin əhatəsi 100 faizə çatdırılmışdır. Bütün dövlət xidmətlərinin vahid rəqəmsal platforma üzərindən həyata keçirilməsi istiqamətində işlər davam edir.



Bununla yanaşı, süni intellektdən məsuliyyətli istifadənin təmin edilməsi, onun qanunazidd məqsədlər üçün istifadəsinin qarşısının alınması istiqamətində tədbirlər həyata keçirilir.

Rəqəmsal inkişaf sahəsində türk dövlətləri ilə əməkdaşlıq uğurla davam edir. Avropa ilə Asiya arasında "Rəqəmsal İpək Yolu" layihəsi icra olunur. Bu layihənin tərkib hissəsi olan, Azərbaycan ilə Qazaxıstan arasında Trans-Xəzər Fiber-Optik Kabel xəttinin yaxın aylarda istifadəyə verilməsi planlaşdırılır.

Türk dövlətləri ilə nəqliyyat sahəsində əməkdaşlığımız genişlənir. Cari qlobal geosiyasi şəraitdə Orta Dəhlizin əhəmiyyəti daha da artır. Reallaşmaqda olan Zəngəzur dəhlizi Orta Dəhlizin əsas seqmentlərindən birinə çevriləcək.

Orta Dəhliz boyunca gömrük prosedurları sadələşdirilir. Türk Dövlətləri Təşkilatı çərçivəsində hazırlanmış "e-Permit" sistemi elektron icazələrin operativ şəkildə verilməsini təmin edir.

Əziz dostlar, ailəmiz olan Türk dünyası XXI əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən birinə çevrilməlidir. Azərbaycan bundan sonra da Türk Dövlətləri Təşkilatının möhkəmləndirilməsi naminə səylərini əsirgəməyəcək.

Diqqətinizə görə təşəkkür edirəm.

*

Sonda dövlətimizin başçısı və digər prezidentlər Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünün Türküstan Bəyannaməsini və Türk Dövlətləri Təşkilatının Baş katibinin müavininin təyin olunması haqqında qərarı imzaladılar.



# Səfər başa çatıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasına işgüzar səfəri mayın 15-də başa çatıb.**

Türküstan şəhərinin Hazret Sultan Beynəlxalq Aeroportunda dövlətimizin başçısını Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev yola saldı.

***AZƏRTAC***

# TDT-nin "Süni intellekt və rəqəmsal inkişaf" diplomatiyası



**Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Türküstan şəhərində keçirilən Türk Dövlətləri Təşkilatı Xarici İşlər Nazirləri Şurasının "Süni intellekt və rəqəmsal inkişaf" mövzusunda qeyri-rəsmi iclasında çıxış edib.**

Nazir regional və beynəlxalq təhlükəsizlik mühitinin həssas olaraq qaldığını, artan geosiyasi qeyri-müəyyənliklərin, davam edən münaqişələrin, hibrid təhdidlərin, enerji və ərzaq təhlükəsizliyi ilə bağlı çağırışların türk dövlətləri arasında daha sıx həmrəylik və koordinasiya tələb etdiyini bildirib. Bu məqsədlə təhlükəsizlik, nəqliyyat, enerji dayanıqlılığı, kibertəhlükəsizlik və digər strateji sahələr üzrə əməkdaşlığın gücləndirilməsinin vacibliyi vurğulanıb, Orta Dəhlizin və Türk dünyası vasitəsilə Asiya ilə Avropanı birləşdirən Şərq-Qərb bağlantı layihələrinin strateji əhəmiyyəti qeyd edilib.

Ceyhun Bayramov "Süni intellekt və rəqəmsal inkişaf" mövzusunun aktuallığını qeyd edərək, süni intellekt texnologiyalarının iqtisadiyyat, dövlət idarəçiliyi, təhsil, səhiyyə və təhlükəsizlik sahələrində sürətli transformasiya yaratdığını bildirib. O, Azərbaycanın rəqəmsal transformasiya və innovasiyaəsaslı inkişaf siyasətinə xüsusi önəm verdiyini bildirib.

Sonda iclas çərçivəsində aparılacaq müzakirələrin türk dövlətləri arasında həmrəyliyin, koordinasiyanın və tərəfdaşlığın daha da möhkəmlənməsinə töhfə verəcəyinə əminlik ifadə olunub.

***XQ***

# YAP heyətinin Çinə səfəri başa çatıb



**Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Çinə səfəri çərçivəsində Çin Kommunist Partiyası Şensi vilayət təşkilatının katibi, Şensi vilayəti Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Çjao İde ilə görüşüb.**

Qarşılıqlı etimada əsaslanan çoxşaxəli əməkdaşlığın Azərbaycanın və Çinin xarici siyasətində prioritet olduğu qeyd edilib.

Partiyalar arasında əməkdaşlığın Azərbaycan-Çin münasibətlərinin mühüm istiqamətlərindən olduğu qeyd edilib. 2024-cü ilin noyabrında imzalanmış memorandumun partiyalararası əlaqələri daha da möhkəmləndirdiyi və yeni imkanlar yaratdığı bildirilib. YAP nümayəndə heyətinin Çinə səfəri çərçivəsində keçirilən görüşlərin əməkdaşlığın dərinləşdirilməsi baxımından əhəmiyyətli olduğu vurğulanıb. Dövlət İdarəçilik Akademiyası ilə ÇKP Partiya Məktəbi arasında imzalanan anlaşmanın isə kadr hazırlığı sahəsində təcrübə mübadiləsinə töhfə verəcəyi qeyd olunub.

Çin şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan bərpa-quruculuq işlərində iştirakı perspektivləri diqqətə çatdırılıb.

Nümayəndə heyətinin Şensi vilayətində humanoid robotlar istehsal edən "Zhilaite" texnoloji şirkətinə, Çin–Avropa qatarları üzrə logistika mərkəzinə, Sian Böyük Məscidinə və Sin Şixuandi İmperiya Muzeyinə, o cümlədən Terrakota Ordusu Muzeyinə ziyarəti də təşkil olunub.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Çinin "Şensi" televiziya kanalına müsahibəsində səfərin yekunlarına, eləcə də istər ölkələr, istərsə də partiyalar arasında əməkdaşlığın mövcud vəziyyəti və perspektivlərinə dair fikirlərini bölüşüb.

Mayın 15-də YAP nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri başa çatıb.

***XQ***

# Baş prokuror Masallıda qəbul keçirib



**Mayın 15-də Baş prokuror Kamran Əliyev Masallı Rayon Prokurorluğunun inzibati binasında Masallı, Lənkəran, Astara, Lerik, Yardımlı və Cəlilabad rayonundan olan vətəndaşları qəbul edib.**

Qəbulda iştirak edən 51 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

***XQ***

# Slovakiya parlamentariləri azad Qarabağda

**Ölkəmizdə səfərdə olan Slovakiya Respublikası Milli Şurasının sədri Rixard Raşinin rəhbərlik etdiyi parlament nümayəndə heyəti mayın 15-də Azərbaycanın işğaldan azad edilmiş ərazilərində olub.**





Slovakiya heyəti Füzuli Beynəlxalq Hava Limanına gəliblər. Burada qonaqlar Füzuli hava limanının maketi, limanın texniki göstəriciləri, həmçinin Füzuli şəhərinin bərpası planı ilə tanış olub, rayonda görülmüş işlərlə bağlı geniş məlumat alıblar.

Şuşada qonaqlara şəhərinin tarixi, işğal dövründəki vəziyyəti və Şuşada Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa nəzarəti altında aparılan quruculuq işləri, şəhərdəki tarixi abidələrin bərpası və nəzərdə tutulan planlar barədə məlumat verilib. Xankəndidə də slovaklar şəhərində aparılan genişmiqyaslı tikinti, bərpa və yenidənqurma işləri ilə yaxından tanış olublar. Səfər çərçivəsində slovakiyalı parlamentarilər Ağdam rayonunun Baş Qərvənd kəndində də olublar.

***XQ***

# Energetika naziri Neftçalada müraciətləri dinləyib

**Energetika naziri Pərviz Şahbazov Neftçala rayon Heydər Əliyev Mərkəzində vətəndaşlarla görüşüb.**

Qəbul zamanı vətəndaşların elektrik enerjisi və təbii qaz təchizatı, kəndin qazlaşdırılması, işlə təminat və digər məsələlərə dair müraciətləri dinlənilib. Qaldırılan məsələlərin mövcud qanunvericiliyə uyğun şəkildə araşdırılması və operativ həlli məqsədilə müvafiq tapşırıqlar verilib.

Nazirliyin aidiyyəti struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş görüşdə Neftçala, Biləsuvar rayonlarından və Bakı şəhərindən olan 11 vətəndaş iştirak edib.

***XQ***

# Türk dünyası XXI əsrin nüfuzlu geosiyasi güc mərkəzinə çevrilir

## *Azərbaycan Prezidenti İlham Əliyev TDT Dövlət başçılarının Türküstan görüşündə bu mesajı verdi*

**TDT-nin budəfəki qeyri-rəsmi Zirvə Görüşünün Qazaxıstanın Türküstan şəhərində keçirilməsi faktının rəmzi məna daşıması məkanın adından məlumdur. Görüşün gündəminin hazırda dünyanın nəzərlərinin dikildiyi 2 münaqişə ocaqları kimi operativ və siyasi mövzudan formal olaraq kənar sayılmasına baxmayaraq, təşkilatın son illər etnomədəni birlikdən nüfuzlu geosiyasi güc mərkəzinə çevrildiyi üçün regional proseslərin diqqət mərkəzinə gətirilməsi təbii idi.**



Bəli, bu gün Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzu artır, qlobal proseslərə yön verən aktor kimi bu müstəvilərdə oynadığı rolu və mövqeyi güclənir.

"Ailəmiz olan Türk dünyası XXI əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən birinə çevrilməlidir. Azərbaycan bundan sonra da Türk Dövlətləri Təşkilatının möhkəmləndirilməsi naminə səylərini əsirgəməyəcək". Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu fikirləri Qazaxıstanın Türküstan şəhərində Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə Görüşündə çıxışı zamanı səsləndirib. Yaxın tarixə nəzər yetirəndə maraqlı bir məqamı qeyd etməyə bilmərik: Azərbaycanın mədəniyyət paytaxtı Şuşa işğaldan azad olunandan sonra qardaşlaşdığı ilk şəhər məhz Qazaxıstanın Türküstan şəhəri oldu. Bunu görüş iştirakçılarının nəzərinə çatdıran İlham Əliyev şəhərlərimizin də xalqlarımız kimi qardaş olduğunu, eləcə də liderlər arasında formalaşmış səmimi dostluq münasibətlərini qürurla dilə gətirdi: "Qazaxıstan ilə Azərbaycan arasındakı sıx əlaqələri nümayiş etdirmək üçün təkcə prezidentlər səviyyəsində həyata keçirilən qarşılıqlı səfərləri göstərmək kifayətdir. Son 5 ildə bu, mənim Qazaxıstana səkkizinci səfərimdir. Prezident Tokayev isə Azərbaycana altı dəfə səfər etdib. Dörd il əvvəl imzalanmış Birgə Bəyannamə əlaqələrimizi müttəfiqlik səviyyəsinə qaldırıb".

Dövlətimizin başçısı Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının ilk dəfə 2024-cü ildə Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə Görüşü təşəbbüsünün artıq ənənəyə çevrildiyini sevindirici hal kimi səciyyələndirdi: "Bu gün Türk Dövlətləri Təşkilatının beynəlxalq çəkisi artır, qlobal proseslərdə rolu və mövqeyi güclənir. Keçən ilin oktyabr ayında Qəbələ Zirvə Görüşündə sədrliyi qəbul edən Azərbaycan təşkilat çərçivəsində əməkdaşlığın daha da dərinləşməsi istiqamətində fəaliyyət göstərir. Yaxın günlərdə Bakıda keçiriləcək BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası çərçivəsində Türk Dövlətləri Təşkilatının şəhərsalma üzrə yüksəksəviyyəli dialoqu təşkil ediləcək".

Daha sonra çıxışında türk xalqlarının elmi-mədəni birliyinə böyük töhfə vermiş Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr edilən "Türk dünyası həftəsi"nin iyun ayında Bakıda keçiriləcəyini xüsusi vurğulayan İlham Əliyev bu tədbirin xalqlarımızın mədəni həyatında əlamətdar hadisəyə çevriləcəyinə əminliyini ifadə edib.

*

TDT-nin budəfəki qeyri-rəsmi Zirvə Görüşünün gündəliyində duran məsələ qloballaşan dünyanın aktual çağırışlarını və prioritetlərini özündə əks etdirirdi. Artıq rəqəmsal inkişaf və süni intellektin yaratdığı imkanlar bəşəriyyətin keyfiyyətcə tamamilə yeni və strateji inkişaf mərhələsinə qədəm qoymasından xəbər verir. Aydın məsələdir ki, böyük coğrafiyanı əhatə edən Türk dünyası da bu çağırışlara adekvat cavab verməli, inklüziv inkişafa zəmin yaradacağı şübhə doğurmayan prosesin öndə gedənləri sırasında yerini möhkəmləndirməlidir. Bu kontekstdən yanaşanda, Azərbaycan liderinin çıxışında "ailəmiz olan Türk dünyası XXI əsrin nüfuzlu geosiyasi güc mərkəzlərindən birinə çevrilməlidir" mesajı məhz TDT-nin gələcəyə yönəlik planlarının preambulası kimi qəbul olunmalıdır.

İndi dünyanın aparıcı dövlətləri rəqəmsal suverenliyinin möhkəmləndirilməsi, innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi kimi məsələləri ən önəmli prioritetlərdən biri hesab edirlər. Azərbaycan da çağdaş dövrün bu çağırışına uyğun inkişaf xəttini formalaşdırmaqdadır. Prezidentin çıxışında qeyd etdiyi kimi, bu məqsədlə Azərbaycanda Rəqəmsal İnkişaf Şurası, Milli Süni İntellekt Mərkəzi və Süni İntellekt Akademiyası yaradılıb: "Ötən il ölkəmizdə Süni İntellekt Strategiyası qəbul edilib. Strategiyanın əsas məqsədləri sırasında süni intellekt sənayesinin inkişafı, ixtisaslı kadrların hazırlanması və süni intellektin dövlət idarəçiliyində geniş tətbiqi yer alır".

İlham Əliyevin çıxışında toxunduğu vacib məsələlərdən biri də TDT-nin Türküstan sammitinin gündəliyinə uyğun olaraq, süni intellektdən məsuliyyətli istifadənin təmin edilməsi, onun qanunazidd məqsədlər üçün istifadəsinin qarşısının alınması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi ilə bağlı idi. Əməkdaşlığın məhz bu istiqamətini TDT liderlərinin diqqətinə xüsusi olaraq çatdıran dövlətimizin başçısı çıxışında rəqəmsal inkişaf sahəsində türk dövlətləri ilə əməkdaşlığın uğurla davam etdirildiyini vurğuladı. Ardınca Avropa ilə Asiya arasında "Rəqəmsal İpək Yolu" layihəsi icra olunduğunu bildirən İlham Əliyev bu layihənin tərkib hissəsi olan, Azərbaycan ilə Qazaxıstan arasında Transxəzər fiber-optik kabel xəttinin yaxın aylarda istifadəyə verilməsinin planlaşdırıldığını görüş iştirakçılarının diqqətinə çatdırmağı da unutmadı.

*

Azərbaycan Prezidentinin TDT-nin bugünə qədərki toplantılarında etdiyi bütün çıxışlar təşəbbüskarlığı və novatorluğu ilə seçilib. Oxuculara xatırladaq ki, TDT-nin 2025-ci ilin oktyabrında Qəbələdə keçirilən Zirvə Görüşündə "Regional sülh və təhlükəsizlik" mövzusunda Azərbaycan Prezidenti İlham Əliyev təşkilatın tarixində bəlkə də böyük əks-səda doğurmuş təşəbbüslə çıxış etmişdi. Ölkəmizin başçısı Azərbaycanın ərazisində türk dövlətlərinin birgə hərbi təlimlərinin keçirilməsi ideyasını irəli sürmüşdü. İlham Əliyevin yeddi ay bundan əvvəlki mesajının məntiqi aydın idi: TDT üzvləri arasında müdafiə sahəsində əməkdaşlığı inkişaf etdirmək. O vaxta qədər Azərbaycan Qazaxıstan, Özbəkistan və Türkiyə ilə ikitərəfli təlimlər keçirmişdi. Elə isə niyə bu təcrübəni TDT-nin bayrağı altında rəsmiləşdirməyək? Təşəbbüs irəli sürüldü və az sonra o, əmələ çevrildi. İndi Azərbaycan liderinin Türk dünyasının iyirminci yüzilliyin nüfuzlu geosiyasi güc mərkəzinə çevrilməsi ilə bağlı ideyasının da gerçəkləşəcəyinə heç kimin şübhəsi olmasın.

Son vaxtlar TDT-yə üçüncü ölkələrin marağının artması tendensiyasını da qeyd etməyi vacib sayırıq. Yaponiya 2025-ci ildə TDT ilə əməkdaşlıq təşəbbüsü göstərdi və bununla bağlı danışıqlara başlamağa hazır olduğunu bəyan etdi. Yaxın Şərqdə müşahidə olunan hərbi-siyasi gərginlik fonunda Fars körfəzi ölkələrinin də baxışları TDT-yə yönəlib. Bunlar heç də təsadüfi sayıla biləcək hadisələr deyil. Bunlar Türk Dövlətləri Təşkilatının artıq eyni soya və tarixə malik xalqların mədəni birliyi kimi deyil, "böyük güclər", qlobal aktorlar, eləcə də etibarlı müttəfiqə və təhlükəsizliyinə ehtiyac duyan ölkələr tərəfindən nüfuzlu geosiyasi güc mərkəzi kimi qəbul edilməsinin göstəricisidir.

***İmran BƏDİRXANLI***
***XQ***

# Azərbaycan TRACECA-nın ən önəmli qovşağıdır

## *Yeni baş katibin "Biz Azərbaycansız keçinə bilmərik" etirafı bu gerçəyin təsdiqidir*




**Avropa ilə Asiyanı birləşdirən TRACECA proqramı iştirakçı ölkələr arasında tranzit, nəqliyyat və kommunikasiya əlaqələrinin inkişafında mühüm mexanizmlərdən biri kimi çıxış edir. Məhz bu çərçivədə mayın 15-də Qazaxıstanın paytaxtı Astanada TRACECA Hökumətlərarası Komissiyasının (HK) XVIII illik iclasının keçirilməsi regional nəqliyyat əməkdaşlığının gələcək istiqamətlərinin müəyyənləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.**

İclasa iştirakçı ölkələrin nümayəndə heyətləri, TRACECA HK Daimi Katibliyinin nümayəndələri, müşahidəçi ölkələr, həmçinin beynəlxalq təşkilatlar və tərəfdaşlar qatılıblar. Beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı, region ölkələrinin tranzit potensialının gücləndirilməsi və TRACECA çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsi məsələlərinin müzakirə edildiyi toplantı iştirakçı ölkələrin nümayəndə heyətləri rəhbərlərinin çıxışları ilə öz işinə başlayıb.

Azərbaycan nümayəndə heyətinin rəhbəri, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Cavid Qurbanov çıxışında bildirib ki, 2025-ci ildə Azərbaycan ərazisindən tranzit daşımalarının ümumi həcmi 2019-cu illə müqayisədə 2,5 dəfə çox olub və 14,3 milyon tona çatıb. Onun sözlərinə görə, ümumi yükün təxminən 4,7 milyon tonu Orta Dəhliz vasitəsilə daşınıb. Konteyner daşımaları 21 faiz artaraq 67000 TEU-ya, Çindən gələn blok qatarlarının sayı isə 37 faiz artaraq 392-yə çatıb. C.Qurbanov, həmçinin bildirib ki, 2024-cü ilin may ayında başa çatan Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin modernləşdirilməsi onun illik tutumunu 1 milyon tondan 5 milyon tona qədər artırıb. 2025-ci ildə Bakı Beynəlxalq Dəniz Ticarət Limanında konteyner daşımaları 40 faiz artaraq rekord həddə – 107000 TEU-ya çatıb. 2030-cu ilə qədər limanın yükdaşıma qabiliyyətinin 25 milyon tona və 500000 TEU-ya çatacağı gözlənilir.

Nazir müavini vurğulayıb ki, Azərbaycan Orta Dəhlizin rəqabət qabiliyyətinin artırılmasını dövlət siyasətinin prioriteti kimi müəyyən edib və bütün TRACECA üzv dövlətləri ilə sıx əməkdaşlığa sadiqliyini bir daha təsdiqləyib.

İclasda TRACECA HK-da sədrlik Qazaxıstana ötürülüb, tranzit və nəqliyyat əməkdaşlığı məsələləri üzrə sənədlər, o cümlədən avtomobil daşıyıcıları üçün icazələrin rəqəmsallaşdırılmasına dair sənəd imzalanıb. Sənədə TRACECA-nın 5 ölkəsi imza atıb. Həmçinin TRACECA HK Daimi Katibliyinin Baş katibi seçilib.

Qazaxıstan Nəqliyyat Nazirliyinin yaydığı məlumata görə, sədrliyin əsas istiqamətlərindən biri 2027-2036-cı illər üçün TRACECA Dəhlizinin İnkişaf Strategiyasının tamamlanması olacaq. Qeyd edilib ki, Qazaxıstan sənədi iştirakçı dövlətlərlə birlikdə yekunlaşdıracaq və təsdiq olunması üçün onu 2027-ci ildə Bişkekdə keçiriləcək TRACECA HK-nın iclasına təqdim etmək niyyətindədir. "İkinci prioritet qlobal rəqəmsallaşma, beynəlxalq logistika zəncirlərinin transformasiyası, yeni texnologiyaların tətbiqi və tranzit trafik həcmlərinin artması nəzərə alınmaqla dəhlizin inkişafına müasir yanaşmaları müəyyən edəcək. TRACECA islahatı üçün yeni konsepsiyanın təsdiqi olacaq", – məlumatda qeyd olunub. Bildirilib ki, iclasda TRACECA Vahid Tranzit İcazəsi Sazişinin imzalanması mühüm addım olub. Sənəd avtomobil daşıyıcılarına əlavə milli icazələr olmadan belə, iştirakçı ölkələrin ərazilərindən tranzit yükdaşımalarını




həyata keçirməyə imkan verəcək. Saziş Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Azərbaycan və Ukrayna tərəfindən imzalanıb. Qazaxıstanın sədrliyi dövründə əlavə üzv dövlətlərin də bu sənədə qoşulacağı gözlənilir. Qazaxıstanın TRACECA-ya sədrliyinin ölkənin Avropa ilə Asiya arasında əsas tranzit və logistika mərkəzi kimi rolunun gücləndirilməsində mühüm addım olacağı bildirilib.

Azərbaycan Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi məlumat yayaraq iclas çərçivəsində imzalanmış TRACECA Vahid Tranzit İcazəsi Sazişinin iştirakçı dövlətlərin daşıyıcıları üçün digər üzv ölkələrin ərazilərindən tranzit keçidlər zamanı tələb olunan tranzit icazələrinin sayının azaldılmasına xidmət edəcəyini bildirib.

TRACECA HK Daimi Katibliyinin yeni baş katibi və Özbəkistanın nəqliyyat nazirinin müavini Casurbek Çoriyev iclasın yekunları ilə bağlı jurnalistlərə açıqlamasında bildirib ki, Azərbaycan Orta Dəhlizin inkişafında əsas aktor olaraq qalacaq: "Biz Azərbaycansız keçinə bilmərik. Bütün yollar Azərbaycandan keçir – bunlar əsas limanlardır. Azərbaycanın töhfəsi hər il artır".

C.Çoriyevin sözlərinə görə, özəl sektor və Azərbaycan hökuməti infrastruktura böyük investisiyalar yatırır. O, həmçinin Ələt qəsəbəsində – Ələt Azad İqtisadi Zonasında yeni hava limanının inşasının davam etdiyini xatırladıb. Yeni baş katib TRACECA ilə digər nəqliyyat təşkilatları və forumları arasında sıx əməkdaşlığın qurulmasının vacibliyini, eləcə də vacib infrastruktur layihələrinin maliyyələşdirilməsi üzrə bank sektorunun və özəl kapitalın cəlb edilməsinin zəruriliyini də vurğulayıb.

*

Qeyd edək ki, TRACECA (Transport Corridor Europe–Caucasus–Asia) Avropa–Qafqaz–Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyata dair Əsas Çoxtərəfli Sazişi imzalamış 14 dövləti birləşdirən beynəlxalq səviyyədə tanınmış proqramdır. Proqramda Azərbaycan, Gürcüstan, Ermənistan, Bolqarıstan, İran, Qazaxıstan, Qırğızıstan, Moldova, Rumıniya, Tacikistan, Türkmənistan, Türkiyə, Özbəkistan və Ukrayna iştirak edir. TRACECA çərçivəsində əsas məqsəd Avropa ilə Asiya arasında təhlükəsiz, sürətli və səmərəli nəqliyyat əlaqələrinin formalaşdırılmasıdır. Proqram iştirakçı ölkələr arasında tranzit imkanlarının genişləndirilməsi, logistika infrastrukturunun modernləşdirilməsi və ticarət dövriyyəsinin artırılmasına xidmət edir.

Girişdə qeyd etdiyimiz kimi, qlobal ticarət marşrutlarının yenidən formalaşdığı, geosiyasi dəyişikliklərin beynəlxalq logistika zəncirlərinə birbaşa təsir göstərdiyi bir mərhələdə TRACECA platformasının aktuallığı daha da artır. Astanada keçirilən TRACECA HK-nın XVIII illik iclası da göstərdi ki, Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizi artıq yalnız regional təşəbbüs deyil, Avrasiya məkanında iqtisadi və strateji maraqların kəsişdiyi əsas marşrutlardan birinə çevrilir.

Qazaxıstanın TRACECA üzrə sədrliyi dövründə prioritet kimi 2027–2036-cı illəri əhatə edən yeni inkişaf strategiyasının hazırlanması təsadüfi deyil. Çünki son illərdə dünya ticarətində müşahidə olunan transformasiya ənənəvi marşrutların alternativlərlə əvəzlənməsini sürətləndirib. Xüsusilə Orta Dəhlizə marağın artması TRACECA iştirakçılarının qarşısında yeni imkanlarla yanaşı, yeni çağırışlar da yaradıb. Bu baxımdan uzunmüddətli strategiyanın hazırlanması dəhlizin rəqabət qabiliyyətinin qorunması və tranzit imkanlarının genişləndirilməsi üçün vacib hesab olunur.

Astanadakı müzakirələrdə Azərbaycanın xüsusi vurğulanması isə təsadüfi deyil. TRACECA HK Daimi Katibliyinin yeni baş katibi Casurbek Çoriyevin "Biz Azərbaycansız keçinə bilmərik" fikri ölkəmizin Orta Dəhlizdə oynadığı strateji rolu açıq şəkildə nümayiş etdirir. Coğrafi mövqeyi, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı–Tbilisi–Qars dəmir yolu və genişlənən logistika infrastrukturu Azərbaycanı Avropa ilə Asiya arasında əsas tranzit qovşaqlarından birinə çevirib. Yeni hava limanının tikintisi, multimodal daşımaların inkişafı və özəl sektorun prosesə cəlb olunması ölkənin tranzit potensialının uzunmüddətli perspektivdə artacağını göstərir. Bütün bunlar onu deməyə əsas verir ki, TRACECA artıq sadəcə nəqliyyat layihəsi deyil, region ölkələrinin iqtisadi inteqrasiyası, ticarət təhlükəsizliyi və geoiqtisadi əməkdaşlığı üçün strateji platformaya çevrilməkdədir. Bu prosesdə Azərbaycanın rolu isə yaxın illərdə daha da artacaq.

***Səxavət HƏMİD***
***XQ***

# Bakı həbsxanası, "Qarabağ kartı" və Ermənistanda "kim-kimi"?

## *David Babayanın sərsəmləmə səbəbləri*

**Canını tapşırmış qondarma "Dağlıq Qarabağ respublikası"nda müxtəlif oyuncaq postlar, o cümlədən "xarici işlər naziri" kimi qondarma vəzifə tutmuş, hazırda Bakı həbsxanasında cəza çəkən David Babayan audiomüraciət yayıb. Daha doğrusu, sərsəmləyib və bu məxluqun dediklərini iki kontekstdə qiymətləndirmək mümkündür – hüquqi və siyasi.**

Hüquqi məsələlər üzərində dayanmağa lüzum yoxdur. Çünki onların da siyasi aspektə söykəndiyi aydındır. Necə deyərlər, ayının min oyunu bir armudun başındadır. Məsələn, Babayan iddia edib ki, guya, Azərbaycan tərəfi ona apellyasiya şikayəti vermək üçün şərait yaratmayıb, bununla əlaqədar müraciətləri yoxa çıxarılıb, nəticədə beynəlxalq məhkəmələrə üz tutmaq imkanı əngəllənib və sair. Əlbəttə ki, bunlar ağ yalandır, məhkəmə qanunvericiliyə tam uyğun şəkildə keçirilib.

Bilavasitə siyasi kontekstə gəlincə, vurğulanmalı bir çox məqamlar var. Ondan başlayaq ki, Ermənistanda gələn ay keçiriləcək parlament seçkilərinə doğru ölkənin bəzi siyasi dairələri "Qarabağ kartı"nı işə salıblar. Hərdən elə təsəvvür yaranır ki, erməni cəmiyyəti seçimi separatizmin davam etdirilməsi və etdirilməməsi, yaxud Azərbaycana qarşı düşmənçiliyin saxlanılması və ya saxlanılmaması arasında edəcək. Bir halda ki, Ermənistanın ikinci prezidenti, Xocalı cəlladı Robert Koçaryan seçki kampaniyası çərçivəsindəki mitinqdə 2 yaşlı körpəyə Qarabağa getmək arzusu "dedizdirirsə", başqa cür düşünməyə əsas yoxdur.

Heç şübhəsiz, Babayanın audiomüraciəti Ermənistandakı seçki dramatizmini gücləndirmək məqsədindən qaynaqlanır. O, yaxşı bilir ki, nəinki özünün, eyni zamanda, birlikdə cəza çəkdiyi digər separatçıbaşıların gün üzü görmək şansı yoxdur. Görünür, həbsxanada qala-qala pul qazanmaq fikrinə düşüb. Tam mümkündür ki, belə bir müraciət üçün Koçaryandan ənam alıb, yəni sifariş yerinə yetirib. Sabah Davidin kamera yoldaşları eyni işi tutsalar, qətiyyən təəccüblənmərik və hesab edərik ki, onları Koçaryanla yanaşı, Rusiyanın Ermənistandakı digər maşası Samvel Karapetyan "qaza gətirib".

Əlqərəz, Babayan bildirib: "...bu, məhkəmə prosesi deyil, xalqımızın keçmişinə, bu gününə və gələcəyinə qarşı etnosiyasi qisasdır, etnosiyasi linçdir".



Elə bu fikirdən onun sırf siyasi məqsədə kökləndiyini demək mümkündür. Babayan, öz aləmində, Qarabağ identikliyi yaradır, Ermənistandakı şovinist və revanşist kəsimin seçki gündəliyini "zənginləşdirir". Hər halda, bu kəsimə Bakı həbsxanasından "dəstək" motivi lazımdır.

Babayanın daha bir həyasızlığı müqəddəs "Qurani-Kərim"dən sitat gətirməsidir. O deyir ki, Allah təkəbbürlü və özündənrazıları qəbul etmir. Hər halda, Allah başqasının torpağına göz dikənləri nəinki qəbul etmir, eyni zamanda, lənətləyir. Separatçıların düşərgəsində təmsil olunmuş məxluq kimi Babayanın işi-gücü Azərbaycanın ərazi bütövlüyünü şübhələndirmək idi. "Məqsədinə" çata bilmədi, özü yıxılan isə ağlamaz. David nəinki ağlayır və sızlayır, ən qəbuledilməzi budur ki, təmsil olunduğu üfunət düşərgəsi tör-töküntülərinin maraqları naminə çalışır. O düşərgə ki, tərkibi uşaq qatilləri və müharibə cinayətkarları ilə doludur.

Hüquqdan danışan şəxs Azərbaycanın beynəlxalq miqyasda tanınmış tarixi ərazilərindəki davranışının, tutduğu "xarici işlər naziri" və digər postların hüquqa zidd olduğunun fərqinə varmırsa, deməli, ortada böyük pataloji xəstəlik var və xəstə Babayanın müraciətindəki son fikir budur: "Biz ədalət istəyirik". Görəsən, nə qədər həyasız olasan ki, ədalətdən dəm vurasan?! Təkcə Babayan yox, onunla birgə Bakı həbsxanasında cəza çəkən separatçılar varsa, deməli, ilahi ədalət təcəlli edib.

"Mən çıxışımda da bunu demişdim. Sadə insanların bununla əlaqəsi yoxdur. Burada mənə yaxşı münasibət göstərən çoxlu adi, normal insanlarla rastlaşmışam. Pis millət yoxdur. Buna görə bütün normal insanlara minnətdaram. Həqiqəti olduğu kimi demək lazımdır. Yaxşıya yaxşı, pisə pis demək lazımdır", - deyən Babayanın Azərbaycan dövlətinin geosiyasi nifrət yaydığına dair fikir səsləndirməsi isə həyasızlığın pik nöqtəsidir.

Tam aydındır ki, özünü obyektiv şəxs kimi təqdim etməyə çalışan Davidin mesajları sırf erməni cəmiyyətinə, daha doğrusu, hay elektoratınadır. Mesaj təxminən belədir: dövlət səviyyəsində Ermənistana nifrət aşılayan Azərbaycanla sülh mümkün deyil və deməli, sülh və barış gündəliyini dəstəkləyən qüvvəyə səs vermək, onu seçki qəlibinə çevirmək yolverilməzdir.

Ortaya elementar sual çıxır: əgər Babayan Azərbaycan dövlətinin ona qarşı ədalətsiz mövqe tutduğunu, heç hir şərait yaratmadığını, məhdudiyyətlər tətbiq etdiyini bildirirsə, o zaman onun səsli müraciəti necə Ermənistana çatıb? Hər halda, əngəl yaratmaq istəyənlər olsaydı, Davidin sərsəmləməsi "News.am"a gedib çıxmazdı. Gedib çıxıbsa, deməli, ona qarşı ədalətsizlik yoxdur. İndiki durumda Babayanın cəfəng çağırışındakı təfriqə motivinin düz yola gəlmək istəyən, sülh axtarışına çıxan erməni xalqını köhnə klişelərə qaytarmaq avantürizmi var ki, ən böyük ədalətsizlik məhz budur. Arzu edək ki, hay cəmiyyəti seçkidə doğru qərar verəcək, babayanların və onları ortaya atan buqələmunların yaydıqları Azərbaycana qarşı düşmənçilik təbliğatına uymayacaq.

***R.ƏVƏZ***
***XQ***

*Replika*

# Nikol–Levona, reallıq–mistikiya qarşı və ...hambal söhbəti

## *Paşinyan "eks"ləri ağ yuyub, qara sərir*



**"Biz sülhü düşüncə tərzinə çevirməliyik. Sülh hərbi əməliyyatların sadəcə təxirə salınması deyil, müharibə səbəblərinin aradan qalxması olmalıdır". Bu fikri Ermənistanın Baş naziri Nikol Paşinyan hakim "Vətəndaş sazişi" partiyasının deputatlığa namizədlərinin proporsional siyahısına rəhbərlik edən şəxs kimi bildirib. Paytaxt İrəvanda seçkiqabağı təşviqat kampaniyası çərçivəsindəki görüş zamanı vurğunu Ermənistanın eks rəhbərlərinin tənqidi üzərinə qoymuş Nikolun başlıca hədəfi ölkənin birinci prezidenti Levon Ter-Petrosyan olub.**

N.Paşinyan bildirib ki, eks prezidentlər L.Ter-Petrosyan, Robert Koçaryan və Serj Sarkisyan çiyin-çiyinə dayanaraq hakimiyyətimizə qarşı dövləti müdafiə etmələri barədə mistik hekayə uydurublar. "Levon Ter-Petrosyanın reytinqinin mənfi 25-ə düşməsinin səbəbi də budur. Bu, xalqın prinsipsizliyə və iradəsizliyə münasibətidir", – deyə Nikol vurğulayıb. O, həmçinin postsovet məkanının ən ziddiyyətli erməni siyasi xadimlərindən olan sabiq daxili işlər naziri Vano Siradegyanın "çox oxuyub, amma az anlayan" sözlərinin məhz Levona ünvanlandığını bildirib. Bu mənada, Paşinyanın R.Koçaryana ünvanladığı atmaca daha tutarlıdır. Hərçənd, Nikolun Robertlə söz davasını daha çox birincinin ikinciyə cavabı kimi də qiymətləndirmək olar. Paşinyan Koçaryanın ona münasibətdə işlətdiyi "hambal" sözünə "Robert+Koçaryan=hambal" şəklində qarşılıq verib.

Əlqərəz, "hambal" söhbətini bir kənara qoyub bildirək ki, N.Paşinyan 2008-ci il hadisələri zamanı öz silahdaşı olmuş L.Ter-Petrosyanın siyasətini "şərəfsizlik" adlandırıb. O, habelə, sülhün institusionallaşdırılmasına ehtiyacın duyulduğunu, sərhədlərin delimitasiyasının aparılmalı və onların açılmalı olduğunu bir daha təkrarlayaraq, əvvəldə diqqətə çatdırdığımız fikri dilə gətirib.

Qeyd edək ki, Paşinyan Ter-Petrosyanı ötən aykı açıqlamasında da hədəfə almışdı. Əslində, onun Levon haqqında söylədiyi fikirlər ikincini aşağılamaqdan başqa bir şey deyil. Məsələn, Paşinyan apreldə demişdi ki, Ter-Petrosyan Daşnaksütyun partiyasının ən saf nümayəndəsidir. Hərçənd, Levon heç vaxt bu qurumun üzvü olmayıb və şübhəsiz, Nikol bundan xəbərdardır. Elə isə Baş nazirin demək istədiyi nə idi? Paşinyan, faktiki olaraq, Levonun daşnaklar üçün alətə çevrilməsinə eyham vurmuş, buna görə birinci prezidentin hazırda rəhbərlik etdiyi Erməni Milli Konqresinin qarşıdakı seçkilərdə, ümumiyyətlə, heç bir şansının olmadığını demişdi. Təxminən belə: Ter-Petrosyan saf davranıb daşnakların Qarabağ avantürasına getməklə, hazırkı Ermənistan reallığındakı siyasi mübarizə şansını tamamilə itirib.

Digər tərəfdən, Nikol müəllimi olmuş Levona ona görə "saf" demişdi ki, ikincinin daşnak oyunbazlığına uyub reallığı gec dərk etməsi peşəkar siyasətçi üçün əsl faciə mahiyyəti daşıyan durumdur. Təsəvvür edin, bir ideologiyaya inanıb onu özünə həyat amalı seçirsən, sonra inandıqlarının cəfəng mahiyyəti, əslində, kiminsə diktəsi olduğu üzə çıxır. Ortada faciədən də betər, əsl fəlakət var və bu fəlakət təkcə Ter-Petrosyanın yox, ümumən, müstəqillik dövrü Ermənistanının siyasi və ictimai industriyasının miskin və rəzil yaşantısıdır.

Nikolun "mistik hekayə" məntiqi də Qarabağ avantürasıdır. O avantüra ki, L.Ter-Petrosyanlı, Robert Koçaryanlı və Serj Sarkisyanlı Ermənistan üçün dövlət ideologiyası halına gəlmişdi. Bu üçlükdən qəflət yuxusundan ayılanın məhz Ter-Petrosyan olduğunu deyə bilərik. Ona görə ayıldı ki, ulu öndər Heydər Əliyevin beynəlxalq miqyasdakı mahir və cəsarətli diplomatik gedişləri sayəsində çarəsiz duruma düşdü. Ancaq Levon Qarabağ qalibiyyətinin eyforiyasını yaşayan hay toplumuna həqiqətləri çılpaqlığı ilə deyə bilmədi, çarəni istefa verməkdə gördü. Paşinyan məhz bu istefanı "prinsipsizlik" adlandırır və onu haqlı saymaq mümkündür.

Bəli, "Qarabağ hərəkatı"nın ideoloqlarından sayılan L.Ter-Petrosyan istefa verib hakimiyyətin "Qarabağ klanı" deyilən quldur qruplaşmanın təmsilçisi olan Robert Koçaryana keçməsinə şərait yaratmaqla ən böyük prinsipsizliyi etdi. Elə bir prinsipsizlik ki, Ermənistanı bir dövlət kimi inkişafdan uzaq saldı. Elə bir prinsipsizlik ki, avantüranın dərinləşməsinə şərait yaratdı və beləliklə, tipik erməni xəstəliyinin xroniki hala keçməsini təmin etdi.

Bu gün də hay cəmiyyəti xəstəlikdən qurtula bilmir. Görünən budur ki, Paşinyan qarşıdan gələn parlament seçkilərinin kampaniya dövründə təkcə təbliğat aparmır, eyni zamanda, qapı-qapı düşərək, obrazlı desək, ermənilərə mərəz əleyhinə peyvənd vurur. "Peyvəndin" təsiri olacaqmı, bunu iyunun 7-də, yəni seçki günü görəcəyik.

Yada salaq ki, Paşinyan ötən aykı açıqlamalarının birində "keçmişləri siyasi həyatdan qovmaq" kimi ritorika da səsləndirmişdi. Onun hazırda bildirdikləri, böyük ölçüdə, əvvəl dediyinin davamıdır. Tam əminliklə demək olar ki, Ermənistan və erməni xalqı sülhü düşüncə tərzinə çevirmək istəyirsə, koçaryanlara, sarkisyanlara və barışı hərbi əməliyyatların təxirə salınması qismində görən digər avantüristlərə "yox" deməyi bacarmalıdır. Sülh, Paşinyanın təbirincə desək, müharibə səbəblərinin də aradan qalxması olmalıdırsa, deməli, keçmişin münaqişə təşəbbüskarları tarixin zibilliyinə göndərilməlidir. Nikol və tərəfdarlarının 7 iyun parlament seçkiləri xüsusunda apardıqları təbliğatın məğzini təşkil edən həm də budur.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Rusiya – Ermənistan: "boşanma" məntiqi və "taras bulbaçılıq"

## *Yaxud imperialist düşüncənin yeni yanaşmaları buxovlaması*



**Dahi Dostoyevskinin 1880-ci ildə çapdan çıxmış və dünya ədəbiyyatının incilərindən sayılan "Karamazov qardaşları" romanındakı sujet xətti belədir: ata daha artıq itaət tələb edir, oğul isə müstəqillik. Romanın əsas məziyyəti formal bağlılığın qalmasına baxmayaraq, mənəvi nüfuzun çökməsidir. Yəni əsərdəki Fyodr Karamazov ailə başçısıdır, amma artıq hörmət görmür, yalnız keçmişdəki statusuna arxalanır. Oğullar isə müxtəlif istiqamətlərə gedirlər - biri Qərb tipli rasionalizmə yuvarlanır, o biri dini mistikaya üstünlük verir, digəri isə üsyançıdır.**

"Karamazov qardaşları"nı təsadüfən xatırlamadıq. Məsələ ondadır ki, romanda ifadəsini tapan məqam rus siyasi şüurunun postsovet məkanı seqmenti üçün tam xarakterikdir. Təxminən belə: Biz sizi yaratdıq, qoruduq, indi isə bizdən uzaqlaşırsınız. Mövcud xüsusda Rusiya Prezidenti Vladimir Putinin Ermənistana münasibətdə dilə gətirdiyi "boşanma" metaforu, yumşaq qarşılana bilməz. Çünki "Karamazov qardaşları"na xas ailəvi-emosional tonun işə düşdüyünün şahidiyik. Çünki Putin, sanki, dövlətlərarası münasibət hüququndan yox, məişət münasibətlərindən söz açır. "Boşanma"ya qayıdacağıq.

...Üzərindən müəyyən müddətin keçməsinə baxmayaraq, həm Ermənistanın Baş naziri Nikol Paşinyanın Moskvaya səfəri və səfər gedişində Prezident Putinlə, bir növ, söz güləşdirməsinə bənzər söhbəti, həm də "Avropa Siyasi Birliyi"nin Zirvə toplantısında səslənmiş anti-Rusiya tezisləri ciddi müzakirə olunmaqdadır. Daha doğrusu, müzakirə Rusiyanın siyasi industriyasını cənginə alıb. Mövcud xüsusda Ermənistana nankor damğasının vurulduğunu görürük. Müzakirəni şiddətləndirən isə Putinin Moskva-İrəvan münasibətləri ilə bağlı dilə gətirdiyi və haqqında bəhs etdiyimiz "boşanma" sözüdür. Paşinyanın bu sözə dərhal cavab verdiyi məlumdur. Cavab təxminən belədir: Ailə-məişət terminləri siyasətə gəlməməlidir. Başqa sözlə desək, yalnız "Karamazov qardaşları"nı oxumaq lazım deyil. Paşinyan-Putin söz güləşdirməsinə gəlincə, burada durum daha dramatikdir. İkinciyə cavab verən birinci bildirmişdi ki, Ermənistan konstitusiyasına görə, səsvermə və seçilmək ixtiyarı yalnız ölkə pasportunu daşıyan şəxslərə verilir. Görəsən, Putinə bu tərzdə saymazyana cavabı eşitmək çoxmu lazım idi? Rusiyanın öz dostları kimi qiymətləndirdiyi şəxslərin Ermənistanda seçkidə iştirakından daşınmağa bu qədərmi ehtiyac duyulurdu? Yaxşı, tutalım duyulurdu. Ehtiyac beləmi ifadə olunmalı idi?

Bəli, hazırkı rus ictimai-siyasi düşüncə sisteminə görə ətraf nankorlarla doludur. İndi ən böyük nankor Ermənistandır. Amma bu yerdə, istər-istəməz, ya da Qoqolun "Ölü canlar"ı düşür. Əsərdə formal strukturların real həyatdan qopma səhnəsi canlanır. Yəni həm əvvəlki imperiya-bürokratik dilində danışır, amma sistem daxildən çürüyüb. Hazırda Rusiya fikir industriyasının postsovet inteqrasiyası barədə ritorikası da buna bənzəyir. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı, MDB, Avrasiya İqtisadi İttifaqı və mövcud arealdakı strateji müttəfiqlik kimi anlayışlar formal qalır, onların real emosional-siyasi məzmunu yalnız boş təsir bağışlayır.

Rusiya-Ermənistan münasibətlərində də görünən məhz budur: institutlar var, etimad yoxdur. Belədə ortaya sual çıxır: niyə Rusiya üçün ətraf nankorlarla doludur? Hesab edirik ki, başlıca məqam məhz bu suala cavabla bağlıdır. Sualı isə sualla cavablandıraq: Rusiya niyə "ata" olmalı və ya "atalığa" iddia etməlidir? Ermənistanla bağlı durumda məsələ bir az da dramatikdir: Nə üçün Rusiya "ər" olmalıdır? Hər halda, Putin "boşanma" dedikdə ölkəsini "arvad" qiyafəsində görmürdü.

Bəli, Rusiya erməniləri, belə demək mümkünsə, heçdən var edib. Yəni onları Cənubi Qafqaza köçürən, haylar üçün vilayət formalaşdıran çarizm olub. O vilayət ki, sonradan dövlətə çevrildi. O vilayət ki, yeni ərazilərlə təmin edildi. Ermənilər isə bunun "haqqını" verdilər – yaramaz əməllərlə Moskvanın imperiya ambisiyalarında alətə çevrildilər. Məsələn, Qarabağ avantürasına girişdilər.

Amma hazırda Paşinyan deyir ki, ermənilər daha mübarizə aparmaq yox, davasız-şavasız, rahat şəraitdə ömür sürmək istəyirlər və Ermənistan üçün "Qarabağ hərəkatı" səhifəsi qapanıb. Putin isə bu "hərəkatın" ermənilərdən əl çəkməməli olduğunun mesajını verir. Niyə, nə üçün? Axı Qoqolun "Taras Bulba"sındakı Andrey sevmək istəyirdi və sevirdi. Bu səhvdir, ya düzdür, başqa söhbətin mövzusudur. Ola bilər, Andrey sonra polyak qızının ona xəyanət səhnəsini yaşayacaq, amma Taras Bulbanın onu nankor qismində görməsi düzgün deyildi. Hər halda, seçim olmalıdır.

Bu gün, dediyimiz kimi, Rusiya ictimai rəyi Ermənistanı xəyanətkar və nankor olaraq təsəvvürə gətirir. Ona görə ki, haylar müstəqil seçim yolundadırlar. O zaman əvvəldə anonsunu verdiyimiz səbəbə qayıdaq və sual verək: Taras Bulbanın, yaxud "Karamazov qardaşları"ndakı Fyodrun, yəni Rusiyanın heçmi səhvi yoxdur? Görəsən, nə üçün ətraf Rusiyadan üz döndərir? Bəs Moskvanın İravana ondan "boşanmaması" üçün təklif etdiyi yaşam dividendi nədir? Görünən odur ki, təklif yalnız Qarabağ avantürası, yaşam yox, ölümdür və Ermənistan bununla razılaşmır. Rus düşüncə industriyası isə yuxarıdakı suallara cavab tapmaqdansa, özünü ittihama kökləyir. Sanki bütövlükdə Cənubi Qafqaz, loru dildə desək, Rusiyanın dədə mülküdür. Bəli, məhz dədə mülkü. Halbuki, dövr dəyişib. Deməli, yanaşma da dəyişməlidir.

Problem ondadır ki, Rusiya yanaşmanı dəyişmək istəmir. Hətta dəyişməməkdə israrlıdır və nəticədə Ermənistana münasibətdəki isterika diqqətdən yayınmır. Təsəvvürü mümkünsüz olsa da, 3 milyonluq ölkə 150 milyonluq ölkəni hövsələdən çıxarır. Durum, həqiqətən, tragikomikdir. Görəsən, Rusiya niyə bu gündədir? Səbəbdən danışacağımızı bildirmişdik. Əlbəttə, Rusiyada reallığı görənlərin mövcudluğunu da söyləmək mümkündür. Məsələn, Yaroslavlın keçmiş meri Yevgeni Urlaşov bu günlərdə maraqlı fikir səsləndirib. O, Cənubi Qafqaz xüsusundakı anti-Rusiya meyillərindən söz açarkən deyib ki, ölkəsinin Azərbaycan və Ermənistanla münasibətləri soyuqdur, Gürcüstanla isə qeyri-müəyyənlikdir. Sabiq merin fikrincə, bu, Rusiyanı qayğılandırmamalı, ölkə yalnız sülh yolu tutmalı, imperiya ambisiyalarından uzaq durmalıdır: "Mən ölkəmizin gələcəyini heç kəsi təhdid etməyən obrazında görürəm. Belə olmalıdır: biz sülh yolu tutan dövlətik, istəyirik ki, iqtisadi, mədəni və sair sahələrdə əməkdaşlıq edək, fikir mübadiləsi aparaq. Heç bir halda, heç kəsin torpağının 1 santimetrinə iddia etməməliyik".

Görəsən, Rusiyada urlaşovların sayı nə qədərdir? Hər halda, çox az. Amma Vladimir Solovyov kimi jurnalist cildinə girmiş şovinistlərin sayının çoxluğu nəzərimizdən yayınmır və onlar hələ də Rusiya üçün ənənəvi jandarm obrazını təlqin edirlər. Onlar üçün sərhədlər, dövlətlər anlayışı yoxdur, hesab edirlər ki, Rusiya istənilən ölkəni ən müxtəlif bəhanələrlə işğal edə bilər.

İndiki durumda, hətta, birbaşa sərhədi olmayan Ermənistana raket atılmasının mümkünlüyü barədə sərsəmləyənlər tapılır. Sən demə, Ermənistanda Rusiyaya rəğbət bəsləyən əhalini qorumaq lazım imiş! Bu qədər cəfəng formul ola bilərmi? Sualımız ritorikdir, belə cəfəngiyyat daşıyıcılarının, səbəb-nəticə əlaqələrini heçə sayanların Rusiyada at oynatmasında, Urlaşov kimi mütərəqqi düşüncə sahiblərinin ya azlığında, ya da onlar üçün meydanın darlığındadır.

Sonda belə qənaətə gəlirik ki, Rusiya dəyişməli, rahat nəfəs almalıdır. Dəyişmək və rahat nəfəs almaq üçün isə onun, ilk növbədə, öz vətəndaşı üçün cəlbediciliyi mütləqdir. Ölkədə ciddi şəkildə dərk edilməlidir ki, yeganə misyası dinlərini və millətlərini katolik polyaklardan, tatarlardan, yəhudilərdən və türklərdən qorumaq olan kazaklara və onların başında dayanan taras bulbalara daha ehtiyac yoxdur.

Dostoyevskinin Rusiyanın gələcək nicatını xalqın, millətin rus pravoslav dininə tapınaraq mənəvi kamilləşmə yolunu seçmə kazusu, yəni ənənələrə söykənmiş mühafizəkarlıq tipik imperialist düşüncə qarşısında yeni durumdadır və bu çatlar doğurur. Axı dünya güc dünyası olsa da, bu düşüncə keçmir. Çünki gücün və üstünlüyün sərt, bəzən də bağışlamağı bacarmayan olsa da, bəlli məntiqə əsaslandığı dünyada yaşayırıq.

***Əvəz CAHANGİROĞLU***
***XQ***

# Yeni Cənubi Qafqaz gerçəkliyi



## III MƏQALƏ

### Sülhün üstünlükləri

Bu mövzuda öncəki məqalədə Azərbaycan Prezidentinin vurğuladığımız bir fikrini təkrar xatırlatmaq istərdik: "Biz artıq sülhün üstünlüklərini görürük. Mən bunu dəfələrlə demişəm və bir daha təkrar edəcəyəm: sülhdən daha yaxşı heç nə yoxdur". Siyasi baxımdan sülhün üstünlüklərini görmək siyasi-diplomatik fəaliyyət kontekstində regional sülh gündəliyinin yeni mərhələsinə başlamaq deməkdir. Onun bütövlükdə dünya üçün siyasi və geosiyasi əhəmiyyəti dövlət başçısının aşağıdakı fikirlərində yığcam ifadə edilmişdir.

Azərbaycan lideri XIII Qlobal Bakı Forumunda bəyan etmişdir: "İşğala, etnik təmizləməyə və soyqırımına məruz qalmış, suverenliyini, ərazi bütövlüyünü və ləyaqətini güc tətbiqi ilə bərpa etmiş, daha sonra isə o zaman məğlub olmuş düşmənə sülh təklif etmiş ölkə olmağımız - hesab edirəm ki, bu, beynəlxalq ictimaiyyətlə paylaşa biləcəyimiz nadir bir təcrübədir. Mən dəfələrlə demişəm ki, biz Ermənistanla sülhü yalnız kağız üzərində əldə etməmişik, sülh sazişi yeddi ay əvvəl paraflandı və birgə bəyanat qəbul olundu. Lakin biz artıq real həyatda sülhü təmin etmişik. Sərhədimizdə sakit vəziyyət hökm sürür, atəş açılmır, artıq heç bir qurban və itki yoxdur".

Belə bir vəziyyətin yaranmasının təməlində bir sıra faktorlar (dəyərlər) dayanır. Onların sırasında Azərbaycan liderinin regiondakı ölkələrin siyasi dairələrini və onları himayə edənləri sülhdən başqa çıxış yolunun olmadığına inandırmaq ayrıca yer tutur. Məsələnin bu tərəfi liderlik aspektində çox önəmlidir.

### Liderin inandırma gücü

Hələ keçən əsrin 80-90-cı illərində Qərbdə, ümumiyyətlə, "inandırma etikası" adlı bir istiqamətə ciddi diqqət yetirilirdi (məsələn, Uilyam Uitkoff). Burada başlıca prinsip mənəviyyatla, əxlaqla fəaliyyətin münasibətləri fonunda alınan qərarlar və onlara başqalarını inandırmaq qabiliyyəti ilə bağlıdır. U.Uitkoff hesab edirdi ki, mütləq dəyərlərə özünün müqəddəs borcu kimi əməl etmək ayrıca əhəmiyyət kəsb edir.

Bu zaman fikrini ifadə edənin dinləyənlərin hansı reaksiya verdiyi deyil, özünün daxili mənəvi-əxlaqi, psixoloji və ideoloji özəlliklərini tam səmimiyyət və şəffaflıqla izah etməsi əsas yer tutur.

Yəni o cümlədən lider nəticədən asılı olmayaraq əqidəsinə, mənəvi qanununa və daxili inamına maksimum dərəcədə sadiq qalmalıdır. Buradan inandırma etikasının bir mühüm prinsipi yaranır: "davranışlar əqidə ilə müəyyən olunur, yəni səmimilik, ədalətlilik və inamla. Bu şərt isə avtomatik olaraq sərfəlilik faktorunu arxa plana atır.

Bəlkə də U.Uitkoffun yanaşmasında bir mütləqiyyət (absolyutizm) vardı. Lakin liderliyə inandırma etikasının tətbiqində vurğulanan məqamlar əhəmiyyətli yer tutmalıdırlar. O cümlədən, Cənubi Qafqaz elə qarışıq və əsrlərlə ədalət yolundan saptırılmış bir geosiyasi, siyasi, mədəni və ideoloji məkandır ki, onu yeni səviyyəyə yalnız liderin güclü inandırma etikası çıxara bilərdi. İlham Əliyev siyasi fəaliyyət təcrübəsi və konseptual yanaşması ilə bu tezisi tam sübut etmişdir!

Prezident İlham Əliyev yuxarıda vurğuladığımız fəaliyyət pinsipləri və daxili əminliyi sayəsində həm region dövlətlərinin siyasi dairələrini, həm də onlara havadarlıq edən güclü siyasilərini sülh gündəliyinin hər kəsə faydalı olduğuna inandıra bildi. Əlbəttə, Azərbaycan liderinin bu keyfiyyətə malik olmasında ulu öndər Heydər Əliyevin rolu çox böyükdür.

Çünki ümummilli lider Heydər Əliyev Azərbaycan üçün çox ağır olan bir dönəmdə özünün yüksək inandırma etikası sayəsində ölkəni, dövləti və cəmiyyəti kəskin böhran şəraitindən xilas edə bildi. Yəni Heydər Əliyev müasir mərhələdə Azərbaycan siyasi təcrübəsində inandırma etikasının özünəməxsus nümunəsini hazırlamışdır. Prezident İlham Əliyev bu siyasi təcrübəni uğurla sürətlə dəyişən situasiyalarda inkişaf etdirir.

Azərbaycanın sülh təcrübəsinin regional miqyasa proyeksiyası baxımından burada prinsipial xarakterli məqamlar mövcuddur. Onlar siyasi-diplomatik aspektdə çox vacib bir xüsusiyyəti ifadə edirlər. Həmin xüsusiyyətin bütövlükdə dünyanı sülhə inandırmaq baxımından ciddi rol oynadığını düşünürük. Dövlət başçısının forumdakı nitqində ifadə etdiyi aşağıdakı fikirlərdən onu görmək mümkündür.

### Vasitəçilərsiz sülh

İlham Əliyev XIII Qlobal Bakı Forumunda demişdir: "Biz Ermənistanla sülhə nail olduq, - biz deyərkən Azərbaycanı nəzərdə tuturam, – israr etdik ki, bunu vasitəçilərsiz təmin edək. Özlərini Minsk qrupu adlandıran vasitəçilərin 28 illik fəaliyyəti bir fəlakət idi. Həmsədrlərin məqsədi münaqişəni dondurmaq, onu əbədiləşdirmək və hər iki ölkəyə qarşı təzyiq aləti kimi istifadə etmək idi. Biz qərara gəldik ki, bu dırnaqarası vasitəçilikdən qurtulmalıyıq və ikitərəfli formatda – heç bir üçüncü tərəf olmadan fəaliyyətə başlayan kimi sülhə nail olduq. Beləliklə, bu bir təcrübədir və bu, sadəcə, nəzəriyyə deyil, bu, bizim yaşadığımız, indi isə şahid olduğumuz bir reallıqdır. Hesab edirəm ki, mövcud münaqişələrin həlli istiqamətində çalışarkən bu məsələ mütləq nəzərə alınacaq".

Tarixi və siyasi aspektdə əhəmiyyəti misilsiz olan təcrübədir. O, faktiki olaraq, qlobal geosiyasi düzəni və siyasi-hüquqi normaları təftiş etməyin zəruriliyini ortaya qoyan hadisədir. Çünki İkinci Dünya müharibəsindən sonra yaradılan əsas beynəlxalq institutların münaqişələrin dinc yolla həllində aparıcı yer tutmaları nəzərə alınmışdı. BMT bunun başlıca nümunəsidir. Avropa İttifaqı tam formalaşandan sonra onun da struktur tərkibində barışdırıcı, sülhü təminedici xüsusi struktur vahidləri yaradıldı. Məsələn, ATƏM və sonra ATƏT.

Lakin praktika sübut edirdi ki, vurğulanan beynəlxalq təşkilatlar heç də həmişə ədalətli, obyektiv və beynəlxalq hüquq normalarına tam uyğun fəaliyyət göstərə bilmirdilər. Buna baxmayaraq, güclü dövlətlər (əsasən BMT TŞ-nin daimi üzvləri) bu psevdosülh gündəmini dəyişməyə imkan vermirdilər. Hər hansı münaqişə meydana gələndə BMT və ya Aİ təşəbbüsü ələ alır və sonra problemi ədalətlə həll etmək əvəzinə konkret dairələrin marağına uyğun vəziyyəti "fırladırdılar".

Bununla beynəlxalq vasitəçilik öz gerçək mahiyyətini itirərək sülh, barış və əməkdaşlıq yaratmaq əvəzinə süründürməçilik, qondarma imitasiyalar və "vasitəçilik ilğımı" yaratmaqla məşğul olmağa başlamışdı.

Bunun nümunəsini Balkanlarda və Cənubi Qafqazda gördük. Balkanlarda NATO təşəbbüsü ələ aldı, Cənubi Qafqazda isə nə Azərbaycan, nə də Gürcüstanın ərazi bütövlüyünü "vasitəçilik" təmin edə bilmədi. Daha pis mənzərəni indi Ukrayna-Rusiya müharibəsini dayandırmaqda görmək olar. ABŞ/İsrail-İran müharibəsi isə bu baxımdan vasitəçilikdən məhrum bir prosesi xatırladır. BMT bununla bağlı müraciətlərə sıfır səmərə ilə baxır – sözdən başqa bu təşkilatın heç nəyi qalmamışdır.

İndi Azərbaycan Prezidentinin vurğuladığı siyasi təcrübə kontekstində vasitəçilərsiz sülhə nail olmağın fəlsəfəsi və siyasi-nəzəri anlamına diqqət edək. Burada Azərbaycan Prezidentinin "dırnaqarası vasitəçilikdən qurtulmalıyıq və ikitərəfli formatda – heç bir üçüncü tərəf olmadan fəaliyyətə başlamalıyıq" qərarının semantik izahı əsas rol oynamalıdır.

### 3 hədəf

Birincisi, Azərbaycan dünyada yeganə dövlət oldu ki, özünü beynəlxalq vasitəçilər kimi təqdim edən ATƏT-in Minsk qrupunun əsl simasını açdı. Aydın oldu ki, onlar həmişə süni oynamışlar. Əsas məqsədləri isə təcavüzkar Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarında hökmranlığını beynəlxalq hüquq müstəvisində "qanuniləşdir"məkdən ibarət olmuşdur. Azərbaycanın bu maskanı "yırtması" ümumilikdə müasir mərhələdə beynəlxalq vasitəçilik modelinin ən neqativ tərəfini dünyaya göstərdi. Nəticədə, sözün həqiqi mənasında, beynəlxalq vasitəçilik mexanizmi tarixinin ən böhranlı dönəmini yaşayır – heç bir ciddi siyasi lider onun faydalı olduğuna inanmır.

İkincisi, saxta vasitəçiliyin çöküşü fonunda Azərbaycan rəhbərliyi öncə region dövlətlərinə və daha sonra dünyaya sübut etdi ki, hərb meydanında qalib gəlmiş dövlət postmüharibə mərhələsində sülh yaradıcısı ola bilər. Bunun sübutunu hamı bilir: məhz Azərbaycan Prezidentinin səmimi, ədalətli, haqlı və o dərəcədə də hüquqi mövqeyində israr etməsi regionda sülh gündəliyinin real məzmun almasında həlledici rol oynadı. İndi Ermənistan əsas olaraq Azərbaycana inanır və sülh məsələsində Bakının ədalətli mövqeyinə ümid edir. Rəsmi İrəvanın Azərbaycanın yaratdığı regional sülh gündəminə inanmasında qardaş Türkiyənin də rolu böyükdür. Bu prosesin sülh müqaviləsinin imzalanmasına aparacağına hazırda çoxları əmindir.

Üçüncüsü, Azərbaycan Prezidenti faktiki olaraq müasir dünya geosiyasəti və siyasi-diplomatik təcrübəsinə "vasitəçisiz barış və sülh" anlamını gətirmişdir. Bu, qlobal miqyasda mühüm siyasi anlamı olan prosesdir. Əvvəllər münaqişə edən tərəflər başqalarının insafına, diplomatik məharətinə və hüquqa münasibətinə ehtiyac duyurdular. Azərbaycan təcrübəsi isə göstərir ki, müasir qarışıq qlobal geosiyasi mühitdə müstəqil dövlətlərin özləri ixtilafa son qoyaraq dinc, yanaşı yaşamağın üsullarını və mexanizmlərini axtarmalıdırlar. Bu, müstəqil, lakin dövlət gücü baxımından ranqı fövqəlgüclərdən aşağı olan dövlətlərin siyasi-diplomatik dairələri üçün özünəinam baxımından çox gərəkli nümunədir.

Regional sülh gündəminin vurğuladığımız üç aspektinin başqa bir çox vacib məsələyə təsiri aktualdır. Çünki vasitəçilərsiz barış və sülh avtomatik olaraq Prezident İlham Əliyevin böyük önəm verdiyi geniş geosiyasi məkanda ölkələrin bir-birinə bağlılığı sisteminin məzmunca transformasiyası məsələsinin dərkini gündəmə gətirir.

Dövlət başçısı forumda bununla bağlı ifadə etmişdir: "Mövcud çağırışlar kontekstində bu gün əhatə etmək istədiyim üçüncü mövzu isə bağlılıqdır. Biz görürük ki, münaqişələr ənənəvi nəqliyyat marşrutlarının pozulmasına səbəb olur və bu, həm insanlar, həm ölkələr, həm iqtisadiyyat, həm də tədarük zəncirləri üçün böyük çətinliklər yaradır. Bağlılıq və nəqliyyat marşrutları pozulduqda dünya ölkələrinin əksəriyyəti çox çətin vəziyyətlə üzləşir. Azərbaycan qazıntı yanacağı növlərinin satışından əldə etdiyi gəlirlər sayəsində nəqliyyat və logistika infrastrukturuna böyük sərmayə yatırıb. Bu gün biz Şərq-Qərb və Şimal-Cənub dəhlizləri üzrə əvəzolunmaz tərəfdaşıq və əslində, həm Orta Dəhlizdə, həm də Şimal-Qərb dəhlizində fəal iştirak edən və investisiya yatıran yeganə ölkəyik. Azərbaycan ərazisində hər iki dəhliz üzrə tikinti layihələri tam şəkildə başa çatdırılmışdır".

Məsələyə bu cür yanaşma regional sülh gündəminin iki vacib aspektini önə çəkir.

Birincisi, region daxilində bağlılığın xüsusiyyətləri.

İkincisi, böyük güclərin həmin bağlılığı qiymətləndirməsi və onun qlobal miqyasa proyeksiyası mümkünlüyünün konseptual "ölçülməsi".

Birinci aspekt bütövlükdə Cənubi Qafqaz regionunda yerləşən ölkələrin sülh, barış və əməkdaşlıq naminə bir-birinə bağlılığın geosiyasi və siyasi mexanizmlərini razılaşdırmalarını aktuallaşdırır.

İkinci aspekt isə böyük güclərin bu yeni regional mənzərəni qəbul edib-etməmələri ilə əlaqəlidir.

Hər iki aspekt sülh gündəliyinin davamlılığı baxımından çox əhəmiyyətlidir və onların vəhdətinin formalaşdırılması olduqca əhəmiyyətli məqamdır.

(ardı var)

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# İrəvan seçkilərinə Tbilisidən baxış

## *Qafqaz uğrunda mübarizənin davamı*

**Ermənistanda parlament seçkilərinə az vaxt qalıb. Bu seçkilər, sadəcə, ölkədaxili siyasi proses deyil, həm də regional əhəmiyyətli hadisədir. Gürcüstanın məsələyə münasibəti göstərir ki, İrəvanın seçəcəyi siyasi kurs yaxın illərdə regionun geosiyasi xəritəsinə təsir göstərəcək.**

Faktiki olaraq, qarşıdan gələn səsvermə Ermənistanın gələcək xarici siyasət istiqamətini müəyyənləşdirəcək. Hazırda müzakirələrin mərkəzində bir sual dayanır: İrəvan Qərbə inteqrasiyanı davam etdirəcək, yoxsa Moskva ilə daha sıx əməkdaşlıq modelinə geri dönəcək?

Rusiyanın "Vesti" informasiya portalına müsahibə verən erməni politoloq Viktor Soqomonyan bu seçkiləri "Qafqaz uğrunda mübarizə" kimi xarakterizə edib. Onun fikrincə, parlament seçkilərinin nəticələri bütün Cənubi Qafqazın siyasi mənzərəsinə təsir edəcək. Soqomonyan hesab edir ki, hakimiyyətə müxalifət qüvvələrinin gəlişi ölkənin yenidən Rusiyayönümlü siyasət yürütməsinə rəvac verəcək. Bunun baş verməməsi üçün Avropa İttifaqı hazırkı hakimiyyətə dəstək nümayiş etdirir.

Bu məsələ Gürcüstanda da diqqətlə izlənilir. Tbilisidə yaxşı anlayırlar ki, Ermənistanın xarici siyasət kursundakı hər hansı dəyişiklik regionun təhlükəsizlik balansına, iqtisadi marşrutlara və siyasi münasibətlər sisteminə təsir göstərəcək. Hazırda Ermənistanın xarici dünya ilə iqtisadi və logistik əlaqələrinin böyük hissəsi məhz Gürcüstan üzərindən həyata keçirilir. Bu amil Tbilisinin regiondakı rolunu yalnız siyasi deyil, həm də strateji-iqtisadi baxımdan əhəmiyyətli edir. Ona görə də Ermənistanda iyunun 7-də keçiriləcək parlament seçkiləri bu ölkədə diqqət mərkəzindədir. Bununla bağlı tanınmış ekspert Giya Nodiya bildirir ki, İrəvanın Moskva ilə münasibətləri əvvəlki səviyyəyə qaytarmağa çalışması regionda yeni güc balansı formalaşdıracaq. Ermənistanın Qərbə inteqrasiyanı sürətləndirməsi isə Cənubi Qafqazı böyük güclərin rəqabət meydanına çevirmək riskini artıracaq. Ekspert vəziyyəti belə şərh edir: "Region artıq lokal siyasi məkan statusundan çıxıb. Burada Rusiya, Avropa İttifaqı, ABŞ və digər qlobal oyunçuların maraqları toqquşur". Paşinyanın diplomatiyası isə bu rəqabəti eskalasiyaya çevirmədən, Qərbin iqtisadi və təhlükəsizlik alətlərindən regionda balanslaşdırılmış sülh mühiti yaratmaq üçün istifadə etməyə yönəlib.

Məhz bu səbəbdən Gürcüstan rəsmi olaraq Ermənistandakı siyasi proseslərə münasibətdə maksimum ehtiyatlı xətt tutub. Baş nazir İrakli Kobaxidze və parlament sədri Şalva Papuaşvili indiyədək Ermənistandakı seçki prosesi ilə bağlı mövqe nümayiş etdirməyiblər. Digər tərəfdən, Bidzina İvanişvili xəttinə yaxın və daha mühafizəkar siyasi dairələr Ermənistanın sürətlə Qərbə yönəlməsinə ehtiyatla yanaşırlar. Bu çevrələr hesab edir ki, regionun geosiyasi reallıqları nəzərə alınmadan atılan addımlar Cənubi Qafqazda yeni təhlükəsizlik riskləri yarada bilər.

Bununla belə, Gürcüstan rəhbərliyi üçün əsas prioritet regionda sabitliyin qorunmasıdır. Tbilisidə yaxşı anlayırlar ki, İrəvanda baş verə biləcək mümkün siyasi böhran, küçə etirazları və ya seçkisonrası qarşıdurma Cənubi Qafqazda yeni gərginlik dalğası yaradacaq. Bu baxımdan, Nikol Paşinyan hökumətinin daxili sabitliyi qorumaq və sülh prosesini başa çatdırmaq istiqamətindəki səyləri regional təhlükəsizlik baxımından mühüm faktor kimi qiymətləndirilir.

Şübhəsiz ki, bu risklər Gürcüstan üçün strateji əhəmiyyət daşıyır. Çünki regionda baş verən istənilən siyasi sarsıntı, ilk növbədə, iqtisadi layihələrə və ümumi təhlükəsizlik mühitinə təsir göstərir. Gürcü mediası və ekspert dairələrində tez-tez qeyd olunur ki, Ermənistandakı daxili qeyri-sabitlik investisiya mühitinə, tranzit daşımalarına və beynəlxalq tərəfdaşların Cənubi Qafqaza münasibətinə mənfi təsir göstərə bilər. Xüsusilə Orta Dəhliz layihəsinin aktuallaşdığı dövrdə Tbilisi regionda yeni gərginlik ocaqlarının yaranmasını öz maraqlarına birbaşa risk kimi qiymətləndirir. Bundan başqa, Gürcüstan hakimiyyəti anlayır ki, Ermənistanda baş verən proseslər ölkənin daxili siyasi mühitinə təsirsiz ötüşmür. Samtsxe–Cavaxeti bölgəsində məskunlaşan erməni icmasının Ermənistandakı hadisələrə həssas yanaşması Tbilisidə daim diqqət mərkəzində saxlanılır. Bu səbəbdən Gürcüstan rəhbərliyi İrəvanla münasibətlərdə balanslı və neytral xətti qorumağa önəm verir. Paşinyan hökumətinin regional sülhün qorunması naminə qonşularla ərazi iddialarından imtina etməsi və sərhədlərin delimitasiyası prosesini irəli aparması Gürcüstanda da müsbət qiymətləndirilir. Sabitliyə xidmət etdiyi bildirilir.



*

Gürcüstan müxalifəti isə iqtidardan fərqli olaraq proseslərdə açıq tərəf tutur. Xüsusilə qərbyönlü siyasi və intellektual çevrələr Paşinyanın yürütdüyü xətti müsbət qiymətləndirirlər. Onların fikrincə, hazırkı hökumətin hakimiyyətdə qalması Ermənistanın Avropa strukturlarına inteqrasiyasını sürətləndirə, regionda Rusiyanın rıçaqlarını zəiflədə və Cənubi Qafqazda yeni iqtisadi-siyasi tərəfdaşlıq modelinin formalaşmasına şərait yaradar. Hesab edirlər ki, son illər Ermənistanın xarici siyasətdə daha balanslı və çoxşaxəli kurs yürütməyə çalışması regionda yeni geosiyasi reallıq yaradıb.

Bu yanaşmaya görə, İrəvanın Qərbə açılması təkcə Ermənistan üçün deyil, bütövlükdə, Cənubi Qafqaz üçün yeni imkanlar deməkdir. Əgər Ermənistan Avropa ilə əlaqələrini dərinləşdirərsə, region beynəlxalq layihələr, investisiyalar və nəqliyyat-kommunikasiya təşəbbüsləri baxımından daha cəlbedici məkana çevrilə bilər. Bu baxışı müdafiə edən siyasətçilər arasında Salome Zurabişvili, Mamuka Xazaradze və Giorgi Qaxariya kimi siyasətçilər də var. Onlar çıxışlarında dəfələrlə vurğulayıblar ki, Cənubi Qafqazın gələcəyi region ölkələrinin Avropa siyasi və iqtisadi məkanına inteqrasiyasından keçir. Bu siyasətçilərin fikrincə, Ermənistanın Qərblə yaxınlaşması regionun beynəlxalq inteqrasiyasını gücləndirər, yeni təhlükəsizlik mexanizmlərinin formalaşmasına təkan verər, investisiyaları artırar.



Göründüyü kimi, Gürcüstanda Ermənistan seçkilərinə münasibət ikili xarakter daşıyır. Bir tərəfdə Ermənistanın Qərbə inteqrasiyasının region üçün yeni iqtisadi imkanlar, tranzit layihələrinin genişlənməsi və beynəlxalq investisiyaların artması baxımından müsbət nəticələr verə biləcəyi bildirilir. Digər tərəfdə isə Rusiya–Qərb qarşıdurmasının dərinləşməsi fonunda Cənubi Qafqazda yeni təhlükəsizlik risklərinin yaranması ehtimalı diqqət mərkəzində saxlanılır. Bununla belə, hər iki yanaşmanı birləşdirən xətt ondan ibarətdir ki, Ermənistan seçkiləri artıq yalnız daxili siyasi proses kimi qəbul edilmir. Bu seçkilər bölgədə qüvvələr balansının yenidən formalaşması, yeni geosiyasi konfiqurasiyaların yaranması və Cənubi Qafqazın beynəlxalq sistemdə rolunun dəyişməsi baxımından strateji əhəmiyyət daşıyır.

Beləliklə, Tbilisidə üstünlük təşkil edən yanaşma praqmatik və ehtiyatlıdır: əsas prioritet regionda sabitliyin qorunması, iqtisadi və tranzit layihələrin davamlılığı və Cənubi Qafqazın böyük güclərin rəqabət meydanına çevrilməsinin qarşısının alınmasıdır. Bu baxımdan Ermənistan seçkiləri təkcə siyasi hadisə deyil, regionun gələcək inkişaf trayektoriyasını müəyyən edə biləcək mühüm dönüş nöqtəsi kimi dəyərləndirilir.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# TAP Azərbaycanı Avropa ilə birləşdirən mötəbər enerji körpüsüdür

## *10 il əvvəl əsası qoyulmuş transmilli kəmərin illik nəqletmə gücü tezliklə 20 milyard kubmetrə çatdırılacaq*



**Trans-Adriatik Qaz Boru Kəməri (TAP) Azərbaycanı Avropa İttifaqının strateji tərəfdaşına çevirən etibarlı enerji körpüsüdür. "Köhnə qitə"nin enerji xəritəsinin zənginləşdirilməsinə mühüm töhfələr verən bu nəhəng ixrac marşrutunun təməli 10 il əvvəl–2016-cı il mayın 17-də qoyulub.**

Bu münasibətlə Yunanıstanın Saloniki şəhərində təntənəli mərasim keçirilib. Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm mərhələ hesab olunan təməlqoyma mərasimində Yunanıstanın baş naziri Aleksis Tsipras, Avropa Komissiyasının vitse-prezidenti Maroş Şefçoviç, eləcə də SOCAR, bp, "Snam", "Fluxys", "Enagas" və "Axpo" şirkətlərinin nümayəndələri iştirak ediblər.

Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan TAP layihəsinin həyata vəsiqə alması Azərbaycanın enerji sahəsində Qərbin fəal əməkdaşlıq edə biləcəyi bir ölkə kimi qazandığı yüksək inam və etimadın nəticəsi idi. Məhz bu səbəbdən Avropa İttifaqı tərəddüd etmədən üzünü qaz ehtiyatları ilə zəngin, mühüm tədarükçü rolunda gördüyü Azərbaycana tərəf çevirdi. Nəticədə, XXI əsrdə Avropanın enerji xəritəsini zənginləşdirəcək yeni bir qaz dəhlizinin formalaşdırılmasına əsaslı zəmin yarandı.

Trans-Adriatik Boru Kəməri Azərbaycan qazının böyük bazarlara çıxarılmasını təmin edən nəhəng enerji ixracı marşrutudur. TAP-ın ərsəyə gəlməsində ölkəmizin çox böyük rolu olub. Təsadüfi deyil ki, 2013-cü ildə boru kəmərinin tikintisi ilə bağlı imzalanmış müqavilənin iştirakçıları olan təsisçi şirkətlərin 60 faizi məhz Azərbaycandakı hasilatçılar idi. Bunlar, əsasən, hər biri 20 faiz iştirak payına malik SOCAR, bp və Statoyl şirkətləri idi. Yəni TAP-ın ərsəyə gəlməsinə sərf olunan əziyyətin, çəkilən xərcin yarıdan çoxu Azərbaycan və tərəfdaşlarının payına düşür.

Bir məqamı da qeyd edək ki, dünyada təbii qazın ən iri idxalçısı olan Avropa bazarına birbaşa çıxışla Azərbaycan, həm də öz ixrac imkanlarını şaxələndirmək imkanı əldə edib. Elə Cənub Qaz Dəhlizinin Avropa seqmenti olan TAP vasitəsilə hər il İtaliyaya 8-10 milyard kubmetr, Yunanıstan və Bolqarıstanın hər birinə isə 1-1,5 milyard kubmetrdən çox qaz nəqli olunması da məhz ixrac infrastrukturunun şaxələndirilməsinin nəticəsidir.

Qarşıdakı illərdə Avropanın Azərbaycan qazına tələbatın artması ilə əlaqədar TAP-ın mövcud nəqletmə gücünün iki dəfəyədək artırılması, eləcə də Avropa ölkələrinin qaz şəbəkələrini sözügedən kəmərlə əlaqələndirən yeni interkonnektorların inşası gözlənilir. Məlum olduğu kimi, illik ötürücülük qabiliyyəti 10 milyard kubmetr təşkil edən TAP-ın yeni borular çəkməyə ehtiyac olmadan mərhələli şəkildə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur. Hazırda isə TAP konsorsiumu kəmərin genişləndirmənin birinci mərhələsi üzrə işləri davam etdirilir.

Ümumilikdə, Avropanın enerji xəritəsinin zənginləşdirilməsinə mühüm töhfələr verən Trans-Adriatik Qaz Boru Kəməri layihəsi 12 il 5 ay əvvəl həyata vəsiqə alıb. Dəyəri 4,5 milyard dollar təşkil edən




kəmərin tikintisi isə 2020-ci ilin oktyabrında başa çatdırılıb. TAP-ın ümumi uzunluğu 878 kilometr təşkil edir ki, bunun da 550 kilometri Yunanıstanın şimal hissəsindən, 215 kilometri Albaniya ərazisindən, 105 kilometri Adriatik dənizinin dibi ilə, 8 kilometri isə İtaliya ərazisindən keçir.

Azərbaycan qazının TAP vasitəsilə İtaliya, Yunanıstan və Bolqarıstandakı istehlakçılara tədarükünə 2020-ci il dekabrın 31-dən başlanılıb. Bununla da ölkəmiz tarixdə ilk dəfə öz təbii qazını boru kəmərləri ilə Avropa bazarına çıxarmağa nail olub. Eyni zamanda, dünyada təbii qazın ən iri idxalçısı olan Avropa bazarına birbaşa çıxışla Azərbaycan, həm də öz ixrac imkanlarını şaxələndirmək imkanı əldə edib.

Xəzər regionu ilə Avropa qitəsi arasında vacib enerji körpüsü rolunu oynayan Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan TAP kəməri Azərbaycanın Avropa İttifaqının mötəbər enerji tərəfdaşı kimi mövqeyini getdikcə gücləndirir. Təkcə onu qeyd etmək kifayətdir ki, ötən 5 il 4 ay ərzində sözügedən kəmərlə 58 milyard kubmetrdən çox qaz nəql olunub. Ümumilikdə isə, hazırda TAP kəməri ilə Avropanın 12 ölkəsinə Azərbaycan qazı ixrac olunur.

TAP öz fəaliyyətini cari ilin ötən dövründə də uğurla davam etdirib. Energetika Nazirliyinin məlumatına görə, bu ilin 3 ayı ərzində Azərbaycandan Avropaya qaz satışı, təxminən, 3 milyard kubmetr təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə bir qədər çoxdur.

Yeri gəlmişkən, bu günlərdə TAP-ın da daxil olduğu "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyəti (SGC) yüksək reytinq qazanıb. "Moody's Ratings" beynəlxalq reytinq agentliyi "Cənub Qaz Dəhlizi" QSC-nin milli və xarici valyutada emitent üzrə uzunmüddətli kredit reytinqini "Baa3" səviyyəsində, həmçinin baza kredit qabiliyyəti qiymətləndirməsini "baa3" səviyyəsində müəyyən edib.

Agentlikdən bildirilib ki, SGC-nin reytinqləri Azərbaycanın suveren reytinqi ilə uyğunlaşdırılıb və şirkətin strateji əhəmiyyətini əks etdirməklə yanaşı, ölkənin əsas qaz layihələrində dövlətin maraqlarını təmsil edir. Qurum, həmçinin şirkətin kapitalında birbaşa və dolayı yolla Azərbaycan dövlətinin iştirakını, eləcə də zəmanətlərin verilməsi də daxil olmaqla dövlət dəstəyinin davamlı təcrübəsini nəzərə alıb.

"Moody's" qeyd edib ki, 2026-cı ilin sonuna qədər şirkətdəki azlıq payının Birləşmiş Ərəb Əmirliklərinin "Abu Dhabi National Oil Company" (ADNOC) ilə əlaqəli investisiya vasitəsi olan XRG-yə planlaşdırılan satışından sonra belə, dövlətin SGC-nin strategiyası və siyasəti üzərində nəzarəti və təsirini saxlaması gözlənilir. Bu baxımdan SGC-ni hökumətlə əlaqəli emitent hesab edən agentlik şirkətin müstəqil kredit qabiliyyətinin "baa3" səviyyəsində olmasını, Azərbaycanın suveren reytinqinin "Baa3" səviyyəsini, şirkətin defolt riski üçün hökumətdən çox yüksək asılılığını və maliyyə çətinlikləri halında təcili dövlət dəstəyinin yüksək ehtimalını nəzərə alıb.

Xatırladaq ki, "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsi və Cənub Qaz Dəhlizinin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında" 2014-cü il 25 fevral tarixli sərəncamı ilə "Şahdəniz" qaz-kondensat yatağının tammiqyaslı istismarı, Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) genişləndirilməsi, TANAP və TAP layihələrində dövlətin iştirak paylarının birləşdirilməsi, idarə edilməsi və maliyyələşdirilməsi məqsədilə yaradılıb.

Cəmiyyətin səhmlərinin 51 faizi dövlət mülkiyyəti olmaqla İqtisadiyyat Nazirliyinə, 49 faizi isə Azərbaycan Dövlət Neft Şirkətinə (SOCAR) məxsusdur. Qurumun nizamnamə kapitalı 2 milyard 415,8 milyon ABŞ dolları təşkil edir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Qarabağ və Şərqi Zəngəzur yatırımlara açıqdır

**İndiyədək dünyanın 39 ölkəsi işğaldan azad olunmuş Qarabağ bölgəsinə investisiya qoyuluşu üçün müraciət edib. Bu da bölgəyə beynəlxalq marağın artdığını və Qarabağda yaradılan biznes mühitinin investorlar üçün cəlbedici olduğunu nümayiş etdirir.**

Bu barədə Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsi İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Qarabağ Ərazi Vergilər Baş İdarəsinin rəisi Ələkbər Məmmədova istinadən məlumat yayıb. Vergi rəsmisinin sözlərinə görə, müraciətlər arasında Türkiyə, İran, Macarıstan, Qazaxıstan və Rusiyadan olan investorların payı daha çoxdur.

Hazırda xarici investorların iştirakı ilə bir sıra iri layihələr icra olunduğunu diqqətə çatdıran Ə.Məmmədov bu təşəbbüslər çərçivəsində Türkiyənin "Dəmirörən" və "Dost Aqropark", Özbəkistanın "Agro Sonuat İnnovator" şirkəti tərəfindən nar bağlarının salınmasını, Araz Vadisi İqtisadi Zonasında Litvanın "Dominari" mebel klasterini, İsveçrənin "Holcim" sement anbarını və Rusiyanın "Kamaz" xidmət mərkəzini, eləcə də Pakistanın "Azerbaijan Rice Processing Mill" MMC-ni və Belarusun "Agrokombinat Dzerjinski" ASC quşçuluq təsərrüfatını misal çəkib. Bu layihələrin regionda həyata keçirilən layihələr bölgənin istehsal potensialının gücləndirilməsinə mühüm töhfə verir. Bölgədə müəyyən edilmiş prioritet istiqamətlərə uyğun olaraq



istehsal və xidmət infrastrukturunun genişləndirilməsinə xidmət etdiyini vurğulayan vergi rəsmisinin sözlərinə görə, Qarabağ bölgəsində investisiya layihələrinin həyata keçirilməsi təkcə iqtisadi fəallığın artırılmasına deyil, həm də yeni iş yerlərinin yaradılmasına, yerli sahibkarlığın inkişafına və müasir texnologiyaların tətbiqinə şərait yaradır.

Ə.Məmmədov daha sonra deyib: "Xarici tərəfdaşlarla əməkdaşlıq çərçivəsində kənd təsərrüfatı, turizm, emal sənayesi və xidmət sektoru əsas inkişaf sahələri kimi müəyyən edilib. Bu sahələr üzrə layihələrin icrası Qarabağın iqtisadi inteqrasiyasını sürətləndirir və dayanıqlı inkişaf modelinin formalaşmasına xidmət edir. Qarşıdakı dövrdə də xarici investorlarla əməkdaşlığın genişləndirilməsi və yeni layihələrin cəlb olunması istiqamətində işlər davam etdiriləcək".

***XQ***

# Azərbaycanın rəqəmsal inkişaf uğurları TDT tribunasında

## *Türk dövlətləri yeni nizamın texnoloji əsaslarını hazırlayır*

**Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstanın Türküstan şəhərində, Türk Dövlətləri Təşkilatının dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə səsləndirdiyi fikirlər bir daha göstərdi ki, dünyada baş verən rəqəmsal dəyişikliklər yeni inkişaf mərhələsinin əsas xəttidir. Dövlət başçısı çıxışında vurğuladı ki, görüşün mövzusu dövrümüzün çağırışlarını və prioritetlərini dolğun şəkildə əks etdirir. Bu gün rəqəmsal inkişaf və süni intellektin yaratdığı imkanlar qlobal rəqabətin istiqamətini müəyyənləşdirir və türk dövlətlərinin də bu prosesdə ön mövqedə dayanması vacibdir.**



Eyni zamanda, ölkədə süni intellektdən məsuliyyətli istifadənin təmin edilməsi, onun qanunazidd məqsədlər üçün tətbiqinin qarşısının alınması istiqamətində də ardıcıl tədbirlər görülür. Bu, texnoloji inkişafın təhlükəsizlik, hüquqi tənzimləmə və ictimai məsuliyyətlə paralel aparıldığını göstərir. Beləliklə, Azərbaycan süni intellekt sahəsində həm inkişafı sürətləndirməyə, həm də bu prosesə nəzarətli və dayanıqlı çərçivə verməyə çalışır.

Xatırladaq ki, Prezident İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planı" Azərbaycanda rəqəmsal inkişaf prosesini ayrı-ayrı təşəbbüslər mərhələsindən çıxararaq vahid strateji idarəetmə modelinə yönəldir. Bu mərhələdə müşahidə olunan dinamikanın əsas səbəblərindən biri rəqəmsal transformasiyanın ali idarəetmə səviyyəsində koordinasiya edilməsidir. Rəqəmsal İnkişaf Şurasının təsis olunması və quruma Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etməsi rəqəmsallaşmanı dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevirib. Belə yanaşma qərarvermə prosesinin çevikliyini artırır, müxtəlif qurumlar arasında koordinasiyanı gücləndirir və inzibati maneələrin minimuma endirilməsinə şərait yaradır.

Rəqəmsal keçidin sürət qazanması üçün əsas şərtlərdən biri güclü texnoloji infrastrukturun formalaşdırılması idi və artıq bu istiqamətdə mühüm nəticələr əldə olunub. Ölkənin ən ucqar yaşayış məntəqələrinə qədər genişləndirilmiş "GPON" optik internet şəbəkəsi rəqəmsal inkişafın əsas dayaqlarından hesab olunur. Yüksək sürətli məlumat ötürülməsi generativ süni intellekt, böyük verilənlər bazası və bulud texnologiyalarının tətbiqi üçün vacib texniki imkanlar yaradır. İnfrastruktur imkanlarının genişlənməsi rəqəmsal dövlət xidmətlərinin regionlar üzrə daha əlçatan olmasına və ölkə daxilində rəqəmsal fərqlərin azalmasına xidmət edir.

Rəqəmsal inkişaf strategiyasının dayanıqlılığını təmin edən ən vacib istiqamətlərdən biri isə insan kapitalının gücləndirilməsidir. Fəaliyyət Planına uyğun olaraq təhsil sistemində rəqəmsal savadlılıq, kibertəhlükəsizlik və süni intellektlə bağlı mövzuların geniş yer alması gələcəyin peşə bazarına hazırlıq məqsədi daşıyır. Süni intellekt texnologiyalarının tətbiqi həmin sistemləri idarə edə biləcək peşəkar kadrların hazırlanmasını və rəqəmsal xidmətlərdən istifadə bacarığına malik cəmiyyətin formalaşdırılmasını tələb edir. Məhz bu çoxşaxəli yanaşma Azərbaycanın qlobal rəqəmsal transformasiya prosesində fəal iştirakçı kimi çıxış etməsinə şərait yaradır.

Prezident İlham Əliyev çıxışında bildirdi ki, Avropa ilə Asiya arasında "Rəqəmsal İpək Yolu" layihəsi icra olunur. Bu layihənin tərkib hissəsi olan, Azərbaycan ilə Qazaxıstan arasında Transxəzər fiber-optik kabel xəttinin yaxın aylarda istifadəyə verilməsi planlaşdırılır.

Qeyd edək ki, "Rəqəmsal İpək Yolu" regionun rəqəmsal ekosistemini dünyanın ən qabaqcıl standartlarına uyğun inkişaf etdirəcək, habelə xarici internet təminatçılarından asılılığı azaldacaq, Mərkəzi və Cənubi Asiya regionlarında 1,8 milyard insan üçün müxtəlif rəqəmsal xidmətlərə çıxış imkanını yaxşılaşdıracaqdır. Bu iddialı layihə Azərbaycan və Gürcüstanda müasir Data mərkəzlərinin və internet trafik mübadiləsi məntəqələrinin yaradılması, regionun qlobal hiper miqyasçeviricilər üçün potensial təyinat yerinə çevrilməsi imkanlarını nəzərdə tutur.

Layihənin birinci istiqaməti Azərbaycan və Qazaxıstan arasında Xəzər dənizinin dibi ilə magistral fiber-optik kabel xəttinin çəkilməsidir. Sumqayıt və Aktau arasında çəkiləcək kabel xəttinin ümumi uzunluğu 380-400 km təşkil edəcək, magistral kabel xəttinin məlumat ötürmə gücü isə 400 terabit/s-ə qədər olacaq. Xatırladaq ki, 2019-cu ilin 19 noyabr tarixində isə Qazaxıstanın Aktau şəhərində Azərbaycan və Qazaxıstan arasında Xəzər dənizinin dibi ilə Transxəzər fiber optik kabel xəttinin çəkilişi üzrə Qazaxıstan ərazisində işlərə başlanmasına dair mərasim baş tutmuşdur.

2023-cü ilin iyun ayında da Bakıda "AzerTelecom" və "Kazakhtelecom" arasında Azərbaycan-Qazaxıstan marşrutu üzrə Xəzər dənizinin dibi ilə Transxəzər fiber-optik rabitə xəttinin tikintisi və istismarı üzrə birgə müəssisənin yaradılmasına dair Səhmdarlar müqaviləsi imzalanıb. Layihənin mühüm hissəsi olan bu müqavilə onun yekunlaşdırılması istiqamətində tərəflərin birgə səylərini və fəaliyyətlərini əks etdirir. 2025-ci ilin 4 mart tarixində isə Bakıda "Xəzər dənizinin dibi ilə sualtı fiber-optik kommunikasiya xətlərinin tikintisinə dair müqavilənin təsdiq edilməsi haqqında" sənəd imzalanmışdır.

Tikinti isə prosesi sahilyanı ərazilərin və dəniz dibinin qiymətləndirilməsi, yüksəkkeyfiyyətli, davamlı kabellərin layihələndirilməsi və istehsalı, habelə onların daşınması və quraşdırılması da daxil olmaqla bir neçə mərhələdə həyata keçiriləcək. Tikinti üzrə tenderin qalibi "HMN Technologies Co." (Huawei Marine Services) şirkəti olmuşdur və müqavilə şərtləri tam razılaşdırılmışdır. Tikinti işlərinin 2026-cı ilin sonuna qədər yekunlaşdırılması planlaşdırılır.

Ümumiyyətlə, TDT-nin yeni dünya nizamındakı mövqeyi mövcud cağırışlar və perspektivləri tam əhatə etməli və üzv dövlətlər bu çərçivədə səylərini daha da genişləndirməlidirlər. Rəqabətqabiliyyətli sistemin qurulması və mövcud təhdidlərə qarşı birgə mübarizə dövrün texnoloji yeniliklərinin inteqrasiyasından birbaşa asılıdır.

***Nurlan ABDALOV***
***XQ***

### *Ekspert rəyi*



**Qalib QURBANOV,**
**Azərbaycan İnternet Cəmiyyətinin sədri**

İnternetin inkişafı məsələsində deyə bilərəm ki, Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycanda sabit genişzolaqlı internetin əhatəsi 100 faizə çatdırılmışdır. Bütün dövlət xidmətlərinin vahid rəqəmsal platforma üzərindən həyata keçirilməsi istiqamətində işlər davam edir.

Ölkəmiz artıq öz qarşısına qoyduğu məqsədlərə yaxınlaşır və inkişaf etmiş ölkələrin səviyyəsinə müəyyən dərəcədə çatıb. Praktik olaraq ölkənin bütün yaşayış məntəqələri, o cümlədən ucqar bölgələr internet xidmətləri ilə təmin olunub. Bununla belə, Prezident tərəfindən qarşıya qoyulan əsas vəzifələrdən biri internetin sürətinin və keyfiyyətinin davamlı şəkildə artırılmasıdır. Yəni məqsəd inkişaf etmiş ölkələr səviyyəsində yüksək sürət və sabit əlaqəyə nail olmaqdır. Görülən işlər kifayət qədərdir, lakin sürətin artırılması və xidmətlərin əlçatanlığının yüksəldilməsi məsələsi hələ də aktual olaraq qalır. Bu istiqamətdə provayderlər tərəfindən davamlı iş aparılır. Prezident yanında keçirilən müvafiq komissiyanın iclasında da bu sahə üzrə yeni vəzifələr müəyyənləşdirilib.

Süni intellekt mövzusuna gəldikdə isə, artıq demək olar ki, onun tətbiqi cəmiyyətdə, xüsusilə gənclər arasında geniş yayılıb. Dövlət qurumlarında da süni intellektin imkanlarından istifadə olunur. Məsələn, sənədlərin hazırlanması, məktubların tərtibi, çıxış mətnlərinin yazılması və digər inzibati proseslərdə bu texnologiyadan yararlanılır. Bu səbəbdən bəzi həssas sahələrdə, o cümlədən dövlət sirri təşkil edən məlumatların işlənməsində süni intellektdən istifadəyə xüsusi yanaşma tələb olunur. Belə hallarda hüquqi və texniki tənzimləmələrin hazırlanması zəruridir. Dövlət sirrinin qorunması üçün xüsusi təhlükəsizlik modulları tətbiq olunmalı, məlumatların emalı yalnız nəzarət olunan sistemlər vasitəsilə həyata keçirilməlidir.

Bundan əlavə, bir sıra ölkələrlə, xüsusilə İsraillə süni intellektin işlənməsi və tətbiqi sahəsində birgə əməkdaşlıq istiqamətində işlər aparılır. Bu əməkdaşlıq çərçivəsində texnoloji təcrübə mübadiləsi və birgə layihələrin həyata keçirilməsi nəzərdə tutulur.

*Səfər qeydləri*

# Arazqırağına "Böyük qayıdış"

**Mayın 9-da dövlət başçısının Şərqi Zəngəzura növbəti–sayca 13-cü səfəri oldu. Hər səfər bizi birinci "Böyük Qayıdış" Proqramının yekununa daha da yaxınlaşdırır, işğaldan sonra ilk gördüyümüz bu torpaqların mənzərəsini tamamilə dəyişir, yeni-yeni layihələrin anonsunu verir. Şərqi Zəngəzur yenidən inşa edilir. Burada proses o qədər sürətlə gedir ki, bu gün əldə olunan məlumatlar sabah köhnə ola bilər. Ona görə də bu qeydlər daha çox təəssüratlardır.**



Mayın 7-si. Biz Horadizdən üzü Zəngilana doğru gedirik. Çoxlarına bu tablo tanışdı. Sağda və solda dağıdılmış kəndlər, uçurulmuş binalar, ruhların tərk etdiyi məzarlıqlar, kövrəlmiş qəbir daşlarına bağlanmış qan rəngli xatirə lentləri və s. Bütün bunlar göz yaddaşımızın rəfində sıralanıb hərəsi öz yerini tutub...

Yeni inşa edilmiş Ağalı oteldə nahar edirik. Ora-bura uçuşan qaranquşlar az qalır adamın gözünə girsin. Onlara qoşulub uçmaq istəyirsən. Otelin fasadı boyu yüzlərlə yuva qurulub. Xarabalıqlarda bayquşlar olur, abad yerlərdə qaranquşlar. Bayquşlar getdi, qaranquşlar gəldi. Qaranquşlar köçəri deyillər, iqlim dəyişən quşlardır. İndiki bu abad iqlim onların iqlimidir. Qaranquşların sevinci bizim sevincimizdən daha çoxdu. Quşlar abadlığın geridönməz olduğunu adamlardan daha çox hiss edirlər. Qaranquş yuva quran evin işığı heç vaxt sönməz…

Yeni salınmış kənd və qəsəbələr bölgənin gələcək simasının bələdçisi kimi bizi irəliyə aparır. Şərqi Zəngəzurun səmasından keçən hava yolu–Zəngilan Hava Limanı yeni salınan dəmir və quru yolu ilə bir vəhdət təşkil edir. Sağımıza, solumuza baxa-baxa irəliyə, lap sona qədər gedirik. Ağbəndin birinci tuneli bizi qarşılayır. Bir az qabaqda ikinci, ondan da sonra üçüncü tunel gəlir. 6 kilometr o tərəfdə isə sərhəddir. İlk tunelə çatanda işğaldan sonra Zəngilana birinci dəfə gəldiyim vaxt daxilimdə qıvrılan təlatümlü səsi bir də eşitdim. "Burdayıq, gəlmişik…". O vaxt həmin səs iliyimə qədər işləmişdi nəfəs kimi dağlara, daşlara, yaralanmış torpağa yayılmışdı. Həmin səsi yenidən eşitdim və mənə elə gəldi ki, o səs şəhid dostlarımın səsidir, yaxın-uzaq tanışların və ən başlıcası, bura gələ bilməyən, lakin könlü buralarda olan adamların sədasıdır, məni seçib, mənə əmanət edilib. Mən o səsin götürdüyü yükü daşımalı idim, tuneldən-tunelə, mərzimizə, səddimizə, sərhədimizə qədər.

Əcaba, biz hardayıq indi? Hardan hara gəldik. Nağıl kimi ömür, film kimi həyat. Horadizdən bura qədər cəmi 123 kilometrlik bir məsafədir. Biz bu məsafəni qət etmək üçün nə az, nə çox düz 31 il səbir etdik, dözdük, utana-utana, vicdan əzabı çəkə-çəkə, xəcalət təri tökə-tökə. Ədalətin zəif gücü bizi ovuda bilmədi, haqqın sözü düz dörd dəfə yerə düşdü, yerlə süründü, o vaxta qədər ki, içimizdən bir GÜC öz ƏDALƏTİ ilə ortaya çıxdı və bir xalqın, bir millətin əlindən alınmış hüququnu qanıyla, canıyla, namusu ilə geri aldı. Gücün Ədaləti Ədalətin gücünə sahib çıxdı. Güclü Ədalət olmayanda Ədalətli güc dünyaya gəlir. Biz həddimizi aşmadan səddimizə gəlib çatdıq. O səddə ki, orda indi Araz sakit-sakit axır, suyu da boldur, suyundan içənlərin sayı da çoxalır. Zəngilanlılar çətin unutsunlar. 1993-cü ilin oktyabrında bir şəhər, beş qəsəbə, səksən üç kənd çarəsiz qalmışdı burda Arazın vadisində. 31 il əvvəl 35 min zəngilanlı Arazın suyunun azalmasını çox istəyirdi. Naxçıvan o zaman Araza bənd vurub suyunu azaltmışdı ki, köməksiz qalan zəngilanlılar xilas olsunlar, xilas oldular da yurdlarında yurd salan ölümün pəncəsindən. Yurdlar dağıldı, dəyərlər dərbədər oldu. Cism yararsız olanda ruh bədəni tərk edər...

Ruhumuz düşdü, lakin ölmədi. İndi Arazın bu kiçik vadisində, balaca bir torpaq sahəsində elə böyük işlər gedir ki, deməklə qurtaran deyil. Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolu və Araz çayı üzərində yeni körpü, 123 kilometr uzunluğunda olan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd-Ermənistan Respublikası ilə dövlət sərhədi avtomobil yolu və üç tunel olduqca ciddi infrastruktur layihələridir. Bu yollarla paralel olaraq relsləri poladdan tökülmüş 110 kilometrlik Horadiz-Ağbənd dəmir yolu xətti uzanır. Bunlar məmləkətin qırılmaz çəlik qollarıdır, dartıb aparır bizi. Yeni yollar salınır, gələcəyin qatarı burdan keçəcək.

Getməyə yolun varsa, deməli, gələcəyin də var. Hava yolu, dəmir yolu, quru və su yolu. Bunlar hamısı bir boğaza, bir dəhlizə, geniş və rahat bir magistrala çıxaracaq bizi, adını nə qoyurlarsa, qoysunlar. Buradakı işlərin sərhədi yoxdur. Görməmək mümkün deyil. 44 günlük müharibədən əvvəl harda idik, indi hardayıq. 44 günlük müharibədən əvvəl bu torpaqlar şəhidləri doğdu, şəhidlər rifahı və tərəqqini gətirdi. Şəhidi olan torpaq müqəddəsdir, cənnətin bir parçasıdır. Harda doğulduğumuzun və harda yaşadığımızın fərqinə varmalıyıq. Hamı üçün haralısan sualının cavabı bir olmalıdır, "biz şəhid doğan və şəhid verən torpaqlardanıq"…

Arazın o tayında vadi boyu görünən kəndlər də Azərbaycan kəndləridir. Durduğumuz yer Azərbaycanın Şərqi Zəngəzuru, Arazın o tayı Azərbaycanın Cənubu, altı kilometr qabaqda isə Zəngəzurun Qərbi. Biz sərhədimizdəyik.

Taleyin işinə bax, Azərbaycan Respublikası coğrafi olaraq Azərbaycanla həmsərhəddir, sağda da, solda da, irəlidə də geridə də. Şimalın və şimal-qərbin qan donduran küləkləri, cənubun və cənub-şərqin səmum yelləri, yazılan və yazılmayan nəsnələr, deyilən və deyilməyən dez və düz xəbərlər, bunlar hamısı təfərrüatlardır, hər şey unudulacaq, hər şey keçib gedəcək, qalıcı olan yalnız gözümüzlə gördüklərimiz, toxunaraq hiss etdiklərimiz olacaq. Onları görürük, görməliyik, hiss etməliyik, canımızda, qanımızda, bütün varlığımızda. Biz durduğumuz bu yerdən, hərəkət etdiyimiz bu zamandan başqa yerlərə, başqa zamanlara tamamilə fərqli bir biçimdə, fərqli bir tərzdə gedəcəyik və gedirik də. Bu relslərdən keçəcək gələcəyin qatarı sağımızda və solumuzda olan Azərbaycan coğrafiyasını bizimlə bərabər məhz, bu yolla aparacaq qabağa...

6 il bundan əvvəl 123 kilometrlik bir məsafəni 44 günə gəldik, minaların üstü ilə addım-addım. Dağlar, yamaclar, yamaclardakı bütün canlılar, hər şey, hər şey hamısı minaların üstündə idi. Bayraq minaların üstündən qaldırıldı, sonra torpaq təmizləndi, cana gəldi, "ağıllı kəndlər" salındı. O vaxta qədər atalar uşaqların üzünə baxa bilmirdi, indimiz keçmişimizdən və gələcəyimizdən utanırdı. Bunlar arxada qaldı…

10 may 2026-cı il səfərimiz başa çatdı. Çox şey dəyişib və dəyişir, çox şey. Daha atalar oğullardan, oğullar nəvələrdən utanmır və utanmayacaq. Bu gün ATALAR GÜNÜdür. Bizi oyaq və ayıq saxlamaq üçün atalarımızın səsi qoy, həmişə qulaqlarımızda yaşasın...

Gəlmişik, çatmışıq, gələcəyin qatarını gözləyirik, baxırıq qatar gələn tərəfə, gələcək, mütləq gələcək...

***Bahadır ŞƏFİ***

---

# Qarabağ və Şərqi Zəngəzur "ağıllı" memarlıq üzərində ucalır

## *Layihələrdə milli ənənələr, "yaşıl" yanaşma və bəşəri dəyərlər qovuşur*

**Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olunandan sonra işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq prosesinin həyata keçirilməsi qarşıya ən mühüm strateji vəzifə kimi qoyuldu. Bu proses təkcə dağıdılmış şəhər və kəndlərin yenidən tikilməsi ilə məhdudlaşmadı. Eyni zamanda, milli yaddaşın bərpası, tarixi irsin qorunması, müasir şəhərsalma prinsiplərinin tətbiqinə xüsusi önəm verilməsi və insan amilinin əsas prioritetə çevrilməsi diqqət mərkəzində saxlanıldı.**

Bu gün Qarabağ və Şərqi Zəngəzurda gerçəkləşdirilən şəhərsalma siyasəti müasir Azərbaycanın inkişaf modelinin ən mühüm istiqamətlərindən biri olaraq mühüm önəm daşıyır. Bu modeldə iqtisadi səmərəliliklə yanaşı, sosial rifah, ekoloji tarazlıq, milli-mədəni dəyərlərin qorunması və humanizm prinsipləri xüsusi yer tutur. İşğal dövründə tamamilə dağıdılmış yaşayış məntəqələrinin yenidən qurulması zamanı əsas məqsəd əvvəlki vəziyyəti bərpa etməklə bərabər, daha təhlükəsiz, dayanıqlı, daha müasir və insanyönümlü yaşayış məkanları formalaşdırmaqdır.

### Mədəni irs və tarixi kimliyin qorunması

İşğaldan azad edilən ərazilərdə reallaşdırılan yenidənqurma işlərinin əsas xüsusiyyəti ondan ibarətdir ki, bu coğrafiyada şəhərsalma prosesi sistemli yanaşma əsasında həyata keçirilir. Yeni yaşayış məntəqələrinin salınması zamanı dünyanın qabaqcıl urbanistika təcrübəsi ilə Azərbaycanın zəngin memarlıq ənənələrinin sintezinə üstünlük verilir. Bu mənada müasir dövrdə şəhərsalma təkcə binaların tikilməsi anlamına gəlmir. Belə bir anlayış insanın rahat yaşayışı, sosial əlaqələrin düzgün təşkili, ekoloji mühitin qorunması, nəqliyyat infrastrukturunun optimallaşdırılması, ictimai məkanların yaradılması və estetik harmoniyanın təmin olunması kimi çoxsaylı amillərlə şərtlənir. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələr də məhz bu prinsiplər əsasında formalaşdırılır.

**Memar Asif Hüseynovun** sözlərinə görə, Qarabağda yeni şəhər və kəndlərin layihələndirilməsi zamanı "ağıllı" şəhər və "ağıllı" kənd konsepsiyalarının tətbiq edilməsi, "yaşıl" enerjinin inkişafına xüsusi önəm verilməsi, milli memarlıq elementlərinin qorunması, tarixi irsin bərpa olunması, sosial infrastrukturun kompleks şəkildə qurulması, müasir nəqliyyat-kommunikasiya sistemlərinin yaradılması kimi əsas istiqamətlərə xüsusi diqqət yetirilir. Bu yanaşma göstərir ki, işğalçının tamamilə dağıtdığı ərazilər sadəcə yenidən tikilmir, eyni zamanda, gələcəyin regionuna çevrilir.

Azərbaycan memarlığı əsrlər boyu zəngin estetik düşüncə və yüksək sənətkarlıq ənənələri ilə seçilib. Qarabağ bölgəsi isə bu baxımdan xüsusi əhəmiyyətə malik olub. Şuşa, Ağdam, Füzuli, Zəngilan, Laçın və digər ərazilərdə isə formalaşmış yaşayış üslubunun həm əlverişli coğrafi şəraitə, həm yüksək həyat tərzinə, həm də zəngin milli mədəniyyətə uyğun şəkildə inkişafı digər coğrafiyalarla müqayisədə fərqlənib. Buna görə də sözügedən qədim yaşayış məskənlərində işğaldan sonra reallaşdırılan tikinti-quruculuq layihələrində milli memarlıq xüsusiyyətlərinin qorunması mühüm prinsip kimi qəbul edilib.

Asif Hüseynov deyir ki, memarlıq təkcə tikinti deyil, həm də xalqın tarixi yaddaşının, mədəni kimliyinin və estetik düşüncəsinin parlaq ifadəsidir. Əgər yeni salınan şəhərlər yerli xüsusiyyətlərə cavab vermədən formalaşdırılarsa, həmin ərazilərin belə vurğulamaq mümkünsə həm ruhu, həm də tarixi siması itirilə bilər. Bu səbəbdən Qarabağda inşa olunan yaşayış binalarında və ictimai tikililərdə milli ornamentlərdən, yerli tikinti materiallarından, ənənəvi memarlıq üslublarından istifadə olunmasına xüsusi diqqət yetirilir.



Daş elementlər, eyvanlar, həyət sistemləri, dam konstruksiyaları və digər memarlıq detalları qədim Qarabağ memarlığının müasir interpretasiyası şəklində tətbiq olunur. Xüsusilə Şuşa şəhərinin yenidən qurulması zamanı memarlıq ənənələrinin qorunması əsas prioritetlərdən biri hesab edilir. Çünki bu qədim qala şəhəri tarixi yaşayış məskəni olmaqla bərabər, həm də Azərbaycan mədəniyyətinin simvollarından biri kimi yüksək dəyərləndirilir.

Qarabağ və Şərqi Zəngəzurda şəhərsalma siyasətinin həyata keçirilməsi ölkəmizin gələcək inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Bu proses təkcə dağıdılmış şəhər və kəndlərin yenidən qurulması ilə məhdudlaşmır, eyni zamanda, milli yaddaşın bərpası, humanist dəyərlərin yaşadılması və müasir həyat standartlarının tətbiqi baxımından xüsusi əhəmiyyət daşıyır. Yeni yaşayış massivlərinin salınması zamanı milli memarlıq ənənələrinin qorunması, tarixi irsə hörmət, ekoloji tarazlığın saxlanılması və insan amilinin əsas prioritet kimi qəbul edilməsi Azərbaycanın şəhərsalma siyasətinin mahiyyətini təşkil edir.

Şuşada tarixi binaların bərpası bu siyasətin ən parlaq nümunələrindən biridir. Burada reallaşdırılan layihələr göstərir ki, Azərbaycan öz tarixi irsinə yüksək həssaslıqla yanaşır və onu gələcək nəsillərə çatdırmaq üçün ardıcıl və sistemli fəaliyyət nümayiş etdirir. Bütün bunlar isə onu deməyə əsas verir ki, Qarabağda qurulan yeni həyat təkcə bugünün deyil, həm də gələcəyin nümunəvi inkişaf modelidir. Bu model milli köklərə söykənən, humanist dəyərləri qoruyan və müasir dünyanın çağırışlarına cavab verən yeni Azərbaycan reallığının mühüm təcəssümüdür.

Ümumiyyətlə, Qarabağ Azərbaycan xalqının mədəniyyət tarixində hər zaman xüsusi diqqət çəkib. Bu ərazi əsrlər boyu musiqi, poeziya, memarlıq və incəsənət mərkəzi kimi tanınıb. İşğal illərində isə tarixi simasına ciddi zərbə vurulub, bir çox tarixi binalar dağıdılıb, məscidlər və abidələr vandalizmə məruz qalıb. Tarixi zəfərdən sonra isə Qarabağda aparılan bərpa işləri fiziki yenidənqurma ilə bərabər həm də mənəvi dirçəliş prosesinə çevrilib, buradakı tarixi binaların bərpası zamanı əsas məqsəd onların ilkin memarlıq xüsusiyyətlərini qorumaq, tarixi ruhunu saxlamaq və gələcək nəsillərə çatdırmaq olub. Bir sözlə, Qarabağda həyata keçirilən bərpa işlərində humanist dəyərlərin qorunması diqqət mərkəzində saxlanılıb.

### Şuşa – daş yaddaşa hopmuş milli ruh

**Memar Fərid Bayramov** söhbət zamanı qeyd etdi ki, Azərbaycan tarixində elə məkanlar var ki, onların adı təkcə coğrafi anlayış kimi deyil, eyni zamanda, milli ruhun, tarixi yaddaşın və mənəvi bütövlüyün simvolu kimi qəbul olunur. Qarabağ və xüsusilə Şuşa məhz belə müqəddəs məkanlar sırasında yer alır. Bu torpaqlar əsrlər boyu, eləcə də hazırda xalqımızın mədəni, siyasi və mənəvi həyatında mühüm rol oynayaraq milli kimliyin formalaşmasında əvəzsiz əhəmiyyət daşıyır.

Qarabağ məsələsi uzun illər ərzində ərazi problemi olmaqdan savayı, həm də milli yaddaşın qorunması, tarixi ədalətin bərpası və mədəni irsin müdafiəsi kimi Azərbaycan cəmiyyətinin əsas mövzularından biri kimi diqqət çəkib. Bu baxımdan işğaldan azad edilmiş torpaqlarda həyata keçirilən bərpa və quruculuq prosesi təkcə iqtisadi və şəhərsalma layihəsi deyil, eyni zamanda, haqlı olaraq böyük mənəvi və ideoloji missiya kimi qiymətləndirilir.

Bu gün Qarabağın incisi adlandırılan Şuşa şəhəri Azərbaycanın gələcək inkişaf konsepsiyasında xüsusi strateji yer tutur. Burada həyata keçirilən layihələr milli dəyərlərin qorunması və tarixi yaddaşın gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Qədim mədəniyyət paytaxtımız əsrlər boyu olduğu kimi, hazırda da Azərbaycan xalqının siyasi, mədəni və ictimai həyatında xüsusi yerə malik olması ilə xüsusi diqqət çəkir. Bu bölgə təkcə münbit torpaqları və gözəl təbiəti ilə deyil, həm də zəngin mədəniyyəti, musiqisi, ədəbiyyatı, memarlığı və intellektual mühiti ilə tanınır.

İşğal illərində şəhərin tarixi simasına və mədəni irsinə ciddi zərər vurulub. Tarixi abidələrin dağıdılması, məscidlərin təhqir olunması, mədəni irsin məqsədli şəkildə məhv edilməsi Azərbaycan xalqının yaddaşında dərin iz buraxıb. Lakin Şuşanın azad olunması təkcə hərbi və siyasi qələbə deyildi. Bu hadisə milli ruhun dirçəlişi, tarixi ədalətin bərpası və mənəvi qələbə kimi dəyərləndirildi.

Hər bir xalqın gücü isə yalnız iqtisadi və hərbi potensialı ilə ölçülmür. Xalqı yaşadan əsas amillərdən biri də onun tarixi yaddaşı və mədəni irsi ilə qiymətləndirilir. Tarixini və mədəniyyətini qoruyan hər bir xalq gələcəyini daha möhkəm təməl üzərində qurmaq imkanına malik olur. Qarabağ və Şuşa ilə bağlı həyata keçirilən bərpa siyasətinin əsas mahiyyəti də məhz milli yaddaşın qorunmasına xidmət edir. Tarixi abidələrin bərpası, mədəniyyət ocaqlarının yenidən qurulması, milli irsin yaşadılması bu istiqamətdə atılan mühüm addımlardan biri kimi diqqət çəkir.

**Memarlıq üzrə fəlsəfə doktoru Qurban Qasımovun** fikrincə, tarixi binaların bərpası zamanı onların orijinal görünüşünün maksimum səviyyədə saxlanılması vacib prinsip kimi qəbul edilir. Bu yanaşmaya şəhərin tarixi kimliyinin qorunması kimi yüksək dəyər verilir. Elə buna görə də tarixi abidələrin müasir üslubda yenidən qurulması prosesində onların autentik formasının bərpası əsas məqsəd hesab olunur.

Humanist yanaşma yalnız keçmişi qorumaq deyil, həm də gələcək nəsillərin öz tarixini tanımasına şərait yaratmaq deməkdir. Şuşada aparılan bərpa işləri milli irsin yaşadılması və gənc nəslin milli-mənəvi dəyərlərə bağlılığının gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Digər tərəfdən, şəhərsalma prosesində əsas məqsədlərdən biri də insanların rahat, təhlükəsiz və sağlam mühitdə yaşamasını gerçəkləşdirməkdir. Məhz elə buna görə də qədim mədəniyyət paytaxtımız Şuşada və digər azad edilmiş ərazilərdə yaradılan yeni yaşayış məkanlarında parklar, ictimai istirahət zonaları, mədəniyyət mərkəzləri, məktəblər və sosial obyektlərin kompleks şəkildə istifadəyə verilməsi əsas prioritetlərdən biridir.

Qarabağ və Şərqi Zəngəzurda tətbiq olunan əsas yeniliklər sırasında "ağıllı" şəhər və "ağıllı" kənd modelləri mühüm önəm daşıyır. Belə bir yanaşma müasir texnologiyaların şəhər idarəçiliyinə inteqrasiyasını nəzərdə tutur. Bu baxımdan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yaşayış məntəqələrinin salınması zamanı rəqəmsal idarəetmə sistemlərinin qurulması, enerji səmərəliliyinə nail olunması, "ağıllı" nəqliyyat həllərinin və alternativ enerji mənbələrinin gerçəkləşdirilməsi prioritet əhəmiyyətə malikdir.

***Vaqif BAYRAMOV***
***XQ***

#### *Ekspert rəyi*



**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**

İşğaldan azad edilmiş ərazilərdə yerləşən abidələrin hər daşında həm mədəniyyətimizin, həm də tariximizin silinməz izləri var. Qarabağdakı memarlıq abidələri və muzeylərlə yanaşı, dini məbədlər də mənfur düşmən tərəfindən dağıdılması nəticəsində Azərbaycanın memarlıq irsi böyük itkilərə uğrayıb.

Qarabağ işğaldan azad edildikdən sonra qədim yaşayış məntəqələrindəki tariximizin, mədəniyyət abidələrimizin yenidən bərpa edilməsi sahəsində böyük işlər görülür. Bu ərazilərdə dağıdılan memarlıq abidələrinin yenidən qurulması və bərpası hazırda Azərbaycan memarlarının mühüm yaradıcılıq fəaliyyətinin əsasını təşkil edir. Burada maddi-mədəni irsimiz olan memarlıq abidələrinin qorunması və bərpası ilə bağlı müxtəlif önəmli layihələr həyata keçirilir.

Bu gün, ilk növbədə, Qarabağın tarixini, mədəni irsini bərpa etmək, qorumaq lazımdır. Dövlətimizin başçısı İlham Əliyev bu sahəyə xüsusi diqqət yetirir. Qarabağın mədəni irsinin qorunması və təbliği istiqamətində bir neçə qanun və dövlət proqramı qəbul olunub. Abidələr bərpa olunaraq beynəlxalq aləmdə təbliğ olunmalı, dünya mədəni irs siyahılarına daxil edilməlidir. Bu abidələrimizin yenidən bərpası ilə Azərbaycanın qədim tarixi də qorunur və onların gələcək nəsillərə çatdırılması üçün əlverişli şərait yaradılır.

Bu sahədə elmi-tədqiqatlar aparılmalı və gənc mütəxəssislər bərpa işlərinə cəlb olunmalıdır. Ayrı-ayrı memarlıq abidələrinin qorunub saxlanılmasına dair tövsiyələrin hazırlanması və onların eskiz, bərpa və konservasiya layihələrinin tərtib olunması vacibdir. Qarabağ və ətraf ərazilərin memarlıq irsinin vəziyyəti, bərpası və qorunması bu gün dövlətimizin qarşısında duran əsas vəzifələrdən biridir.

# Ağstafa: Dünənlə bu günün qovuşduğu məkan






**O yerdə ki, keçmişlə bu gün qovuşur, yaddaşla yenilik bir-birini tamamlayır, deməli, danışmağa, söz salmağa imkan var, mövzu var. Bu baxımdan, Ağstafada son illərdə həyata keçirilən genişmiqyaslı işlər rayonun necə dinamik inkişaf yolunda olduğunu aydın şəkildə göstərir.**

**Həmsöhbətimiz Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov dedi:**

– Ağstafa rayonu qədim tarixə malikdir. İpək yolu üzərində yerləşməsi bu ərazini əsrlər boyu ticarət, mədəniyyət və ünsiyyət mərkəzinə çevirib. Digər tərəfdən, qonşuluqda yerləşən Qazax və Tovuz rayonları ilə birlikdə Azərbaycanın qərb bölgəsinin sosial-iqtisadi həyatında mühüm rol oynayır. Yəni bölgənin özü həssas yanaşma tələb edir. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin regionlara, o cümlədən Ağstafaya göstərdiyi hədsiz diqqət və qayğı bu gün bütün sahələrdə özünü büruzə verir. Yollar çəkilib, məktəblər, səhiyyə ocaqları tikilib, idman qurğuları salınıb...

Hələ qədirbilməz erməni qəsbkarları bizim füsunkar Qarabağımızı viran qoymasaydılar, indi bu yerlərdə bir dənə də olsun problemimiz qalmazdı.

Son illərdə görülən işlər, belə demək mümkündürsə, Ağstafanın yeni simasını formalaşdırır. Küçələr abadlaşdırılır, həyətlər yenilənir, insanlara daha rahat və estetik mühit yaradılır. "Abad həyət" layihəsi çərçivəsində qurulan məkanlar, yeni salınan idman zonaları sağlam və aktiv həyat tərzinin təşviqinə xidmət edir. Nəticədə sosial infrastruktur sahəsində konkret rəqəmlərlə ifadə olunan işlər görülüb. "Abad həyət" layihəsi ilk olaraq E.Poladov küçəsində yerləşən 16 mənzilli, 4 mərtəbəli yaşayış binasından başlayaraq genişləndirilib. O zaman sakinlərin bəziləri elə bilirdi ki, bu layihə geniş vüsət almayacaq, yarımçıq qalacaq. Lakin çox keçmədi ki, Ş.Qurbanov küçəsi 23 və 24 nömrəli beşmərtəbəli binalar, Hüseyn Arif küçəsində 33 mənzilli bina, Heydər Əliyev prospektində yerləşən ikimərtəbəli yaşayış binaları və digər yerlər də bu layihəyə daxil edildi. Nəticədə təkcə binalar deyil, həyətlərdə söhbətgahlar, müasir işıqlandırma sistemləri, uşaq əyləncə zonaları yaradıldı, yaşıllaşdırma işləri aparıldı.

Çox keçmədi ki, başqa bir yeni layihə – "Sağlam məhəllə" layihəsi hamının marağına səbəb oldu və ilk dəfə 2023-cü il noyabrın 8-də Hüseyn Arif küçəsində bu adda idman zonası istifadəyə verildi. Burada minifutbol və basketbol meydançaları, stolüstü tennis və şahmat sahələri, eləcə də müxtəlif yaş qrupları üçün fitnes avadanlıqları quraşdırıldı. Bu barədə söhbət düşərkən rayon icra hakimiyyəti başçısının müavini İlqar Hacıyev dedi:

– Rayonda gənclərin idmana cəlb edilməsi həmişə prioritet məsələlərdən olub. Elə görüş, yığıncaq, toplantı yoxdur ki, Seymur müəllim bu vacib problemə toxunmasın, yerlərdə yeniyetmə gənclərin sağlam həyat tərzinə qoşulmaları üçün qaldırılan faydalı təşəbbüsləri müdafiə etməsin.

Şəhər infrastrukturunda aparılan işlər, köklü dəyişikliklər də son vaxtlar geniş vüsət alıb. Heydər Əliyev prospekti ilə yanaşı, Azər Yusifli, Üzeyir Hacıbəyov, Nəriman Nərimanov, A.Mustafayev, Nizami, İ.Həsənov, O.Omarov, Aşıq Ələsgər, M.Mustafayev, M.Yaqubov, Şəhriyar, Füzuli, E.Poladov, M.Əhmədov, N.Səbiyev, T.Qurbanov, F.Abbasov, N.Əfəndiyev, V.Əfəndiyev, Ş.Qurbanov, M.Maqomayev, Ə.Nəbiyev küçələrində işıqlandırma və abadlıq işləri görülüb. Eyvaz Qələmçəli küçəsində fəvvarə inşa olunub, M.Ə.Rəsulzadə, 20 Yanvar və R.Alıcanov küçələrində təmir işləri davam edir.




Ağstafa şəhəri həm də çoxmənzilli yaşayış binaları ilə seçilir. Rayon icra hakimiyyəti bu binaların estetik görünüşünə, daxilində lazımi kommunikasiya xətlərinin nizamlı olmasına daim diqqət yetirir. S.Vurğun küçəsi 98, R.Alıcanov 7, R.Rüstəmzadə 1, 2 və 5 nömrəli binalar, A.Mustafayev küçəsində və Soyuqbulaq qəsəbəsində yerləşən 2 mərtəbəli binalar əsaslı təmir olunub. Heydər Əliyev prospekti 36 və 34, M.Ə.Rəsulzadə 80 və 96, Ağamalıoğlu 19 və 21 ünvanlarında cari təmir işləri görülüb. Hazırda Hüseyn Arif küçəsində 40 və 48 mənzilli binalarda, həmçinin M.Allahverdiyev küçəsində qəzalı 20 ailəlik binanın və R.Əsədov küçəsində 32 mənzilli yeni yaşayış binasının tikintisi davam edir.

Kommunal sahədə də mühüm nailiyyətlər əldə olunub. 2020-ci ildə 110/35/10 kV-luq "Ağstafa" elektrik yarımstansiyasının istifadəyə verilməsi elektrik təchizatında yaranan bir çox problemləri həll etmişdir. Hazırda rayon üzrə 19 min 484 əhali və 1411 qeyri-əhali abonenti olmaqla, ümumilikdə, 20 min 895 abonent elektrik enerjisi ilə təmin olunur. Lakin bu sahədə işə ara verilmir. Bu gün də elektrik xətləri yenilənir, kəndlərdə izolyasiyalı naqillər çəkilir.

İnternet infrastrukturunun inkişafı da sürətlənib. 2024-cü ildən 5 provayder tərəfindən şəbəkə quruculuğuna başlanılıb və hazırda şəhər və 26 kənd yüksək sürətli internetlə təmin olunur.

Su təchizatı sahəsində Köhnəqışlaq, Tatlı və Yaradullu kəndlərində mərkəzləşdirilmiş sistemlər qurulub. Qaz təsərrüfatında isə sayğaclar küçələrə çıxarılıb, tənzimləyici qurğular quraşdırılıb, payız-qış mövsümünə hazırlıq gücləndirilib.

Son vaxtlar Ağstafa daha gəlimli-gedimli olub. Bu, bir tərəfdən rayonun getdikcə daha da gözəlləşməsi, abadlaşdırılması ilə bağlıdırsa, digər tərəfdən qonaqların bu sərhəd bölgəsinə səyahət etmələri üçün şəraitin yaradılması ilə əlaqədardır. 2023-cü ilin martında Bakı–Ağstafa–Bakı marşrutu üzrə sürətli qatar xəttinin istifadəyə verilməsi rayonu ölkənin nəqliyyat sisteminə daha sıx inteqrasiya edib. Ağstafa dəmiryol vağzalında aparılan abadlıq işləri isə bu prosesi tamamlayıb.

Təsadüfi deyil ki, rayonda mədəni həyat da nəzərəçarpacaq dərəcədə canlanıb. Ötən ilin dekabrında ağstafalı sənətkarlar Hüseyn Arif və Həmid Abbasın büstləri bərpa olunaraq yenidən açılıb. Yenigün kənd qəbiristanlığında Hüseyn Arifin məzarı abadlaşdırılıb.

Yeri gəlmişkən, qeyd edək ki, Ağstafa son vaxtlar parklar rayonuna çevrilib. Parkların yenidən qurulması, burada insanların mənalı istirahəti üçün hərtərəfli şəraitin yaradılması, rəngarəng fəvvarələrin quraşdırılması, ot örtüyünün salınması, hər bir kolun, bitkinin, ağacın, necə deyərlər, nazının çəkilməsi bu məkanlara üz tutanların sayını hər gün artırır. Özü də belə parklar tədricən kəndlərdə də salınır və ya yenidən qurulur. Bu məsələdə diqqətçəkən məqam isə əhalinin özünün həmin işlərdə yaxından iştirak etməsidir. Hər şənbə günləri keçirilən iməciliklərin bir ənənəyə çevrilməsi rayonun tezliklə başdan-ayağa yaşıllıqlar rayonu olmasına imkan yaradacaq.

Bütün bunlar – sosial həyatın canlandırılması istiqamətində atılan addımlar öz bəhrəsini verir. Vətəndaş qəbulları, əhali ilə birbaşa ünsiyyət, problemlərin operativ həlli idarəetmədə şəffaflığın və məsuliyyətin göstəricisidir. Gənclərlə keçirilən görüşlər, onların nailiyyətlərinin qiymətləndirilməsi isə gələcəyə qoyulan ən dəyərli sərmayədir. Ağsaqqallarla çay süfrəsi arxasında təşkil olunan görüşlər isə bir ənənə şəklini alıb. Bu tədbirlər rayonun inkişaf perspektivləri üçün bir məktəbə çevrilib, faydası göz önündədir.



Bəli, bu gün Ağstafa yalnız inkişaf etmir, sistemli şəkildə yenilənir. Bu yenilənmə həm rəqəmlərdə, həm infrastruktura qoyulan investisiyalarda, həm də insanların gündəlik həyatında hiss olunur.

Unutmaq olmaz ki, Ağstafanın bu gününü səciyyələndirən əsas cəhətlərdən biri də şəhidlərin xatirəsinə göstərilən yüksək ehtiramdır. Rayonda "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarı yalnız söz deyil, həyat prinsipidir. Ağstafanın müxtəlif guşələrində ucaldılan abidələr, verilən küçə adları, təşkil olunan tədbirlər xalqın öz qəhrəmanlarına sədaqətinin ifadəsidir.

Bu illər ərzində rayonda şəhidlərin xatirəsinin əbədiləşdirilməsi istiqamətində az iş görülməyib. 2021-ci ildə şəhərin Heydər Əliyev prospektində Şəhidlər Memorial Abidə Kompleksi inşa olunub. Vətən Müharibəsi Qəhrəmanı Azər Yusiflinin məzun olduğu Böyük Kəsik kənd tam orta məktəbinin qarşısında büstü ucaldılıb, şəhərdə onun adını daşıyan küçənin girişində barelyefi yerləşdirilib. "Düşmənə dərs keçən müəllim" kimi tanınan şəhid Elvin İmaməliyevin xatirəsinə Ağstafa şəhər 1 nömrəli tam orta məktəbin həyətində abidə kompleksi tikilib. Dağ Kəsəmən kəndində "Xarıbülbül" abidə kompleksi yaradılıb. Təbii ki, bu abidələr milli yaddaşın canlı ifadəsidir.

Şəhid ailələri ilə bağlı sosial tədbirlər də diqqət mərkəzində saxlanılıb. Onların Şuşa, Xankəndi və Ağdam kimi azad edilmiş ərazilərə səfərləri təşkil olunub. 19 oktyabr 2022-ci ildə isə Ağstafa, Qazax rayonu, Tovuz rayonu, Şəmkir rayonu və Gədəbəy rayonu rayonlarını təmsil edən yüzlərlə iştirakçının qatıldığı möhtəşəm Zəfər Forumu haqqında bu gün də danışılır.

Rayonda elə şəhid ailəsi yoxdur ki, diqqətdən kənarda qalsın. Şəhid övladlarının, valideynlərinin, qardaş-bacılarının xeyir-şər məclislərində rayon rəhbərliyi nəinki iştirak edir, həm də bu tədbirlərin təşkilatçısı olur ki, bu da əhali tərəfindən razılıqla qarşılanır.

Rayon icra hakimiyyəti vətəndaşlarla birbaşa təmas mexanizmini də gücləndirib. Hər həftə inzibati binada və müxtəlif yaşayış məntəqələrində qəbul keçirilir, vətəndaşların problemləri yerində dinlənilir və operativ həll olunur. Şəhid ailələri, qazilər, ziyalılar, ağsaqqallar mütəmadi ziyarət edilir. Bayram günlərində şəhid və qazi övladları üçün xüsusi tədbirlər təşkil olunur. 2023-cü il 28 noyabr tarixli sərəncamla yaradılan Qarabağ Universiteti və digər ali məktəblərə qəbul olunan gənclərlə görüşlərin keçirilməsi artıq ənənəyə çevrilib.





…Ağstafanın gələcəyi də bu tempdə davam etsə, yaxın illərdə daha fərqli bir sima qazanacaq. Rayon təkcə abad küçələri ilə yox, həm də daha güclü iqtisadi imkanları ilə seçiləcək. Kəndlərdə yaşayan insanlar üçün iş yerlərinin artması əsas məsələlərdən biri olacaq. Gənclər artıq başqa şəhərlərə üz tutmaq əvəzinə, doğma rayonda qalmağa daha çox üstünlük verəcəklər. Təhsil və texnologiya sahəsində yeniliklər artdıqca, Ağstafa daha müasir bir məkana çevriləcək. Turizm imkanları genişlənsə, bura gələn qonaqların sayı da xeyli artacaq. Sərhəd rayonu olması isə ticarət və logistika baxımından əlavə üstünlüklər yaradacaq. İnsanların gündəlik həyatı bir az da rahatlaşacaq, xırda problemlər tədricən aradan qalxacaq. Köhnə ilə yeninin balansı qorunsa, Ağstafa öz ruhunu itirməyəcək. Ümumilikdə isə belə getsə, rayon sakit, amma özünə güvənən bir inkişaf yolunda olacaq.

*Hamlet QASIMOV,*
*XQ-nin Gəncəbasar müxbiri*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 140 12 may 2026-cı il, Bakı şəhəri**

**“Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında”, “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında”, “Standartlaşdırma haqqında” və “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 187-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 iyun tarixli 413 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında”, “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında”, “Standartlaşdırma haqqında” və “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 187-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 iyun tarixli 413 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikasının 2013-cü il 13 iyun tarixli 686-IVQ nömrəli Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 9 iyun tarixli 187 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 6, maddə 741 (Cild I); 2024, № 9, maddə 1090; 2025, № 9, maddə 879) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 11-ci hissədə “Ölçmə vasitələrinin kalibrlənməsi işlərini yerinə yetirmək, kalibrlənmə haqqında sertifikat vermək və ya kalibrlənmə nişanını vurmaq hüququnun verilməsi Qaydası və kalibrlənmə” sözləri “Kalibrlənmə” sözü ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - “Ölçmələrin vəhdətinin təmin edilməsinin dövlət tənzimlənməsinə aid olan ölçmə metodikalarının (metodlarının) attestasiyası və tətbiqi Qaydası” üzrə:

1.2.1. 2.9-cu bənd aşağıdakı redaksiyada verilsin:

“2.9. Ölçmələrin vəhdətinin təmin edilməsinin dövlət tənzimlənməsinə aid olan ölçmə metodikalarının (metodlarının) attestasiyası haqqında şəhadətnamənin yaradılması, qeydiyyatı, qüvvəsinin dayandırılması, bərpası və ləğv edilməsi, yenidən rəsmiləşdirilməsi Agentliyin Keyfiyyət informasiya sistemi vasitəsilə həyata keçirilir. Ölçmələrin vəhdətinin təmin edilməsinin dövlət tənzimlənməsinə aid olan ölçmə metodikalarının (metodlarının) attestasiyası haqqında şəhadətnamə hüquq sahibinin istəyindən asılı olaraq elektron üsulla (o cümlədən elektron poçt ünvanı vasitəsilə) və ya kağız daşıyıcıda hüquq sahibinə təqdim olunur.”;

1.2.2. aşağıdakı məzmunda 2.9-1-ci bənd əlavə edilsin:

“2.9-1. Ölçmələrin vəhdətinin təmin edilməsinin dövlət tənzimlənməsinə aid olan ölçmə metodikalarının (metodlarının) attestasiyası haqqında şəhadətnamənin qeydiyyatı Agentlik tərəfindən aparılır.”;

1.2.3. 2.10-cu bənd aşağıdakı redaksiyada verilsin:

“2.10. Attestasiya haqqında şəhadətnamə 3 (üç) gün müddətində hüquq sahibinə təqdim olunur.”;

1.3. həmin Qərarla təsdiq edilmiş 10 nömrəli əlavə - “Ölçmələrin vəhdətinin təmin edilməsi üzrə dövlət məlumat fondunun təşkili və aparılması, məlumatların fonda verilməsi, fonddan sənədlərin və məlumatların təqdim edilməsi Qaydası” üzrə:

1.3.1. 1.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

“1.2. Ölçmələrin vəhdətinin təmin edilməsi üzrə dövlət məlumat fondu (bundan sonra - fond) ölçmələrin vəhdətinin təmin edilməsi sahəsində Azərbaycan Respublikasının hüquqi aktları, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr barədə məlumatları, verilənlərin informasiya bazaları, dövlət kəmiyyət vahidi etalonları, standart nümunələrin və ölçmə vasitələrinin təsdiq edilmiş tipləri haqqında məlumatlar toplusu, attestasiya edilmiş ölçmə metodikaları (metodları), dövlət tənzimlənməsi sahəsinə aid olan ölçmələrin vahid siyahısı haqqında məlumatları özündə birləşdirir.” ;

1.3.2. 1.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

“1.3. Fonda məlumatların daxil edilməsini və həmin məlumatların verilməsini Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra – Agentlik) təşkil edir.”;

1.3.3. 2.1.6-cı yarımbəndə “tipləri” sözündən sonra “haqqında məlumatlar toplusu” sözləri əlavə edilsin;

1.3.4. 2.1.7-ci yarımbənd ləğv edilsin;

1.4. həmin Qərarla təsdiq edilmiş 11 nömrəli əlavə - “Ölçmə vasitələrinin kalibrlənməsi işlərini yerinə yetirmək, kalibrlənmə haqqında sertifikat vermək və ya kalibrlənmə nişanını vurmaq hüququnun verilməsi Qaydası və kalibrlənmə işlərinin yerinə yetirilməsinə dair Tələblər” üzrə:

1.4.1. adında və həmin Tələblərin 1 və 2 nömrəli əlavələrinin yuxarı sağ küncündə “Ölçmə vasitələrinin kalibrlənməsi işlərini yerinə yetirmək, kalibrlənmə haqqında sertifikat vermək və ya kalibrlənmə nişanını vurmaq hüququnun verilməsi Qaydası və kalibrlənmə” sözləri “Kalibrlənmə” sözü ilə əvəz edilsin;

1.4.2. 1.1-ci bənddən “Qayda və” və “ölçmə vasitələrinin kalibrlənməsi işlərini yerinə yetirmək, kalibrlənmə haqqında sertifikat vermək və ya kalibrlənmə nişanını vurmaq hüququnun verilməsi qaydasını və” sözləri çıxarılsın;

1.4.3. 2-ci hissə ləğv edilsin;

1.4.4. 3.3.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“3.3.1. ölçmə vasitələrinin kalibrlənməsi “Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən həyata keçirilir.”;

1.4.5. 3.11.2-ci yarımbəndə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

“Kalibrlənmə haqqında sertifikatın (kəmiyyət vahidinin dövlət etalonundan ötürülməsinin nəticələrinə dair kalibrlənmə haqqında sertifikatlar istisna olmaqla) yaradılması, qeydiyyatı, qüvvəsinin dayandırılması, bərpası və ləğv edilməsi, yenidən rəsmiləşdirilməsi Agentliyin Keyfiyyət informasiya sistemi vasitəsilə həyata keçirilir. Kalibrlənmə haqqında sertifikat hüquq sahibinin istəyindən asılı olaraq elektron üsulla (o cümlədən elektron poçt ünvanı vasitəsilə) və ya kağız daşıyıcıda hüquq sahibinə təqdim olunur.”;

1.4.6. aşağıdakı məzmunda 3.11.3-cü yarımbənd əlavə edilsin:

“3.11.3. Kalibrlənmə haqqında sertifikatın (kəmiyyət vahidinin dövlət etalonundan ötürülməsinin nəticələrinə dair kalibrlənmə haqqında sertifikatlar istisna olmaqla) və kalibrlənmə nişanının qeydiyyatı Agentlik tərəfindən aparılır.”;

1.4.7. həmin Tələblərə 2 nömrəli əlavə – “Kalibrlənmə sertifikatının forması”nın mətnindən “Möhür” sözü çıxarılsın və “Seal” sözü “QR kod” sözləri ilə əvəz edilsin.

**2.** “Uyğunluq sertifikatlarının və uyğunluq bəyannamələrinin reyestrinin aparılması Qaydası”nın təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 17 iyul tarixli 215 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 7, maddə 877 (Cild I); 2024, № 9, maddə 1090) aşağıdakı dəyişikliklər edilsin:

2.1. adında və ikinci abzasında “və” sözü vergül işarəsi ilə əvəz edilsin və “bəyannamələrinin” sözündən sonra “, uyğunluğu təsdiq edən sənədlərin və xarici mənşəli uyğunluq sənədlərinin tanınması haqqında qərarların” sözləri əlavə edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş “Uyğunluq sertifikatlarının və uyğunluq bəyannamələrinin reyestrinin aparılması Qaydası” üzrə:

2.2.1. adında və 1.1-ci bənddə “və” sözü vergül işarəsi ilə əvəz edilsin və “bəyannamələrinin” sözündən sonra “, uyğunluğu təsdiq edən sənədlərin və xarici mənşəli uyğunluq sənədinin tanınması haqqında qərarların” sözləri əlavə edilsin;

2.2.2. 1.2.1-ci yarımbənddə “və” sözü vergül işarəsi ilə əvəz edilsin və həmin yarımbəndə “bəyannaməsi” sözündən sonra “, uyğunluğu təsdiq edən sənəd və xarici mənşəli uyğunluq sənədlərinin tanınması haqqında qərar” sözləri əlavə edilsin;

2.2.3. 1.2.2-ci yarımbəndə “təsdiq edən” sözlərindən sonra “, elektron formada tərtib edilən” sözləri əlavə edilsin;

2.2.4. 1.2.3-cü yarımbəndə “bəyan edildiyi” sözlərindən sonra “, elektron formada tərtib edilən” sözləri əlavə edilsin;

2.2.5. 2.1-ci bənddə “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi (bundan sonra – Nazirlik)” sözləri “Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi (bundan sonra – Agentlik)” sözləri ilə əvəz edilsin;

2.2.6. 2.3-cü bəndin ikinci cümləsində və 4.1-ci bəndin ikinci cümləsində ismin müvafiq hallarında “Nazirlik” sözü ismin müvafiq hallarında “Agentlik” sözü ilə əvəz edilsin;

2.2.7. 2.4-cü bənddə “məlumatların təqdim edilməsi” sözləri “Agentliyin Keyfiyyət informasiya sistemi vasitəsilə uyğunluq sertifikatının, uyğunluq bəyannaməsinin, uyğunluğu təsdiq edən sənədin və xarici mənşəli uyğunluq sənədinin tanınması haqqında qərarın yaradılması, qeydiyyatı, qüvvəsinin dayandırılması, bərpası və ləğv edilməsi, yenidən rəsmiləşdirilməsi zamanı məlumatların daxil edilməsi” sözləri ilə əvəz edilsin;

2.2.8. 2.5-2.14-cü bəndlər ləğv edilsin;

2.2.9. 2.15-ci bənddə “tanınmış xarici mənşəli uyğunluq sənədlərinin” sözləri “uyğunluğu təsdiq edən sənədlərin və xarici mənşəli uyğunluq sənədlərinin tanınması haqqında qərarların” sözləri ilə, “tanınmış xarici mənşəli uyğunluq sənədinin Azərbaycan Respublikasında” sözləri “uyğunluğu təsdiq edən sənədin və xarici mənşəli uyğunluq sənədinin tanınması haqqında qərarın” sözləri ilə əvəz edilsin;

2.2.10. 2.16-cı bənddə “tanınmış xarici mənşəli uyğunluq sənədlərinin” sözləri “uyğunluğu təsdiq edən sənədlərin və xarici mənşəli uyğunluq sənədlərinin tanınması haqqında qərarların” sözləri ilə, “tanınmış xarici mənşəli uyğunluq sənədi Azərbaycan Respublikasında” sözləri “uyğunluğu təsdiq edən sənədin və xarici mənşəli uyğunluq sənədinin tanınması haqqında qərar” sözləri ilə əvəz edilsin;

2.2.11. 3.5-ci bənddə “tanınmış xarici mənşəli uyğunluq sənədləri” sözləri “tanınmış xarici mənşəli uyğunluq sənədləri haqqında qərarlar” sözləri ilə əvəz edilsin;

2.2.12. 3.5.8-ci yarımbənddə “və” sözü vergül işarəsi ilə əvəz edilsin və həmin yarımbəndə “ləğv edilməsi” sözlərindən sonra “və yenidən rəsmiləşdirilməsi” sözləri əlavə edilsin;

2.2.13. aşağıdakı məzmunda 3.6-cı bənd əlavə edilsin:

“3.6. Reyestrə uyğunluğu təsdiq edən sənədlər barədə aşağıdakı məlumatlar daxil edilir:

3.6.1. uyğunluğu təsdiq edən sənədi təqdim edən uyğunluğu qiymətləndirən qurumun adı, hüquqi ünvanı, akkreditasiya attestatının qeydiyyat nömrəsi və verilmə tarixi;

3.6.2. təsdiqedici sənədin nömrəsi və tarixi;

3.6.3. malı (işi, xidməti) təklif edən hüquqi şəxsin adı, hüquqi ünvanı, fiziki şəxsin adı, soyadı, atasının adı və ünvanı, VÖEN;

3.6.4. orta riskli mal;

3.6.5. xarici iqtisadi fəaliyyətin mal nomenklaturu;

3.6.6. orta riskli malın adı, növü, markası, modeli;

3.6.7. orta riskli malın partiya və ya seriya nömrəsi, miqdarı, istehsal tarixi;

3.6.8. malın istehsalçısının adı və ünvanı;

3.6.9. texniki reqlamentin, istinad edilmiş standartların və ya texniki şərtin adı, nömrəsi, tarixi;

3.6.10. malın istehlak xüsusiyyətinə və ya keyfiyyətinə dair əlavə məlumat (olduqda);

3.6.11. təsdiqedici sənədin verilməsi ilə bağlı qərarın nömrəsi və tarixi.”.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 17 iyul tarixli 217 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 7, maddə 879 (Cild I); 2024, № 5 (II kitab), maddə 611; 2025, № 11, maddə 1099) ilə təsdiq edilmiş “Uyğunluq sertifikatının və uyğunluq bəyannaməsinin forması, hazırlanması və təqdim edilməsi Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.2.1-ci yarımbəndə “təsdiq edən” sözlərindən sonra “, elektron formada tərtib edilən” sözləri əlavə edilsin;

3.2. 1.2.2-ci yarımbəndə “bəyan edildiyi” sözlərindən sonra “, elektron formada tərtib edilən” sözləri əlavə edilsin;

3.3. 1.2.12-1-ci, 2.3.8-ci və 3.3.8-ci yarımbəndlərin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 1.2.13-cü, 2.3.9-cu, 3.3.9-cu yarımbəndlər ləğv edilsin;

3.4. 2.3.6-cı və 3.3.8-ci yarımbəndlərdən “imzası,” sözü çıxarılsın;

3.5. 2.1-ci və 3.1-ci bəndlərdən “, realizə edilməzdən” sözləri çıxarılsın;

3.6. 2.20-ci bəndin ikinci cümləsi üçüncü cümlə hesab edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Sertifikatın verilməsindən imtina haqqında qərar qəbul edildiyi gündən 2 (iki) iş günü müddətində təsərrüfat subyektinə təqdim edilir.”;

3.7. 2.21-ci, 2.29-cu, 2.38-ci, 2.40-cı, 2.43-cü, 3.19-cu, 3.20-ci, 3.21-ci, 3.22-ci, 3.33-cü, 3.35-ci və 3.40-cı bəndlər ləğv edilsin;

3.8. 2.22-ci bənd aşağıdakı redaksiyada verilsin:

“2.22. Uyğunluq sertifikatının yaradılması, qeydiyyatı, qüvvəsinin dayandırılması, bərpası və ləğv edilməsi, yenidən rəsmiləşdirilməsi Agentliyin Keyfiyyət informasiya sistemi vasitəsilə həyata keçirilir. Uyğunluq sertifikatı hüquq sahibinin istəyindən asılı olaraq elektron üsulla (o cümlədən elektron poçt ünvanı vasitəsilə) və ya kağız daşıyıcıda hüquq sahibinə təqdim olunur.”;

3.9. 2.36-cı, 2.44-cü, 3.31-ci, 3.34-cü və 3.38-ci bəndlərdə ismin müvafiq hallarında “Nazirlik” sözü ismin müvafiq hallarında “Agentlik” sözü ilə əvəz edilsin;

3.10. 2.37-ci və 2.39-cu bəndlərdən “və bu barədə məlumatı reyestrə daxil olunması üçün həmin gün ərzində Nazirliyə təqdim edir” sözləri çıxarılsın;

3.11. 2.42-ci bəndin ikinci cümləsindən “və bu barədə məlumatın reyestrə daxil olunması üçün həmin gün ərzində Nazirliyə təqdim edir” sözləri çıxarılsın;

3.12. 3.15-ci bəndin ikinci cümləsindən və 3.37-ci bəndin ikinci cümləsindən “və ya sifarişli poçt vasitəsilə göndərir” sözləri çıxarılsın;

3.13. aşağıdakı məzmunda 3.15-1-ci bənd əlavə edilsin:

“3.15-1. Uyğunluğu təsdiq edən sənədin yaradılması, qeydiyyatı, qüvvəsinin dayandırılması, bərpası və ləğv edilməsi, yenidən rəsmiləşdirilməsi Agentliyin Keyfiyyət informasiya sistemi vasitəsilə həyata keçirilir. Uyğunluğu təsdiq edən sənəd hüquq sahibinin istəyindən asılı olaraq elektron üsulla (o cümlədən elektron poçt ünvanı vasitəsilə) və ya kağız daşıyıcıda hüquq sahibinə təqdim olunur.”;

3.14. həmin Qaydalara 1, 2, 3 və 4 nömrəli əlavələrdə “İmza / Signature

M.Y. (olduqda) / Stamp (if any)”

sözləri “QR kod” sözləri ilə əvəz edilsin;

3.15. 4-cü hissə ləğv edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 oktyabr tarixli 323 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1190 (Cild I); 2025, № 9, maddə 879) ilə təsdiq edilmiş “Məlumat mərkəzinin yaradılması və fəaliyyət Qaydası”nın 1.3.2-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

“1.3.2. standart - təkrar və ümumi istifadə üçün nəzərdə tutulan, standartlaşdırma obyektlərinə dair qaydaları, tövsiyələri, texniki xarakteristikaları müəyyən edən, tətbiqi könüllü olan normativ sənəd;”.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 24 may tarixli 283 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 620) ilə təsdiq edilmiş “Standartlaşdırma sahəsində normativ sənədlərin yoxlanılması Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 3-cü hissədə “hər il” sözləri “beş ildən gec olmayaraq” sözləri ilə əvəz edilsin;

5.2. 5-ci hissədə “hər” sözü “yoxlamanın aparıldığı” sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 27 may tarixli 284 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 621; 2025, № 9, maddə 879) ilə təsdiq edilmiş “Standartlaşdırma sahəsində normativ sənədlərin hazırlanması, razılaşdırılması, ekspertizası, qəbul edilməsi, dövlət reyestrinə və fonduna daxil edilməsi, dəyişiklik edilməsi və nəşri Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2.2.6-cı yarımbənddə “malın (işin, xidmətin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun” sözləri “standartlaşdırma obyektlərinin” sözləri ilə əvəz edilsin;

6.2. 2.4.1-ci yarımbəndin birinci cümləsində və 2.4.2.1-ci abzasında “mala (işə, xidmətə), onunla əlaqəli prosesə (o cümlədən idarəetmə sisteminə), istehsal metoduna” sözləri “standartlaşdırma obyektlərinə” sözləri ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 6 mart tarixli 61 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 3, maddə 272) ilə təsdiq edilmiş “Texniki tənzimləmənin şamil olunduğu malların siyahısı”nın “Qeydlər” hissəsində “(satışda) realizə” sözləri “satış” sözü ilə əvəz edilsin.

**8.** “Bir pəncərə” prinsipinə əməl edilməklə, ölkəyə idxal olunan texniki tənzimləmənin şamil olunduğu mallara nəzarətin təşkili məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi ilə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi arasında qarşılıqlı fəaliyyətin tənzimlənməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 28 iyul tarixli 224 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 7, maddə 728) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 2-ci hissədən “texniki reqlamentlərin tələblərinə uyğunluğun qiymətləndirilməsini təsdiq edən uyğunluq sertifikatı, uyğunluq bəyannaməsi və tanınmış xarici mənşəli uyğunluq sənədləri barədə məlumatların daxil olduğu” sözləri çıxarılsın və “və uyğunluq bəyannamələrinin reyestrinin” sözləri “uyğunluq bəyannamələrinin, uyğunluğu təsdiq edən sənədlərin və xarici mənşəli uyğunluq sənədlərinin tanınması haqqında qərarların reyestrinin” sözləri ilə əvəz edilsin;

8.2. 3-cü hissədə (birinci halda) “və” sözü vergül işarəsi ilə əvəz edilsin və “bəyannamələrinin” sözündən sonra “, uyğunluğu təsdiq edən sənədlərin və xarici mənşəli uyğunluq sənədlərinin tanınması haqqında qərarların” sözləri əlavə edilsin;

8.3. həmin Qərarla təsdiq edilmiş “Bir pəncərə” prinsipinə əməl edilməklə, ölkəyə idxal olunan texniki tənzimləmənin şamil olunduğu mallara nəzarətin təşkili məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi ilə Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi arasında qarşılıqlı fəaliyyətin tənzimlənməsi Qaydası”nın 2.2-ci bəndində “və uyğunluq bəyannamələrinin” sözləri “, uyğunluq bəyannamələrinin, uyğunluğu təsdiq edən sənədlərin və xarici mənşəli uyğunluq sənədlərinin tanınması haqqında qərarların” sözləri ilə, “ uyğunluq sənədləri” sözləri “uyğunluq sənədlərinin tanınması haqqında qərarlar” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 141 12 may 2026-cı il, Bakı şəhəri**

**“Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Tütün və tütün məmulatı haqqında”, “Reklam haqqında” və “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 338-VIIQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 yanvar tarixli 895 nömrəli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Tütün və tütün məmulatı haqqında”, “Reklam haqqında” və “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 338-VIIQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 26 yanvar tarixli 895 nömrəli Sərəncamının 1.2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 69 (Cild I); 2024, № 1, maddə 126, № 2, maddə 245, № 7, maddə 914; 2025, № 3, maddə 265, № 5, maddə 512, № 12 (II kitab), maddə 1260; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 27 aprel tarixli 118 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri”ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. “2404 12 000 1”, “2404 19 000 1” alt yarımmövqelərinə aid sətirlər ləğv edilsin;

1.2. “2404 12 000 2” və “2404 19 000 2” alt yarımmövqelərinə aid sətirlərin “Mal mövqelərinin adları” sütunundan “birdəfəlik istifadə üçün elektron siqaret,” sözləri çıxarılsın.

**2** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 17 oktyabr tarixli 414 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1732 (Cild I); 2024, № 9, maddə 1106) ilə təsdiq edilmiş “Reklamı qadağan olunan əmtəələrin Siyahısı”nın 8-ci hissəsindən “elektron siqaretlər,” sözləri çıxarılsın və həmin hissəyə “alışqanlar” sözündən sonra “, habelə nikotin tərkibi olmayan elektron siqaretlər” sözləri əlavə edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465, № 7, maddələr 891, 903, № 9, maddələr 1045, 1106, № 10, maddələr 1165, 1178, № 11, maddə 1257, № 12 (I kitab), maddələr 1319, 1324; 2025, № 2, maddə 187, № 3, maddələr 266, 268, № 5, maddə 512, № 9, maddələr 845, 868, № 10, maddə 971, № 12 (II kitab), maddə 1261; 2026, № 1, maddə 80, № 2, maddə 178; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 27 aprel tarixli 119 nömrəli və 1 may tarixli 127 nömrəli qərarları) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə aşağıdakı dəyişikliklər edilsin:

3.1. “2404 12 000 1” və “2404 19 000 1” alt yarımmövqelərinə aid sətirlər ləğv edilsin;

3.2. “2404 12 000 2” və “2404 19 000 2” alt yarımmövqelərinə aid sətirlərin “Mal mövqelərinin adları” sütunundan “birdəfəlik istifadə üçün elektron siqaret,” sözləri çıxarılsın.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 3 aprel tarixli 127 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 4, maddə 784 (Cild I) ilə təsdiq edilmiş “Tütün çəkmək üçün xüsusi ayrılmış yerlərə dair Tələblər”in 2.1-ci və 3.1-ci bəndlərindən “və elektron siqaretlər də” sözləri çıxarılsın.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 iyun tarixli 263 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1362 (Cild I); 2024, № 1, maddə 80) ilə təsdiq edilmiş “Tütün məmulatları tullantılarının utilizasiyası Qaydası”nın 1.3.1-ci yarımbəndində aşağıdakı dəyişikliklər edilsin:

5.1. birinci cümləyə “tütünü” sözündən sonra “, nikotin tərkibli elektron siqaretlər” sözləri əlavə edilsin;

5.2. ikinci cümlədən “və elektron siqaretlər də” sözləri çıxarılsın.

**6** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594, № 7, maddələr 706, 714, 716, № 8, maddə 800, № 9, maddələr 857, 863, 870, 879, № 10, maddə 972, № 11, maddə 1084, № 12 (II kitab), maddələr 1207, 1233, 1257; 2026, № 2, maddələr 173, 187, 189; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 3 mart tarixli 62 nömrəli, 6 aprel tarixli 96 nömrəli və 29 aprel tarixli 123 nömrəli qərarları) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı”nın 1.1.4.5.1.6-cı yarımbəndi ləğv edilsin.

**7** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 14 fevral tarixli 48 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 311 (Cild I); 2024, № 3, maddə 302, № 7, maddə 930; 2025, № 10, maddə 993) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında istehsal edilən, yaxud ölkəyə idxal olunan aksiz markası ilə markalanmalı və məcburi nişanlama ilə nişanlanmalı olan malların Azərbaycan Respublikasının ərazisində dövriyyəsinin tənzimlənməsi, aksiz markalarının və məcburi nişanlamanın hazırlanması üçün sifarişin verilməsi, onların tətbiqi, satışı və uçotunun aparılması Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. 2.1.6-cı yarımbənd ləğv edilsin;

7.2. 2.1.9-cu yarımbənddən “birdəfəlik istifadə üçün elektron siqaret,” sözləri çıxarılsın;

7.3. 3.1.2-ci, 7.4.2-ci yarımbəndlərdə və 6.7-2-ci, 7.5-ci bəndlərdə “2.1.5–2.1.9-cu” sözləri “2.1.5-ci, 2.1.7–2.1.9-cu” sözləri ilə əvəz edilsin;

7.4. 7.8-ci bənddə “2.1.6–2.1.9-cu” sözləri “2.1.7–2.1.9-cu” sözləri ilə əvəz edilsin;

7.5. həmin Qaydalara əlavə - “Aksiz markalarına və məcburi nişanlamaya dair ümumi tələblər” üzrə:

7.5.1. 6-cı hissədən, 6.2-ci bənddən və 6.2.1-ci yarımbənddən “birdəfəlik istifadə üçün elektron siqaret,” və “və elektron siqaretlər üçün mayeyə” sözləri çıxarılsın;

7.5.2. 7-ci hissənin birinci və ikinci abzaslarından “birdəfəlik istifadə üçün elektron siqaret,” sözləri və həmin hissənin ikinci abzasından “və elektron siqaretlər üçün mayenin” sözləri çıxarılsın;

7.6. həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Respublikasında istehsal edilən, yaxud ölkəyə idxal olunan aksiz markası ilə markalanmalı və məcburi nişanlama ilə nişanlanmalı olan malların Siyahısı” üzrə:

7.6.1. 2.2-ci bənd ləğv edilsin;

7.6.2. 2.5-ci bənddən “birdəfəlik istifadə üçün elektron siqaret,” sözləri çıxarılsın.

**8** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 6 mart tarixli 61 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 3, maddə 272 (Cild I) ilə təsdiq edilmiş “Texniki tənzimləmənin şamil olunduğu malların siyahısı”nın “27. Tütün məhsulları və analoji məhsullar” hissəsinin 27.4-cü bəndi aşağıdakı redaksiyada verilsin:

| | | |
|---|---|---|
| 27.4. | Fərdi elektrik buxarlandırıcı qurğular | 8543 40 000 0-dan |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Milli ədəbiyyatımızın çağdaş Zəfər salnaməsi

## *Vətən müharibəsində tarixi qələbəmiz ədəbi güzgüdə necə görünür?*

**Azərbaycanın erməni işğalında olan əzəli torpaqlarının geri qaytarılmasını təmin edən Qarabağ savaşı təkcə Silahlı Qüvvələrimizin hərbi qələbəsi deyil, eyni zamanda, milli yaddaşın bədii ifadəsini formalaşdıran mühüm tarixi mərhələ sayılır. Bu mövzunun ədəbiyyatda layiqli yerini tutması gələcək nəsillərə ötürüləcək mənəvi irsin əsas şaxələrindən birini təşkil edir. Fərəhli haldır ki, Qarabağ mövzusu artıq çağdaş milli ədəbiyyatımızda yeni estetik mərhələnin başlanğıcını şərtləndirir.**

Ötən ay Azərbaycan Yazıçılar Birliyində (AYB) keçirilən konfransda da Qarabağ mövzusunun ədəbiyyatımızda yeri və perspektivləri barədə maraqlı fikirlər səsləndirilib. Yazıçılar, tənqidçilər çıxışlarında qeyd ediblər ki, 44 günlük Zəfər yürüşünün gerçəkləri ədəbi prosesdə yeni poetik və publisistik yanaşmalara vəsilə olub. Buna qədər ədəbiyyatda daha çox bədii ağlaşma, ah-zar müşahidə olunurdusa, artıq zəfər salnaməsinin layiqli tərənnümü üstünlük təşkil edir. Yeni daha səviyyəli əsərlərin yaradılması və bu mövzunun beynəlxalq müstəvidə təqdiminin gücləndirilməsi zərurəti də önə çəkilib.

Təbii ki, xalqın duyğu və düşüncələrinin əsas ifadəçiləri olan qələm sahiblərimiz ədəbiyyatı ümumbəşəri dəyərlər səviyyəsinə qaldırmalı, haqq işimizi və öz torpaqlarımızı qoruya bilmək əzmimizi, həmçinin sülhpərvər bir toplum olduğumuzu dünyaya bədii sözün qüdrəti ilə bəyan etməlidirlər. Bəs, gerçək ədəbi mənzərə necədir? Qarabağ mövzusunda yazılan sanballı bədii nümunələrimiz yetərincədirmi? Yalnız məhdud dairəni qane edəcək kütləvi tərənnümlər "dəb" halını almasın deyə, nə etmək lazımdır? Tarixi fakturaya daha çox qlobal bədii prizmadan yanaşılmasına nail olmağın hansı yolları var? Tanınmış yazarlarımızın bu suallar ətrafında söhbətini təqdim edirik.



**İlqar Fəhmi, AYB-nin katibi:**

– Hər bir yazıçı, şair, publisist, dramaturq, ilk növbədə, Azərbaycan xalqının övladı, Azərbaycan dövlətinin vətəndaşıdır. Məhz bu baxımdan əminliklə deyə bilərəm - Azərbaycanda elə qələm sahibi yoxdur ki, son illərdə ölkədə baş verən hadisələri, Qarabağ müharibəsini, tarixi zəfərimizi, ərazi bütövlüyümüzün bərpa edilməsini öz yaradıcılığında əks etdirməsin.

Sizin xatırlatdığınız konfransda mən də çıxış edərək, nəsr sahəsindəki vəziyyətin təhlilini verdim. Azərbaycan ədiblərinin Zəfərdən əvvəl, savaş dövründə və sonra yazdıqları əsərlərə diqqəti cəlb etdim.

Zəfərdən əvvəlki dövrdə Anar, Elçin, Mövlud Süleymanlı, Seyran Səxavət, Sabir Rüstəmxanlı, Aqil Abbas, Mustafa Çəmənli, Əli Əmirli, Səyyad Aran; nisbətən sonrakı nəsil yazarlarından Elçin Hüseynbəyli, Kamran Nəzirli, Orxan Fikrətoğlu, Fəxri Uğurlu, Zahid Sarıtorpaq, Əyyub Qiyas, Kənan Hacı, Günel Rzayeva, Zemfira Məhərrəmli, Şiringül Musayeva, Şərif Ağayar, Vüsal Nuru, Əli bəy Azəri, Natavan Dəmirçioğlu və başqa müəlliflərin çoxsaylı nəsr əsərlərini nümunə gətirmək olar.

Dramaturgiya sahəsində isə Anar ("Şəhərin qış gecələri"), Hüseynbala Mirələmov ("Güllələnmiş heykəllər") Elçin Hüseynbəyli ("Fatihə, "Qaçaq qocalar") Ramiz Novruz ("Hələ sevirəm deməmişdilər"), Əli Əmirli ("Ünvansız qatar") və başqa müəlliflərin dram əsərləri mövzuya fərqli baxış bucaqlarını nümayiş etdirirdi.

Həmin dövrdə ölkədə baş verən iki tarixi hadisə, yuxarıda danışdığımız motivlərin ədəbiyyatımızda güclənməsinə daha da təkan vermiş oldu. Bu hadisələr Mübariz İbrahimovun qəhrəmanlıq hekayəti və Aprel döyüşləri oldu. Həm Mübariz İbrahimovun, həm də Aprel döyüşlərinin qəhrəmanlarına həsr olunmuş onlarla nəsr və dramaturgiya əsəri yarandı. Bu nümunələrdə artıq ümidsizlik, çarəsizlik motivləri yox idi. Daha əzmkar və motivlər üzərində çoxsaylı nəsr əsərləri yazıldı. Həmin döyüşlərin qəhrəmanlarına həsr olunan 2 böyük nəsr əsərinə xüsusi diqqət çəkmək istərdim. Bunlardan biri Səyyad Aranın Lələtəpə mövzusuna həsr olunmuş "İrəvana gedən yollar" romanı, digəri Şərif Ağayarın Milli Qəhrəman Raqub Orucova həsr etdiyi "Komandir" romanlarıdır. Amma dramaturgiya sahəsində sırf Aprel döyüşləri, əfsus ki, əks etdirilməyib.

2020-ci ilin 27 sentyabrı bütün Azərbaycan xalqı kimi, yazarlarımız üçün də düşüncə və təfəkkür baxımından dönüş nöqtəsi oldu. Ölkə başçısı, Ali Baş Komandan İlham Əliyevin həmin gün xalqa etdiyi ilk müraciətdən sonra artıq həmin, sanki, qələbə əzmi gücləndi. Böyük fəxrlə deyə bilərəm ki, müharibənin ilk günlərindən yazarlarımız da qələmlərini silaha çevirdilər.

Təbii ki, yazıların əksəriyyəti poetik əsərlər idi, lakin nəsr, esse kimi janrlar da mövcud idi. Şəxsən mən özüm müharibənin ilk gününə həsr olunmuş "Bazar günü" pyesimi məhz oktyabrın 10-da bitirmişdim. Yəni hələ müharibənin necə başa çatacağını bilmədən.

Ümumilikdə, dünya ədəbiyyatı tarixinə nəzər saldıqda, görürük ki, cəmiyyət, xalq üçün bir çox taleyüklü hadisələrdən, müharibələrdən, inqilablardan bilavasitə sonrakı dövrdə, belə demək olarsa, "isti-isti" yazılan əsərlərdə sənədlilik faktoru çox güclü olur. Bizdə də oxşar hadisə müşahidə edildi. Ədəbiyyat adamlarımız sanki özlərinə borc bilirdilər ki, igid qəhrəmanların, şəhidlərin, qazilərin həyat hekayələrini, şücaətlərini ədəbiyyat müstəvisinə keçirsinlər və xalqın real qəhrəmanlıq salnaməsini gələcək nəsillər üçün əbədiləşdirsinlər.

Ümumilikdə, Zəfərdən sonra ədəbiyyatımıza və dramaturgiyamıza yeni nəfəsin gəlməsi faktı danılmazdır. Yunus Oğuzun "Cığır", "Ovçu", Səyyad Aranın "Başdaşı", "Tacın qaytarılması", Elçin Hüseynbəylinin "Vida", Alpay Azərin "Ay işığında tabut" hekayəsi, Zahid Sarıtorpaq "Qiyamət qazıləri" romanı, Mustafa Çəmənli "İmarət məzarlığı", Məhəmməd Oruc "Qalanın İrəvan qapısı", Vahid Məhərrəmli "Cəbhə gündəliyindən", Etibar Muradxanlının "Dəmir Yumruq əməliyyatı 44", "Siz mühasirədəsiz, leytenant" romanları, Güllü Məmmədovanın "Oğurlanmış Zəngəzur" tarixi-sənədli romanı, Rəşid Faxralının "Ruhumuzun zəfər fəsli", "Üçüncü güllə", Meyxoş Abdullanın "Əsir qadın" romanı, Əli bəy Azərinin "Zəngəzurlu iki zabit", "Hərbi Zəngilan", Vüsal Nurunun "Kənd qatilləri" hekayəsi və onlarla bu mövzuda yazılan nəsr əsəri qeyd oluna bilər.

Bir sözlə, onu deyə bilərik ki, həm nəsrimizdə, həm də dramaturgiyamızda Zəfər mövzusuna münasibət, hələ ki, ilk mərhələdə – yəni patriotik vətənpərvərlik mərhələsindədir. Şübhəsiz ki, bir neçə ildən sonra artıq ikinci mərhələdə müharibə və zəfər mövzusuna ümumbəşəri, psixoloji, həttə tənqidi və digər aspektlərdən yanaşılan və fərqli poetik üslublarda qələmə alınan nəsr və dram əsərlərini müşahidə edəcəyik...



**İbrahim İlyaslı, AYB poeziya bölməsinin rəhbəri:**

– Son illərdə Zəfər poeziyamızın üfüqləri xeyli genişlənib. Ümumiyyətlə, Azərbaycan ədəbiyyatı və xüsusilə də poeziyası bütün zamanlarda həm də ölkədə baş verənlərin bədii inikası kimi ortada olub. XX əsrin sonları və XXI əsrin əvvəlləri Azərbaycanda həm siyasi, həm də mədəniyyət müstəvisində qlobal dəyişikliklər zamanı kimi tarixə keçib. 70 illik sovet rejiminin çökməsi və 20 Yanvar faciəsi, ölkəmizə qarşı Ermənistanın elan olunmamış müharibəsi, torpaqlarımızın işğalı həmin dövrün qarışıq mənzərəsini ehtiva edirdi.

Bütün bu acıların fövqündə yeganə qürur duymalı tarixi olay Azərbaycanın dövlət müstəqilliyi qazanması idi və xalqımız məhz bunun naminə bütün əzablara və fəcələrə sinə gərməyə hazır idi. Ulu öndərin ən çətin dövrdə – 1993-cü ildə xalqın təkidi ilə siyasi hakimiyyətə qayıdışı isə xalqın təbəddülatlarına son qoydu və sabaha olan inamını daha da artırdı.

30 illik bir zaman kəsiyində hər gün, hər an ölkə rəhbərliyi beynəlxalq səviyyədə diplomatik gedişlər edir, ordumuz güc toplayaraq torpaqlarımızı işğaldan azad etməyə hazırlaşır, ədəbiyyatımız xalqı işğalla barışmamağa çağırır, ruhdan düşməyə qoymurdu. Bu mənada, düşünürəm ki, xalqımızın və ordumuzun addım-addım qələbəyə yaxınlaşan yolunu aydınlatmaqda və bu qələbənin qazanılmasında ədəbiyyatımızın da öz xidmətləri var...

Konkret olaraq, 44 günlük Vətən müharibəsində qazandığımız qələbəni vəsf edən Zəfər poeziyası həm də qürur poeziyası oldu. Sələflərimizin bizə əmanət buraxdığı vətənpərvərlik duyğularının üzərində pərvəriş tapdı. XIV əsrdə yaşayıb-yaratmış sərkərdə şairimiz Qazi Bürhanəddinin bir tuyuğunda dediyi kimi:

**Ər oldur Həqq yoluna baş oynaya,**
**Döşəkdə ölən yigit murdar olur.**

Yəni söhbət təkcə mövzudan yox, həmin mövzuda yazılan şeiri hansı poetik enerji və ağırlıqla ortaya qoymaqdan gedir. Şükürlər olsun ki, ululanmızın başladığı vətənpərvərlik poeziyası yolu XX əsrin 2-ci yarısının görkəmli Azərbaycan şairləri Bəxtiyar Vahabzadənin, Məmməd Arazın, Xəlil Rza Ulutürkün, Nəriman Həsənzadənin, Məmməd İsmayılın, Zəlimxan Yaqubun və b. timsalında gələcək nəsillərə ötürülməkdə və bir çox yeni nəsil istedadlı şairlərimizin qələmində günümüzədək davam etməkdədir...

Ölkəmizin ərazi bütövlüyü, uzun illər yağıların işğalında qalmış Vətən torpaqlarının azadlığı uğrunda haqq savaşımızda xalqımızın birliyi, müzəffər sərkərdəmizin komandanlığı, şəhid və qazilərimizin canı-qanı bahasına qazandığımız qələbə, əlbəttə ki, qələm adamlarını da bu mübarək zəfəri vəsf etməyə ruhlandırmaya bilməzdi. Odur ki, qələbənin elə ilk günlərindən başlayaraq bu günə qədər şairlərimiz çoxsaylı zəfər şeirləri və poemaları yazmaqda və yayınlamaqdadırlar. Yazılmış əsərlərin çoxluğu, nəşrlərin izlənməsinin və sosial şəbəkələrdəki ədəbiyyat portallarını davamlı sərf-nəzər etməyin çətinliyi səbəbindən bu əsərlərin hamısından bəhs etmək, münasibət bildirmək qeyri-mümkündür. Bununla belə, tanış olmaq imkanı tapdığım poetik nümunələr haqqında fikirlərimi bölüşə bilərəm.

Onu deyim ki, mövzu müqəddəs və həssas, şeir və poemaların bədii səviyyəsi isə minimumdan maksimuma qədər bir şkala üzrə dəyişməkdədir. Əslində, hər kəs belə bir müqəddəs mövzuda qələm çalmazdan öncə yaxşı-yaxşı düşünüb-daşınmalıdır: Mənim yazdığım şeir bu Zəfərin qazanılması üçün canından keçmiş şəhidlərimizin şəninə layiq olacaqmı, onların qəhrəmanlıqlarını bədii sözün fövqünə qaldıra biləcəyəmmi?

Təəssüf ki, məruzəni hazırlayarkən çap olunmuş kitablarda, yayınlanmış qəzet və dərgilərdə, eləcə də sosial platformalarda bu müqəddəs mövzuda qələmə alınmış yetərincə zəif, qələbəmizin qüdrətinə yaraşmayan nəzm nümunələri ilə də rastlaşdım. Poeziyanı şərtləndirən kriterilərdən xəbərdar olan zövqlü oxucular mövzunun həssaslığını nəzərə alıb aşkar tənqidi münasibət bildirməyə çəkinsələr də, ciddi ədəbi cameələrdə, yumşaq desək, buna bir etiraz dalğası, inciklik mesajları hiss olunmaqdadır. Belə halların baş verməsində müəlliflərlə yanaşı, nəşriyyatların da, nəşrlərin redaktorları da məsuldurlar.

Elə bu səbəbdəndir ki, bəlli mövzuda saysız-hesabsız şeirlər və poemalar yazılsa da, oxucuların qəlbinə yol tapan, dillər əzbərinə çevrilən, ürəkləri riqqətə gətirən, tənqidçilərin diqqətini cəlb edən poeziya nümunələri nisbətdə çox azdır. Elə bu anda yazı masamın üzəri kitab, jurnal və qəzetlərlə dolu olmağına, mövzuya aid açar sözlər vasitəsilə internetdə axtarışlar aparmağıma baxmayaraq, "Bax, bu şeir zəfərimizin qüdrətini bütün çalarları ilə sözün ucalığına qaldırıb", – deyə sitat gətirəcəyim poeziya nümunələri o qədər də çox deyil.

Bu mənada, AYB Hərbi vətənpərvərlik komissiyasının sədri, tanınmış şair və bəstəçi Şahin Musaoğlunun əsgərlərimizin, eləcə də bütün gənclərin dilinin əzbəri olan, orta məktəb dərsliklərində tədris olunan şeirlərini ilk növbədə xatırlatmaq istəyərdim. Onun tanınmış hərbi diktor və müğənni Şəmistan Əlizamanlının ifasında səslənən "İgid əsgər, möhkəm dayan!", "Cənab leytenant" və s. şeirləri hərbi hissələrimizdə və efir məkanımızda davamlı olaraq səsləndirilməkdə və sevilməkdədir. Çağdaş poeziyamızın ünlü ismi, şair Ramiz Qusarçaylının məşhur "Azərbaycan bayrağı", Elçin Mirzəbəylinin "Azərbaycan əsgəri" şeirlərinin, eləcə də İlqar Fəhmi ilə Səlim Babullaoğlunun yeni hərbi marş yazmalarının da bu mövzuda ayrıca yeri var. Bu sırada, hərbçi-şair Zəminə Xınalının hərbi məktəblərimiz üçün yazdığı himn və marşları da xatırlatmaq yerinə düşərdi. Azərbaycanın Milli Qəhrəmanı, düşmən ordusu ilə təkbaşına döyüşdə misilsiz qəhrəmanlıq göstərərək şəhid olmuş Mübariz İbrahimovun şəninə yazılmış çoxsaylı şeirlər və poemalar isə zəfər poeziyamızın ayrıca bir səhifəsi olaraq ədəbiyyat tariximizə düşüb.



**Azər Turan, "Ədəbiyyat qəzeti"nin baş redaktoru, filologiya üzrə fəlsəfə doktoru:**

– Milli məfkurə və savaş ruhu bütün estetikaların fövqündə dayanan nəsnədir. Millətimiz 2020-ci ilin noyabrında zəfər və bayraq sevincini tarixdə heç zaman yaşamadığı bir coşquyla yaşadı. Çünki "Dəmir Yumruq" 30 ilin deyil, 250 ilin işğal tilsimini sındırmışdı, 250 ildən bəri əzab çəkən heysiyyətimizin, qanayan qürurumuzun qisası alınmışdı; qondarma erməni mifinin özülü məhv edilmişdi. İlham Əliyev dünyanın gözü qarşısında Daşnaksütyun, Nemesis, Andranik, Şaan Natali mifini əzdi, tarixin axarını Azərbaycanın xeyrinə döndərdi.

Ədəbiyyatımız zəfər sevincini buna layiq mətnlərlə cavablandıra bildimi? Həmkarlarım bu sualı imkan daxilində cavablandırdılar. Mənsə Zəfərin bədii publisistika inikasından danışmaq istərdim.

Müharibə şəraitində, adətən işlək olan janr publisistika olur. İkinci Qarabağ savaşı günlərində də publisistika ədəbiyyatın aparıcı janrına çevrildi.

44 günlük savaş və onun fərəhli nəticəsi Qarabağı və özəlliklə Şuşanı ədəbiyyatımızın, eləcə də publisistikamızın dominantına çevirdi. Azərbaycan düşüncə tarixində Şuşa və Qarabağ heç zaman 2020-ci ilin noyabrından sonra olduğu kimi belə vüsətlə təmsil olunmamış, bu miqyasda ədəbiyyatın predmetinə çevrilməmişdi.

2020-ci ilin noyabrından etibarən milli publisistikamızda Qarabağnamələr dövrünü Zəfərnamələr dövrü əvəz etdi. Azərbaycan Yazıçılar Birliyində Anarın ideya müəllifliyi və Rəşad Məcidin Ön sözü ilə nəşr olunmuş "Qarabağ dastanı. Otuz ilin həsrəti - 44 günün zəfəri" kitabı Zəfərnamələr mərhələmizin ilk əsəri oldu. Növbəti Zəfərnamə Elçin Hüseynbəylinin Ön sözü ilə nəşr olunmuş "Bütün yollar Şuşaya aparır" kitabı idi. Hər iki kitab, təbii ki, millət olaraq tərcümeyi-halımızın çox dəyərli səhifələrini ehtiva edir.

44 günlük savaş dövründə "Ədəbiyyat qəzeti"nin oktyabrın 3-dən noyabrın 14-ə qədər 6 sayı "Qarabağ Azərbaycandır və nida" başlığı ilə dərc olunurdu. Ədəbiyyatımızın həmin günlərdəki siması barədə aydın təsəvvür əldə etmək üçün qəzetin həmin saylarına baxmaq bəs edər. Savaş dönəmində Azərbaycan ədəbiyyatının ən dəyərli nümunələri – şeirlər, poemalar, hekayələr, o cümlədən ədəbi tənqidi yazılar, publisistik məqalələr məhz "Ədəbiyyat qəzeti"nin həmin nüsxələrindədir. İlk publisistik və proqram səciyyəli "Ali Baş Komandanın əmri" adlı yazını akademik Nizami Cəfərov yazdı. Elnarə Akimovanın "Yalnız Qarabağ uğrunda", mənim "Buрası Turan qapısı", Tehran Əlişanoğlunun "Tarixin fürsəti", Səlim Babullaoğlunun "Dünya ədəbiyyatçılarına müraciət"i, Elxan Zal Qaraxanlının "Ülkümüzün Qarabağ səhifəsi", Rüstəm Kamalın "Müqəddəs savaşımız və sözümüz", Cavi Danın "Müharibə düşüncələri", Şəhriyar del Geraninin "Torpaq insanı udanda qəbir olur, İnsan torpağı udanda şəhid" yazıları savaşın ilk həftəsində dərc etdiyimiz publisistik məqalələr oldu.

Dediyim kimi, noyabrın 14-ə kimi proses bu şəkildə davam etdi. Qəzetin hər yeni sayı müharibə təəssüratlı yazılarla təqdim olunurdu. Yenə də mənim "Salam türkün bayrağına və yaxud dağılan erməni mifi", "Erməni məkrinə qarşı yüz il diri qalan düşüncə - Əli bəy Hüseynzadə örnəyi", "Tanrının evi – Türk Qarabağı və bir hilal uğruna batan günəşlər", Elnarə Akimovanın "Ermənilərin öldürdüyü uşaqlar", "Şuşada azan səsi", Sadıq Elcanlının "Müqəddəs qələbəyə and içirəm" yazıları... "Müharibə ədəbiyyatı nə zaman yaranacaq?" sualına Kamal Abdulla "Müharibə və onun ədəbi-bədii əks-sədası" məqaləsi ilə cavab verdi.

Əlif Şəfəqin ermənipərəst mövqeyi də məhz həmin günlərdə Azərbaycan yazıçıları tərəfindən açıq məktub şəklində "Ədəbiyyat qəzeti"ndə tənqid olundu. Akademik İsa Həbibbəyli də, yazıçı Eyvaz Zeynalov da Əlif Şəfəqə qəzet vasitəsilə etiraz dolu fikirlər ünvanladılar. Vaqif Yusiflinin, Rüstəm Kamalın, Azər Abdullanın, İlqar Fəhminin, Sərvaz Hüseynoğlunun, Səadət Şıxıyevanın məqalələri döyüşkən publisistika örnəkləridir.

Çingiz Abdullayevin "Rosiyya-1" televiziya kanalında Solovyova verdiyi cavabı da "Niyə siz Azərbaycanın ağrısını eşitmək istəmirsiniz?" sərlövhəsi ilə təqdim etdik.

Hədiyyə Şəfaqət, Günel Eyvazlı, Kamran Yusifzadə, Asif Quliyev, Nəriman Qasımoğlu, Nizaməddin Şəmsizadə, Firudin Qurbansoy və digər tanınmış qələm sahibləri dəyərli publisistik yazılarla qəzetdə çıxışlar etdilər. Adil Cəmilin Cavanşir Yusiflinin, Məti Osmanoğlunun, Rahid Uluselin, Mətanət Vahidin, Orxan Arasın, Sevinc Nuruqızının, Tahirə Məmmədin yazıları da o qəbildəndir. Azərbaycan radiosu isə müharibə günlərində Rafiq Həşimovun təşəbbüsü ilə "Əsgərə məktub" verilişini xüsusi rubrika kimi təqdim etdi. İlk dəfə idi ki, Azərbaycan radiosunun araçılığı ilə epistolyar janr dövriyyəyə qatıldı, Azərbaycan yazıçılarının Azərbaycan əsgərlərinə məktubları səsləndirildi.

Bu gün bütün savaş və zəfər əhvalımızı həm ədəbi, həm ictimai baxımdan tam dolğun əks etdirən bir publisistik mətni xüsusi qeyd etmək istəyirəm. Söhbət Emin Pirinin "Müharibə gündəliyi" əsərindən gedir. Mətni əsgərin özü yazıb. Müəllifi həm müstəqillik dövrü poeziyamızın modernist şairlərindən, həm də Qarabağ uğrunda savaşan milli ordunun zabitlərindəndir. Və "Müharibə gündəliyi" də savaş günlərində, belə demək olarsa, ön ataş xəttində yaranmış yeganə əsərdir. "İkinci Qarabağ savaşı barədə ciddi əsər yaranmadı" deyə, Azərbaycan yazıçılarına irad tutan, məsələyə nihilist yanaşan dostlarımızın diqqətini həm də "Müharibə gündəliyi"nə yönəltmək istəyirəm. Əsərin məziyyətləri çoxdur.

AYB-nin və Azərbaycan PEN klubunun bəyanatları da "Ədəbiyyat qəzeti"nin həmin saylarında dərc olunub. Xalq yazıçısı Anarın 1 aylıq Prezident təqaüdünü Silahlı Qüvvələrə bağışlaması barədə məlumat da müharibə dövrümüzü əks etdirən həmin səhifələrdir. "Ədəbiyyat qəzeti" ilə yanaşı, "525-ci qəzet"də, "Xalq qəzeti", "Azərbaycan" və digər mətbu orqanlarda savaş çağının dəyərli publisistik yazıları oxuculara təqdim olunub…

Bəli, 44 günlük savaş və onun fərəhli nəticəsi Qarabağı, özəlliklə Şuşanı ədəbiyyatımızın, eləcə də publisistikamızın dominantına çevirdi. Azərbaycan düşüncə tarixində Şuşa və Qarabağ heç zaman 2020-ci ilin noyabrından sonra çox böyük vüsətlə təmsil olunmuş, bütün miqyası ilə ədəbiyyatın predmetinə çevrilmişdir. İnanırıq ki, bundan sonra da Zəfər mövzusunda dünyaya səs sala biləcək mükəmməl əsərlər yazılacaq.

*Səhifəni hazırladı:*
*Əli NƏCƏFXANLI*
*XQ*

# I Ümumittifaq Türkoloji Qurultay milli mətbuatda

(əvvəli qəzetin 11, 15, 21 aprel, 2 və 13 may 2016-cı il tarixli saylarında)

## "Yeni yol" qəzeti 7 mart 1926-cı il

### Ümumi türk dili olması mümkünmü

Türk dillərinin birləşib birləşməsi tərəfində biri birisinə qarşı olan bir çox amillər vardır.

Birləşməyə qarşı olan amillərin birisi də inqilab təsirində türk dillərindəki mətbuatın xalq şivəsinə yakınlaşması məcburiyyətidir.

İnqilabın birinci illərində xalqı əksi hərəkətə qarşı mübarizəyə təşviq eyləmək lüzum olan zamanda, yerli qəzetələr dillərini məhəlli şivəyə yakınlaşdırdılar. İnqilaba qədər ümumi ədəbi lisanı, olan tatarların Kazanda çıkan qəzetələri ilə Həştərxan və Saratovda çıkan qəzetə dilləri arasında bir çok fərq var idi.

Lakin türk dillərinin birləşməsi tərəfində olan böyük amillərin birisi də türk dillərində nəfis ədəbiyyat vücuda gətirmək məsələsidir.

Düzülməkdə olan yeni həyatın parçalarını nəfis ədəbiyyat səhifələrində təsvir etmək lazım. Onun üçün türk dillərində nəfis ədəbiyyat yaratmaq və onu yüksəltmək lazımdır.

Lakin ədibin icadçılığı onun əsərləri üçün iqtisadca geniş bir meydan tələb edir. Lazımdır ki, ədibin yazdığı əsərin onun maarifini maddi cəhətdən təmin edəcək binlərcə etiraz olsun. Bu isə nəfis ədəbiyyata ehtiyacı olan minlərcə savadlı adamları olan bir millət dilində yazılmağı istiyir. İş bu səbəbdə xalq arasında savadlı adamları az olan bir millət dilində nəfis ədəbiyyat vücuda gətirmək mümkün olmadığını göstərir.




Təbii ki, xırda millət arasından çıkan bir ədib kəndi əsərlərini digər bir dildə yazmağa məcburdur. İştə bu hal türk lisanlarını bir birisinə yakın olan ayrı federasyonlara topluyacaqdır.

Hal-hazırda ədəbiyyatca zəif olan Krım tatarları, ya mədəniyyətcə tərəqqi etmiş Azərbaycan və yaxud Kazan tatarlarının dillərinə yakınlaşmaya məcburdurlar. Digər əqəliyyətdə olan millətlər dəxi nəfis ədəbiyyat vücuda gətirmək istərlərsə kəndilərinə yakın olan bir dil federasyonuna qoşulmağa məcbur olacaqlar. Məsələn, Edil boyunda yaşıyan Saratof mişarları, Həştərxan nogayları, Başqırdların bir cüzi nəfis ədəbiyyatda Kazan tatarları dilini kollanırlar.

Lakin türk dillərinin toplaşması bu federasyon hüdudundan da çıkıb ümumi bir dil tərəfində toplaşmağa məcbur olacaqlar.

Mədəni yürüşümüz irəli getdikcə aramızda fənni və ictimai ədəbiyyatı yüksəltmək, ali məktəb vücuda gətirmək məsələləri kalkacak.

O məsələlərin həlli də şübhəsiz bizim aramızda ümumi bir ədəbi türk dili məsələsini meydana çıkaracak ki, Türkoloji Qurultayında dil məsələsi haqqında söylənilən fikirlər də bunu anlatdırlar.

Bununla bərabər Türkoloji Qurultayının 12-ci tarixi məclisində qəbul olunan əlifba məsələsi də bu məsələnin həllini çok yakınlaşdırdı.

**Şamil Usmanof**

*

Bu mətn türk dillərinin birləşməsi (inteqrasiyası) problemini sosiolinqvistik, mədəni və iqtisadi amillər prizmasından izah edən konseptual yanaşmanı əks etdirir. Müəllif türk dillərinin yaxınlaşmasına qarşı və lehinə olan faktorları tarixi-inqilabi kontekst daxilində təhlil edir və dilin inkişafını ictimai ehtiyaclarla birbaşa əlaqələndirir. Mətnin əsas dəlillərindən biri ondan ibarətdir ki, inqilabdan sonrakı ilk illərdə mətbuatın xalq şivəsinə yaxınlaşması dili birləşdirən deyil, əksinə, parçalayaraq fərqləndirən bir prosesə çevrilmişdir. İnqilabi təbliğatın effektivliyi naminə yerli qəzetələrin məhəlli şivələrə yönəlməsi, əvvəllər mövcud olmuş ümumi ədəbi dil normalarının zəifləməsinə səbəb olmuşdur. Kazan, Həştərxan və Saratov tatar mətbuatı arasında qeyd edilən dil fərqləri bu prosesin konkret nümunəsi kimi təqdim olunur. Bununla yanaşı, müəllif türk dillərinin yaxınlaşmasını şərtləndirən əsas müsbət amili möhtəşəm ədəbiyyatın yaranması və inkişafı ilə əlaqələndirir. Bu ədəbiyyatın formalaşması üçün geniş oxucu kütləsi, yəni savadlı və mədəni ehtiyacları olan sosial baza zəruri sayılır. Burada dilin yaşarlılığı və inkişafı birbaşa iqtisadi və demoqrafik potensialla əlaqələndirilir: geniş oxucu kütləsi olmayan dildə yüksək səviyyəli ədəbiyyatın yaranmasının mümkün olmadığı vurğulanır.

Bu məntiqdən çıxış edərək müəllif kiçik və mədəni baxımdan zəif icmaların öz ədiblərini daha geniş yayılmış və inkişaf etmiş türk dillərinə yönəltməyə məcbur qalacağını bildirir. Krım tatarlarının, Saratov mişarlarının, Həştərxan noqaylarının və bəzi başqırd qruplarının Kazan tatar dili və ya Azərbaycan dili kimi mərkəzi ədəbi dillərə yaxınlaşması bu prosesin təbii nəticəsi kimi təqdim olunur. Beləliklə, türk dillərinin inkişafı əvvəlcə regional "dil federasiyaları", daha sonra isə ümumi ədəbi dilə doğru istiqamətlənən mərhələli proses kimi izah edilir.

Mətnin son hissəsində bu tendensiyanın gələcək perspektivləri göstərilir. Elmi və ictimai ədəbiyyatın inkişafı, ali təhsil müəssisələrinin yaranması zərurəti ümumi ədəbi türk dili məsələsini qaçılmaz edir. Müəllif Türkoloji Qurultayda dil və əlifba məsələləri ətrafında səsləndirilən fikirləri bu tarixi inkişafın ilkin ideoloji və institusional təməli kimi qiymətləndirir. Xüsusilə qurultayın 12-ci iclasında qəbul edilmiş əlifba qərarının ümumi dil probleminin həllini sürətləndirən mühüm addım olduğu vurğulanır. Nəticə etibarilə mətn türk dillərinin birləşməsini romantik ideya kimi deyil, sosial-iqtisadi zərurət, mədəni inkişaf və elmi tərəqqinin məntiqi nəticəsi kimi əsaslandıran ideoloji-elmi baxışı əks etdirir.

## "Yeni yol" qəzeti

### 8 martdakı səhər iclası

Ölkəşünaslıq işləri metodu. Akademik Oldenburqun məruzəsi. Elmlər Akademisinin hədiyyəsi. Oldenburq Ümum İttifaq ölkəşünaslıq rəhbəri seçilmişdir.

**İclası sədr Ağamalıoğlu açır.**

**Akademik Oldenburqun məruzəsi**

Akademik Oldenburq, türk xalqları arasında ölkəşünaslıq işləri metodu haqqında məruzədə bulunur.

Akademik Oldenburq məruzəyə keçməzdən qurultayı Şuralar İttifaqı Elmlər Akademisi adından təbrik edir və Akademiyanın elmi heyətinin türk xalqlarının yaşadığı yerlərdə toplanmış materiallarını 3 albom şəklində Akademinin hədiyyəsini qurultaya təqdim etməklə, bunları qurultayın müvafiq bildiyi yerə verilməsini təklif edir.

Oldenburq məruzəyə başlayaraq söylüyür: türk xalqlarının etnoqrafi etibarı ilə qarışıq olması ölkəşünaslığın əhəmiyyətini artırır. Yalnız ciddi təmiz və diqqətlə uzun zamandan bəri türk xalqlarının yaşayışına keçmiş təbəqələşməyi anlamaq mümkündür. Bu ciddi işi yalnız ölkəşünaslıq yapa bilir. İndiki halda mənəvi mədəniyyət səviyyəsinin dün olması etibarı ilə bu zəminə hələ malik deyiliz.

Sonra Oldenburq tarixi məsələlərin həlli üçün bu və ya digər dövrdə təbəqələşmənin səbəbini və məhəllini təyin etmənin əhəmiyyətini göstərdi. Əhalinin milliyyətcə siyahısı türkoloji üçün mühümdür.

İttifaqın türk əhalisinin hesabı üçün gələcək siyahı işi bizə ümidli material verəcəkdir. Buna bütün cümhuriyyətlər fikir verməli və ölkəşünaslıq təşkilatları yardımı ilə əhaliyi hazırlamaq lazımdır. Buna ən ciddi yardım göstərən mətbuatdır.

Mətbuat kitab və risalədən ziyada bizim gündəlik həyatımızı qavrıyır. Biz qəzetələrin ölkəşünaslıq hərəkatını gözlüyürüz. Bununla geniş oxucu kütləsi yeni həyatı düşünə bilərlər. Mən qurultaya böyük əhəmiyyət verən mətbuat nümayəndələrindən rica edirəm ki, ölkəşünaslıq sözünü elmi termin olmaqdan həyati bir hadisə olması üçün ittifaqımız xalqı arasında bunun bərpası onlardan asılı olmaqla bənim sözümə diqqət versinlər. Aşağı ölkəşünaslıq özəklərinə diqqət vermək lazımdır.

Mənim nəzərdə dutduğum kənd və şəhər həyatına yakın kəndli və işçi özəkləridir. Bu özəklərin canlanması üçün məktəblərlə əlaqəsi lazımdır. Burada müəllim və müəllimələr iştirak etməlidir.

Ölkəşünaslıq işinə Maarif Komissarlığından ciddi diqqət verməsini gözlüyür, ümid edir ki, onun büdcəsində ölkəşünaslıq xərcləri üçün müəyyən qisim ayrılar.

*

Bu mətn Akademik S.F.Oldenburqun Türkoloji Qurultayda ölkəşünaslıq metodologiyasına dair məruzəsinin ideya və məqsədlərini əks etdirir. Məruzə Sovet elmi siyasətinin türk xalqlarının öyrənilməsinə yanaşmasını, xüsusilə etnoqrafik müxtəliflik və sosial təbəqələşmə problemlərini sistemli şəkildə tədqiqetmə zərurətini ön plana çıxarır. Oldenburq türk xalqlarının etnik baxımdan qarışıq struktura malik olmasını ölkəşünaslıq işlərinin aktuallığını artıran əsas amil kimi qiymətləndirir. Onun fikrincə, tarixi proseslərin düzgün anlaşılması üçün müxtəlif dövrlərdə formalaşmış sosial-mədəni təbəqələşmənin səbəb və məkan baxımından dəqiq müəyyən edilməsi vacibdir. Bu isə yalnız uzunmüddətli, planlı və metodoloji cəhətdən əsaslandırılmış ölkəşünaslıq tədqiqatları vasitəsilə mümkündür.

Mətn, eyni zamanda, ölkəşünaslığın yalnız akademik sahə ilə məhdudlaşmamalı olduğunu vurğulayır. Oldenburq bu işi kütləvi və ictimai xarakterli elmi hərəkat kimi təqdim edir. Gələcək əhali siyahıyaalmasının türkoloji tədqiqatlar üçün zəngin material verəcəyi qeyd edilir və respublikaların bu prosesə hazırlıq məqsədilə yerli ölkəşünaslıq təşkilatlarını və mətbuatı səfərbər etməsinin zəruriliyi vurğulanır. Xüsusilə mətbuatın rolu ön plana çəkilir. Qəzet və jurnalların gündəlik həyatla birbaşa təmasda olması onların ölkəşünaslıq ideyalarının geniş oxucu kütləsinə çatdırılmasında əsas vasitə olduğunu göstərir.

Oldenburq "ölkəşünaslıq" anlayışının yalnız elmi termin yox, ictimai şüuru formalaşdıran praktik fəaliyyət sahəsi kimi qəbul edilməsini zəruri hesab edir. Məruzədə ölkəşünaslıq işinin təşkilati tərəfləri də ətraflı şəkildə izah olunur. Kənd və şəhər mühitinə yaxın, əsasən işçi və kəndli təbəqələrinə söykənən aşağı səviyyəli ölkəşünaslıq özəklərinin yaradılması təklif edilir. Bu özəklərin məktəblərlə əlaqələndirilməsi və müəllimlərin prosesə cəlb olunması ölkəşünaslığın kadr və sosial baza probleminin həlli kimi qiymətləndirilir. Nəticədə mətn ölkəşünaslığı türk xalqlarının tarixi, etnik və sosial quruluşunun öyrənilməsində strateji elmi-ideoloji alət kimi təqdim edir. Oldenburqun Maarif Komissarlığına ünvanlanan maliyyə və təşkilati çağırışları isə Sovet dövründə elmin dövlət siyasəti ilə sıx bağlı olduğunu və türkoloji tədqiqatların mərkəzləşdirilmiş şəkildə idarə olunmasının nəzərdə tutulduğunu göstərir.

**Köprülüzadənin əlavə məruzəsi**

İstər Avropada, istərsə türk ölkələrində türk ədəbiyyatı tarixi az və fəna tədqiq olunmuşdur. "Təzqirəyi Şüəra" adlanan qədim ədəbiyyat tarixləri tərcümeyi-hala nəşr edilmişdi. Son zamanda çıkan əsərlər də ənənələrdən ayrılmamışlar. Bunun üçün onlar ədəbiyyat tarixi olmuyub, tərcümeyi-hal məcmuəsidir. Bununla bərabər, ədəbiyyat tarixi, mədəniyyət tarixinin bir hissəsi olmaqla, bir tərəfdən tarixə digər tərəfdən filolojiyə istinad edən obyektiv elmi bir sahədir.

Mən elm işçilərinin diqqətini başlıca əsas 2 nöqtəyə cəlb etmək istəyirəm. Türk ədəbiyyatı tədqiqində vahid obyekt lazımdır. Hərgah ayrı-ayrı ədəbi ləhcələr alınarsa heç bir elmi nəticə əldə edilməz. Bu nöqtəyi-nəzərdən keçirilməklə Avropa şərqçilərini çıxılmaz yola salmışdır.

Bu və ya digər cəmiyyətin tarixini tədqiqdə yalınız aristokratlar ədəbiyyatında durmuyub xalq ədəbiyyatından başlıyaraq bütün ictimai ünsür və qruplara mənsub olan ədəbiyyatlar da nəzərdə tutulmalıdır. Əksi surətdə sosioloji nöqteyi-nəzərindən böyük səhv buraxılmış olar.

Xalq ədəbiyyatımızın zəngin və orijinal olması, bizim üçün xüsusi mahiyyəti hayişdir.

Professor Menzelin və Sədi yoldaşın ilavə məruzələri dinlənildikdən sonra, Köprülzadənin sədrliyi ilə qətnamə tərtibi üçün qurultay bir komisyon seçir.

*

Bu mətn türk ədəbiyyatı tarixinin tədqiqi sahəsində mövcud metodoloji problemləri və elmi yanaşma çatışmazlıqlarını tənqid edən prinsipial mövqeni əks etdirir. Müəllif həm Avropa şərqşünaslığında, həm də türk ölkələrində türk ədəbiyyatı tarixinin yetərincə və elmi səviyyədə araşdırılmadığını vurğulayır, bu vəziyyəti əsasən istifadə olunan yanlış metodlarla əlaqələndirir. Mətnin əsas tənqid hədəfi klassik "Təzkirəyi-şüəra" ənənəsinə söykənən ədəbiyyat tarixçiliyidir. Bu tip əsərlərin faktiki olaraq ədəbi prosesin tarixi inkişafını




deyil, ayrı-ayrı şairlərin bioqrafiyalarını təqdim etdiyi qeyd olunur. Son dövrdə yazılmış əsərlərin də bu ənənədən kənara çıxmaması, türk ədəbiyyatı tarixinin müstəqil və obyektiv elmi sahə kimi formalaşmasını əngəlləmişdir. Halbuki, müəllifin mövqeyinə görə, ədəbiyyat tarixi mədəniyyət tarixinin tərkib hissəsi olmaqla tarix və filologiyanın kəsişməsində dayanan kompleks elmi sahədir.

Mətnin metodoloji baxımdan ən mühüm tezislərindən biri türk ədəbiyyatının tədqiqində vahid obyekt prinsipinin zəruriliyidir. Müəllif ayrı-ayrı ədəbi ləhcələrin və lokal yazı dillərinin müstəqil obyekt kimi götürülməsinin elmi nəticə vermədiyini bildirir. Bu yanaşmanın Avropa şərqşünaslığını metodoloji çıxılmazlığa apardığı vurğulanır və bununla da mövcud tədqiqat modellərinə dolayısı ilə ciddi elmi tənqid yönəldilir. Digər mühüm məqam ədəbiyyatın sosial-struktur baxımdan bütöv şəkildə öyrənilməsi prinsipidir. Mətn aristokrat ədəbiyyatla məhdudlaşan yanaşmanı kəskin şəkildə rədd edir və xalq ədəbiyyatından başlayaraq bütün ictimai təbəqələrin ədəbi məhsullarının nəzərə alınmasını zəruri sayır. Əks halda, ədəbiyyat tarixinin sosioloji təhlilində ciddi metodoloji səhvlərin qaçılmaz olduğu bildirilir.

Xalq ədəbiyyatının zənginliyi və orijinallığı ayrıca vurğulanaraq onun türk ədəbiyyatı tarixində fundamental mənbə və başlanğıc nöqtəsi kimi dəyərləndirilməsi təklif olunur. Bu yanaşma ədəbiyyat tarixini elit mədəniyyətin tarixi kimi deyil, xalq-mədəni prosesin ifadəsi kimi anlamağa yönəlmiş müasir elmi baxışı əks etdirir.

Mətnin sonunda Professor Menzel və Sədinin əlavə məruzələrindən sonra Köprülzadənin sədrliyi ilə qətnamə hazırlamaq üçün komissiyanın seçilməsi qeyd olunur ki, bu da müzakirələrin qərar mərhələsinə keçdiyini göstərir. Mətn türk ədəbiyyatı tarixçiliyində bioqrafik-təsviri yanaşmadan elmi, obyektiv, sosioloji və metodoloji əsaslı tədqiqata keçid çağırışını ifadə edir və Türkoloji Qurultayın bu sahədə dönüş nöqtəsi yaratmaq iddiasını aydın şəkildə ortaya qoyur.

**17-ci axşam iclası**

Ağamalıoğlu yoldaş sədrlik edir. İclas professor Əli Bəy Hüseynzadənin məruzəsilə açılır. Bundan sonra təbrik üçün Sibirya nümayəndəsi çıkır. Sibiryanın Yenisey qubernyası xakkas ölkəsi əhalisinin miqdarı 43.000 nəfərə malik olub öz milli dilləri qətiyyən yoxdur. Rusya imperatorluğu zamanında bu məsələ ilə kimsə uğraşmırdı. Xakkas ölkəsi 1923-cü ildən sonra xüsusi müstəqil bir ölkə təşkil olunduqda bu məsələ də yüzə çıkdı. Xakkas ölkəsi xalq maarif şöbəsi yanında 1923-cü ildən bu məsələ ilə uğraşmaq üçün xüsusi bir komisyon yaradılır. Bu komisyon xakkas dilində öz milli yazısını yaratmaq məqsədilə işə başlıyır. Bu komisyon birinci dərəcəli məktəbin birinci qrupu üçün materyallar düzəldir. Bu materiallar 1924-cü ilin noyabrında Xalq Maarif Komissarlığı yanındakı millətlər şurasına göndərilir. Burada türk şriftləri (hürutatı) olmadığından bu materiallar təb edilmir. Orada deyirlər ki, ümumi bir şrift hazırlanmadıqca bunlar təb edilməyəcəkdir. Buna görə də məni buraya göndərdikdə bizim xakkaslar bu qurultayın yeganə bir şrift yaradacağını çox rica etdilər. Çünki bu yaradıldıqdan sonra materiallarımız çap olunacaqdır (gurultulu alqışlar).



*Nadir MƏMMƏDLİ,*

*AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor*

**Professor Pavloviçin məruzəsi**

Bundan sonra Şərqşünaslıq Elmi assosionu sədri professor Pavloviç türk xalqlarının nailiyyətləri mövzusunda məruzədə bulunur. Professor Pavloviç deyir ki, çarizm və müvəqqəti hökumət zamanında türk xalqlarının mədəni inkişafı çətin bir vəziyyətdə idi. Oktyabr İnqilabı millətlərin ruhani əsarət zəncirini qırmaqla türk millətləri arasında böyük bir mədəni hərakata bais oldu. Lakin bu gediş 1921-22-ci illərdəki aclıq ilə dayandırılaraq sonraları yenə də təzədən fayanmadan türk-tatar xalqlarının mədəni inkişafı irəliləyir. Bu xalqların maarif uğrundakı mübarizələrinə mərkəzi müəssisələrdən Ümumittifaq akademisi, Ukrayna elm akademisi, Ümumittifaq şərqşünaslıq assosasionu Şərq zəhmətkeşləri kommunist darülfünunu yardımda bulunmuşlar. Bu müəssisələr Oktyabr İnqilabından bəri 800-ə qədər türk işçiləri hazırlamışlardır. Moskovdakı Nərimanov adına Şərqşünaslıq İnstitutu, Leninqraddakı Canlı Şərq Dilləri İnstitutu, mərkəzi nəşriyyat idarəsi 6 milyona qədər türk dilində risalə və qeyri təb etdirmişdilər.

Məruzəçi bu müəssisələrin gördükləri işləri müfəssəl surətdə təsvir etdikdən sonra Şura hökumətinin milli siyasəti haqqında danışır. Məruzəçi əsasında yoldaş Stalinin tezislərini götürməklə proletar mədəniyyəti milli mədəniyyəti dəyişmədiyini, biləqs ona yardım etdiyini sübut edir.

Məruzəçi ayrı-ayrı cümhuriyyətlərdə Azərbaycan, Dağıstan, Şimali Zakafqaziya, Tatarıstan, Yakuti-Qazaxıstan və sairələrdə yaşayan türk xalqlarının qazandıqları böyük nailiyyətləri rəqəmlər ilə isbat edib deyir ki, Oktyabr inqilabından bəri olan türk xalqlarının mədəni fəaliyyətlərinə yekun vurduqda görürüz ki, bu inqilab milyonlar ilə türk xalqı kütləsini azadə fikir və canlı bilik niyyətlərinə yanaşdırmışdır. 20-30-cu ildən sonra Şuralar cümhuriyyətlərində xalq maarifinin yayılması ilə kəndli və fəhlələrdən yetmə dahi şairlər, ədiblər və böyük əsərlər meydana gələcəkdir. Yeni həyata atılmış gənc tatar, Azərbaycan, Başqır, Qırğız, Dağıstan və ilaxır cümhuriyyətlərində ədəbiyyat və şeir bir çiçək kimi açılacaq, canlanacaq və parlayacaq, rövnəqlənəcəkdir.

*

Bu mətn professor Pavloviçin Türkoloji Qurultayda türk xalqlarının mədəni nailiyyətlərinə həsr olunmuş məruzəsini əks etdirir, Sovet dövrü milli-mədəni siyasətinin ideoloji əsaslandırılması və təbliği baxımından xarakterik nümunədir. Məruzə çarizm və Müvəqqəti Hökumət dövrlərində türk xalqlarının mədəni inkişafının məhdudlaşdırıldığını vurğulayaraq Oktyabr İnqilabını tarixi dönüş nöqtəsi kimi təqdim edir.

Pavloviçin çıxışında inqilabın "ruhani əsarət zəncirini qırması" fikri, sovet diskursunda milli məsələnin həlli ilə mədəni dirçəlişin eyniləşdirildiyini göstərir. 1921–1922-ci illərdəki aclığın mədəni inkişafı müvəqqəti dayandırdığı etiraf edilsə də, sonrakı mərhələdə türk-tatar xalqlarının maarif və mədəniyyət sahəsində irəliləməsinin bərpa olunduğu vurğulanır. Bu yanaşma sovet ideologiyasına uyğun olaraq, çətinliklərin keçici, sistemin isə proqressiv olduğu fikrini möhkəmləndirir.

Mətnin mühüm cəhətlərindən biri mədəni inkişafın ciddi mexanizmlərlə əsaslandırılmasıdır. Ümumittifaq Elmlər Akademiyası, Ukrayna Elmlər Akademiyası, Ümumittifaq Şərqşünaslıq Assosiasiyası və Şərq zəhmətkeşləri üçün nəzərdə tutulmuş ali təhsil müəssisələrinin fəaliyyəti konkret rəqəmlərlə təqdim olunur. Təxminən 800 türk mütəxəssisinin hazırlanması və 6 milyonadək türk dilində nəşrin çap edilməsi mədəni tərəqqinin kəmiyyət göstəriciləri kimi çıxış edir və dövlət siyasətinin uğurunu sübut etmək məqsədi daşıyır.

Məruzədə yoldaş Stalinin milli mədəniyyətlə bağlı tezislərinə istinad edilməsi xüsusi ideoloji əhəmiyyət kəsb edir. Proletar mədəniyyətinin milli mədəniyyəti əvəz etmədiyi, əksinə, onu inkişaf etdirdiyi fikri sovet milli siyasətinin nəzəri legitimləşdirilməsi rolunu oynayır. Bu, mədəni müxtəlifliyin sosialist ideologiyası çərçivəsində qorunub saxlanıldığı iddiasını irəli sürür.

Mətnin son hissəsi açıq şəkildə proqnozlaşdırıcı və pafoslu xarakter daşıyır. Xalq maarifinin genişlənməsi nəticəsində kəndli və fəhlə təbəqələrindən yeni şair və ədiblərin yetişəcəyi, milli ədəbiyyatların çiçəklənəcəyi proqnozu sovet mədəni layihəsinin gələcəyə yönəlmiş idealist təsviridir. Alqışlarla müşayiət olunan bu çıxış qurultayın təkcə elmi forum deyil, həm də ideoloji səfərbərlik platforması olduğunu bir daha göstərir. Mətn türk xalqlarının mədəni nailiyyətlərini obyektiv elmi hesabatdan çox, sovet milli-mədəni siyasətinin təbliği və legitimləşdirilməsi kontekstində təqdim edir və Türkoloji Qurultayın elmi müzakirələrlə yanaşı ideoloji funksiyasını da aydın şəkildə ortaya qoyur.

(ardı var)

*17 May Ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Günüdür*

# Rəqəmsal aləmin qlobal çağırışları və milli hədəflərimiz




**Bəşəriyyətin texnoloji inkişaf trayektoriyasını və informasiya cəmiyyətinə keçidin mahiyyətini əks etdirən Ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Günü hər il mayın 17-də beynəlxalq miqyasda qeyd olunur. 1865-ci ildə Parisdə ilk Beynəlxalq Teleqraf Konvensiyasının imzalanması və Beynəlxalq Telekommunikasiya İttifaqının yaradılması dünya rabitə sisteminin institusional əsaslarını formalaşdırmışdır.**

Həmin hadisənin tarixi əhəmiyyətini nəzərə alaraq 1969-cu ildən etibarən Ümumdünya Telekommunikasiya Günü təsis edilmiş, 2005-ci ildə isə BMT tərəfindən Ümumdünya İnformasiya Cəmiyyəti Günü elan olunmuşdur. 2006-cı ildə Antalyada keçirilmiş konfransda bu iki mühüm tarix vahid platformada birləşdirilərək Ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Günü kimi beynəlxalq təqvimə daxil edilmişdir.



**Bu beynəlxalq gün, onun məram və məqsədləri, müasir dövrdə ölkəmizin mövqeyi barədə XQ-yə ətraflı məlumat verən Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunun icraçı direktoru, texnika üzrə fəlsəfə doktoru, dosent Rəşid Ələkbərov bildirdi:**

– Müasir mərhələdə bu gün həm də qlobal informasiya mühitinin inkişaf istiqamətlərinin müəyyənləşdirildiyi strateji müzakirə platforması kimi çıxış edir. Beynəlxalq Telekommunikasiya İttifaqı tərəfindən hər il aktual çağırışları əks etdirən tematik istiqamət müəyyənləşdirilir. Qeyd etdi ki, son illərdə rəqəmsal inklüzivlik, dayanıqlı inkişaf, eləcə də yaşlı nəslin rəqəmsal texnologiyalara adaptasiyası kimi prioritetlər bu kontekstdə xüsusi yer tutmuşdur. 2026-cı il üçün müəyyən edilmiş "Həyati əhəmiyyətli rəqəmsal kanallar: qarşılıqlı əlaqəli dünyada dayanıqlılığın gücləndirilməsi" mövzusu isə informasiya infrastrukturunun dayanıqlılığı və etibarlılığının müasir cəmiyyət üçün strateji əhəmiyyətini ön plana çıxarır. Bu yanaşma internet, peyk rabitəsi, sualtı kabel sistemləri və digər rəqəmsal kommunikasiya şəbəkələrinin qlobal təhlükəsizlik, iqtisadi sabitlik və sosial rifah baxımından həyati rolunu xüsusi vurğulayır.

Rəşid Ələkbərov xatırlatdı ki, ölkəmiz 10 aprel 1992-ci il tarixində Beynəlxalq Telekommunikasiya İttifaqına (BTİ) üzv qəbul olunmuşdur. Bu addım ölkənin müstəqillikdən sonra beynəlxalq telekommunikasiya sisteminə inteqrasiyasının mühüm mərhələsi idi. Ölkəmiz qlobal telekommunikasiya və informasiya məkanının fəal iştirakçısı kimi çıxış edərək milli rəqəmsal inkişaf strategiyasını beynəlxalq normalara və çağırışlara uyğun şəkildə formalaşdırmışdır. Ötən dövr ərzində ölkədə informasiya cəmiyyətinin qurulması, elektron hökumət mexanizmlərinin genişləndirilməsi və müasir texnoloji infrastrukturun yaradılması istiqamətində ardıcıl və sistemli tədbirlər həyata keçirilmişdir.

Bu proseslərin əsas hərəkətverici qüvvəsi məqsədyönlü və konseptual siyasətdir. Prezident İlham Əliyevin təsdiq etdiyi normativ-hüquqi aktlar rəqəmsal transformasiyanı təkcə texnoloji modernləşmə kimi deyil, həm də milli inkişaf strategiyasının prioritet istiqamətlərindən biri kimi müəyyən etmişdir. Xüsusilə rəqəmsallaşma sahəsində vahid idarəetmə modelinin formalaşdırılması institusional koordinasiyanın gücləndirilməsinə və resursların səmərəli istifadəsinə imkan yaratmışdır.

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulamışdır ki, Azərbaycanın nəqliyyat və kommunikasiya infrastrukturunun ardıcıl, sistemli və kompleks şəkildə inkişaf etdirilməsi ölkənin geostrateji mövqeyinin möhkəmləndirilməsinin əsas faktorlarındandır. Bu yanaşma ölkəmizin Şərq-Qərb istiqamətində beynəlxalq tranzit və logistika mərkəzinə çevrilməsi strategiyasının mühüm tərkib hissəsdir və ölkənin regional, eyni zamanda, qlobal iqtisadi inteqrasiya proseslərində iştirak imkanlarının genişləndirilməsinə xidmət edir.

Bu strategiya Azərbaycanın regionda internet kommunikasiya kanalları və magistral xətlər üzrə əsas təminatçılardan birinə çevrilməsi perspektivini də gücləndirir. Bununla yanaşı, milli kibertəhlükəsizlik strategiyasının təsdiqi rəqəmsal mühitin qorunmasını dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevirmişdir. Sözügedən strategiya informasiya sistemlərinin təhlükəsizliyinin gücləndirilməsi, həyati əhəmiyyətli informasiya infrastrukturunun müdafiəsi və kiber risklərə qarşı çevik reaksiya mexanizmlərinin formalaşdırılması kimi mühüm vəzifələri əhatə edir.

**Müsahibimiz daha sonra qeyd etdi ki, müasir dövrdə telekommunikasiya və informasiya texnologiyaları dövlətlərin milli təhlükəsizliyi, iqtisadi sabitliyi və sosial dayanıqlılığının əsas sütunlarından biridir:**

– Rəqəmsal əlaqə kanalları fövqəladə hallar və kibertəhlükələr zamanı belə internet və kommunikasiya şəbəkələrinin fasiləsiz fəaliyyətini təmin edən çox səviyyəli infrastrukturu ifadə edir. Rəqəmsal dayanıqlılıq infrastrukturun təhlükələrə qarşı özünü bərpa etməsi, alternativ marşrutlar və ehtiyat sistemlər vasitəsilə fəaliyyətini davam etdirməsi deməkdir. Bu baxımdan Azərbaycan fiber-optik şəbəkələrin genişləndirilməsi, beynəlxalq məlumat mübadiləsi kanallarının artırılması, regional data mərkəzlərinin yaradılması və bulud texnologiyalarının tətbiqi ilə rəqəmsal ekosistemini gücləndirir və region üçün rəqəmsal körpü rolunu möhkəmləndirir.

**Ölkəmizin rəqəmsal əlaqə kanallarının əsas üstünlüyünün coğrafi və texniki baxımdan şaxələndirilmiş beynəlxalq bağlantı modeli almasını söyləyən icraçı direktor dedi:**

– İnformasiya axınının fasiləsizliyi yalnız sürətlə deyil, alternativ marşrutların və ehtiyat xətlərin mövcudluğu ilə təmin olunur. Bu məqsədlə qurulan çoxistiqamətli fiber-optik magistrallar ölkənin rəqəmsal müstəqilliyinin əsas dayaqlarından biridir. Azərbaycan Türkiyə, Gürcüstan, Rusiya və İran istiqamətləri üzrə beynəlxalq fiber-optik bağlantılara malikdir. Bu çoxvektorlu model texniki nasazlıq, təbii fəlakət və ya trafik yüklənməsi zamanı məlumat axınının alternativ kanallara yönləndirilməsinə imkan verir və qlobal internetə çıxışın fasiləsizliyini qoruyur.

Beləliklə, ölkə tək bir kommunikasiya xəttindən asılılıq riskini minimuma endirir. Milli operatorlar - "Delta Telecom", "Aztelekom" və "AzerTelecom" – beynəlxalq trafik mübadiləsi və şəbəkənin modernləşdirilməsində əsas rol oynayır. Bu infrastruktur dövlət idarəçiliyi, maliyyə, enerji, nəqliyyat və fövqəladə xidmətlərin dayanıqlığını təmin edir. Çoxistiqamətli bağlantı modeli Azərbaycanın Şərq–Qərb rəqəmsal tranzit mərkəzinə çevrilməsini gücləndirir və ölkənin qlobal informasiya məkanına etibarlı çıxışını təmin edir.

**Rəşid Ələkbərov söylədi ki, Trans-Xəzər fiber-optik magistral layihəsi Azərbaycanın Şərq və Qərb arasında rəqəmsal körpü rolunu gücləndirən strateji təşəbbüsdür:**

– Xəzər dənizinin dibi ilə çəkiləcək kabel Azərbaycanı Mərkəzi Asiya ölkələri ilə birbaşa birləşdirərək regionlararası məlumat mübadiləsini sürətləndirəcək və alternativ rabitə marşrutu yaradacaq. Layihə Avropa-Asiya trafikinin məhdud magistrallardan asılılığını azaldır, daha sürətli, təhlükəsiz və etibarlı internet bağlantısı təmin edir. Bu, həm texnoloji, həm də geosiyasi baxımdan Azərbaycanın rəqəmsal tranzit mərkəzi mövqeyini möhkəmləndirir. Trans-Xəzər magistralı "Rəqəmsal İpək Yolu"nun formalaşmasına töhfə verərək Mərkəzi Asiyanın Avropa ilə inteqrasiyasını, data mərkəzlərinin və texnoloji investisiyaların artımını stimullaşdırır. Nəticədə Azərbaycan regional tranzit ölkədən strateji rəqəmsal hab səviyyəsinə yüksəlir.

Rəqəmsal dayanıqlılıq artıq yalnız yerüstü fiber-optik şəbəkələrlə deyil, kosmik infrastrukturla da təmin olunur. Azərbaycanın peyk rabitəsi sistemi rəqəmsal ekosistemin "ehtiyat kosmik qatı" kimi çıxış edir və fasiləsiz əlaqəni təmin edir. "Azərkosmos" tərəfindən idarə olunan "Azerspace-1" və "Azerspace-2" peykləri rabitə, televiziya yayımı, internet və təhlükəsizlik xidmətləri göstərərək ölkənin qlobal rabitə sisteminə inteqrasiyasını gücləndirir və xidmət ixracını genişləndirir. Peyk rabitəsi təbii fəlakətlər və texniki nasazlıqlar zamanı alternativ əlaqə təmin edərək dövlət idarəçiliyi və strateji sektorların davamlı fəaliyyətinə dəstək verir. Beləliklə, fiber-optik şəbəkələr, Trans-Xəzər kabeli və peyk infrastruktur bu birlikdə Azərbaycanın çoxsəviyyəli və dayanıqlı rəqəmsal modelini formalaşdırır.

Müsahibimizin dediklərini onunla tamamlayaq ki, ölkəmiz 2006-cı ildən Ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Gününü mütəmadi qeyd edərək rəqəmsal inkişafın təşviqinə xüsusi önəm verir. Hər il konfranslar, forumlar və sərgilər vasitəsilə rəqəmsal iqtisadiyyat, kibertəhlükəsizlik, elektron hökumət və innovasiya mövzuları müzakirə olunur. Təhsil müəssisələrində keçirilən seminarlar, müsabiqələr gənclərin İKT sahəsinə marağını artırır. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunda Ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Gününə həsr olunan seminar və konfranslar 2006-cı ildən bəri davam edən elmi ənənədir.

Bu tədbirlər informasiya cəmiyyəti, rəqəmsal transformasiya, kibertəhlükəsizlik və süni intellekt kimi mövzuları əhatə edir, elmi nəticələrin müzakirəsinə və dövlət-özəl-akademik əməkdaşlığın güclənməsinə xidmət edir. Beləliklə, bu təşəbbüslər ölkədə rəqəmsal inkişafın elmi əsaslarının möhkəmlənməsinə mühüm töhfə verir.

***Mustafa KAMAL***
***XQ***

# Biləsuvarda memarlıq və şəhərsalma təlimi






**BMT-nin Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyası ərəfəsində Biləsuvar şəhərinin Milli Qəhrəman Mübariz İbrahimov adına məktəb-lisey kompleksində Azərbaycan Memarlıq və İnşaat Universitetinin əməkdaşlarının iştirakı ilə maarifləndirici təlim keçirilib.**

Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Faiq Qürbətov qeyd edib ki, ölkəmiz çoxəsrlik şəhərsalma və memarlıq ənənələrinə malikdir. Respublikamızda həyata keçirilən genişmiqyaslı tikinti, quruculuq işləri, xüsusilə işğaldan azad edilmiş ərazilərdə tətbiq olunan "ağıllı şəhər" və "ağıllı kənd" layihələri Azərbaycanın bu sahədəki innovativ yanaşmasının bariz nümunəsidir. Yeni çağırışlara cavab verən mütərəqqi yanaşmaların təşviqi və tətbiqinin genişləndirilməsi məqsədilə 2026-cı il ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan edilib. Yaxın günlərdə mötəbər beynəlxalq forumun Bakıda keçirilməsi respublikamızın dünyada artan nüfuzunu əyani təsdiqləyir.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin kafedra müdiri, professor, AMEA-nın müxbir üzvü İslam Mustafayev bildirib ki, paytaxtın və digər şəhərlərimizin görkəminin yenilənməsi, müasir urban standartlarına uyğunlaşdırılması, eyni zamanda, tarixi və mədəni irsin qorunması balanslaşdırılmış şəkildə həyata keçirilir. Ölkəmizin dünyaya təqdim etməsi üçün bu sahədə kifayət qədər uğurları, nailiyyətləri var.

Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının sədri Kamil Qurbanlı, AzMİU-nun baş müəllimi, memarlıq üzrə fəlsəfə doktoru İlqar Əliyev, Fövqəladə hallar kafedrasının dosenti Emil Qafarov vurğulayıblar ki, belə platformalar həm yerli şəhərsalma düşüncəsinin inkişafına, həm də beynəlxalq inteqrasiyaya yeni töhfələr verəcək.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

*18 May Beynəlxalq Muzeylər Günüdür*

# İncəsənət xəzinəmizin saxlancı

**Muzeylər xalqların tarixini, mədəniyyətini və milli yaddaşını qoruyub saxlayan və keçmişdən gələcəyə ötürən məkanlardır. Muzeylərin maarifləndirici, mədəni və tarixi rolunu ön plana çıxarmaq məqsədilə 1977-ci ildən etibarən hər il 18 mayda dünyada, eləcə də ölkəmizdə Beynəlxalq Muzeylər Günü qeyd edilir. Həmin gün muzeylərimizdə sərgilər, açıq qapı günləri və maarifləndirici toplantılar keçiriləcək.**



Əlamətdar gün ərəfəsində **Azərbaycan Milli İncəsənət Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Şirin Məlikova** ilə bu tarixi gün ərəfəsində həmsöhbət olduq.

***– Şirin xanım, Azərbaycan Milli İncəsənət Muzeyi milli-mədəni irsimizin əsas saxlanclarından biridir. Bu zəngin xəzinə xalqımıza necə çatdırılır?***

– Muzeyimizin əsas auditoriyası yerli gənclər və orta yaşlı ziyarətçilərdir. Azərbaycanın mədəni və tarixi irsinə maraq göstərən xarici qonaqlar da gəlirlər. Məktəblilər isə həm ixtisaslaşmış təhsil proqramlarında, həm də mədəniyyət və incəsənət haqqında biliklərin genişləndirilməsinə yönəlmiş interaktiv ekskursiyalarda iştirak edirlər.



Son 2 ildə muzey auditoriyasını əhəmiyyətli dərəcədə genişləndirib və ziyarətçilərin sayı artmaqda davam edir. Biz məktəb yaşına çatmış uşaqlardan yaşlı insanlara qədər bütün yaş qrupları üçün proqramlar hazırlayaraq fəaliyyət istiqamətimizi fəal şəkildə şaxələndiririk.

Statistikaya görə, 2023-cü ildə Azərbaycan Milli İncəsənət Muzeyini təxminən 12500 nəfər ziyarət edibsə, 2025-ci ilin əvvəlindən bəri ziyarətçilərin sayı 60 mini keçib.

***– Həyata keçirdiyiniz layihələr ziyarətçi və izləyici auditoriyasını necə genişləndirir?***

– Biz bir çox fərqli və maraqlı layihələr həyata keçiririk. "Muzeydə kino" – Azərbaycanın görkəmli sənətkarları və mədəniyyət xadimləri haqqında filmlərin həftəsonu nümayişidir. "Muzeydə musiqi" – tematik ekskursiyalarla müşayiət olunan milli, klassik və müasir konsertləridir. Bu, Azərbaycanda musiqi sənəti və muzey məkanını ortaq mədəni təcrübəyə birləşdirən yeganə proqramdır.

Mütəxəssislərin incəsənət, tarix və mədəniyyətə həsr olunan həftəlik mühazirələri "Muzeydə mühazirələr" çərçivəsində müxtəlif yaş qruplarına yönəlmiş interaktiv dialoq platforması rolunu oynayır. "Uşaqlar üçün incəsənətin tarixi" layihəsinə isə mühazirələr, tematik məşğələlər, viktorinalar, kvest oyunları, beynəlxalq sərgilər əsasında qurulan və uşaqları müxtəlif ölkələrin mədəniyyətləri ilə tanış edən tədbirləri daxildir.

1960–1980-ci illərdə formalaşmış Azərbaycan nonkonformist sənət mühitini əks etdirən, rəssamların fərdi yaradıcılıq axtarışlarını, azad bədii ifadə vasitələrini və dövrün rəsmi estetik çərçivələrindən kənara çıxan sənət nümunələrini təqdim edən "Altmışıncılar nəsli: konformizmdən kənar Azərbaycan incəsənəti" ekspozisiyası xüsusi maraq doğuran sərgilərdəndir.

Bundan əlavə, Xalq rəssamı Cahangir Rüstəmovun 100 illik yubileyinə həsr olunmuş "Sənət yolunun izləri: Cahangir Rüstəmovun yaradıcılıq dünyası" adlı sərgi, "Türk xalqlarının təsviri sənətində qlobal və lokal diskurslar" beynəlxalq elmi dəyirmi masa, yəni türk dünyasının müasir təsviri sənətində milli kimlik, qloballaşma və vizual yaddaş mövzularına həsr olunmuş elmi platformalar keçirilib.

Eyni zamanda, Abılxan Kasteyev adına Qazaxıstan Respublikası Milli İncəsənət Muzeyinin kolleksiyası əsasında "Mədəniyyətlərin dialoqu: Qazaxıstan – Azərbaycan" beynəlxalq sərgisi, "Küləklər şəhərinin salnaməsi: XIX–XXI əsrlər rəssamlarının əsərlərində Bakı" sərgisi də Bakının tarixi-mədəni transformasiyalarını təsviri sənət vasitəsilə təqdim edən genişmiqyaslı layihə təşkil edilir.

Muzeyin fəaliyyətində müasir incəsənət layihələri də xüsusi yer tutur. Yeni mərkəzi korpusda keçirilən tematik və konseptual sərgilər sosial, estetik və fəlsəfi mövzulara toxunaraq müasir incəsənətin çoxqatlı vizual dilini auditoriyaya çatdırır, sənət və cəmiyyət arasında aktual dialoq mühiti formalaşdırır.

***– Beynəlxalq layihələriniz incəsənət incilərimizi dünyaya necə tanıdır?***

– Muzeyin beynəlxalq mədəni əməkdaşlıq istiqamətində həyata keçirdiyi layihələr xüsusi əhəmiyyət daşıyır. Son illərdə müasir özbək miniatürçü rəssamlarının əsərlərindən ibarət "Aşiq dərviş" sərgisi, Anahuacalli Muzeyinin təqdim etdiyi "Dieqo Rivera: Daha yaxşı gələcəyin vədi" layihəsi, Belarus Milli İncəsənət Muzeyinin kolleksiyası əsasında təşkil olunmuş "Y. Pen, Y. Kruqer – Belarus peşəkar rəssamlıq məktəbinin baniləri" sərgisi, eləcə də Abılxan Kasteyev adına Qazaxıstan Respublikası Milli İncəsənət Muzeyinin və AMİM-nin birgə kolleksiyası əsasında təşkil olunan "Mədəniyyətlərin dialoqu: Qazaxıstan – Azərbaycan" beynəlxalq sərgisi mühüm beynəlxalq layihələr sırasında yer alıb. Türk dünyasının vizual yaddaş və milli kimlik məsələlərinə həsr edilmiş "Türk xalqlarının təsviri sənətində qlobal və lokal diskurslar" adlı elmi dəyirmi masa isə muzeyin elmi və mədəni platforma kimi fəaliyyətini daha da genişləndirmişdir. Bu qarşılıqlı dialoqun inkişafına, eyni zamanda, Azərbaycan mədəniyyətinin beynəlxalq müstəvidə təqdimatına mühüm töhfə verir.

***– Müasir texnologiyaların muzeylərdə tətbiqi mədəni irsə marağa necə təsir göstərir?***

– Son illərdə həm qlobal muzey təcrübəsində, həm də ölkəmizin aparıcı muzeylərində müşahidə olunan yeniliklər var. Dünya muzeyləri ziyarətçilərlə iş istiqamətində rəqəmsal və interaktiv formatları fəal şəkildə inkişaf etdirirlər və ən çox yayılmış yeniliklər arasında virtual turlar və rəqəmsal ekskursiyalar, multimedia instalyasiyaları, interaktiv panellər və sensorlu masalar, genişləndirilmiş və virtual reallıq, rəqəmsal təhsil platformaları və onlayn arxivlər, mobil tətbiqlərdən istifadə etməklə fərdiləşdirilmiş marşrutlar və yeni nəsil audiobələdçilər yer alıblar.

Bu yanaşmalar tədricən Azərbaycanda da tətbiq olunur. Məsələn, Azərbaycan Milli İncəsənət Muzeyində ziyarətləri müxtəlif kateqoriyadan olan auditoriya üçün daha cəlbedici və əlçatan edən multimedia və interaktiv həllərdən fəal şəkildə istifadə edilir.

Qeyd edim ki, hazırda respublikamızda 14-ü incəsənət, 7-si ədəbiyyat, 12-si tarix, 68-i tarix-diyarşünaslıq, 5-i döyüş şöhrəti, 43-ü ev və 52-si Heydər Əliyev muzeyi olmaqla 201 muzey var. Ölkəmizdə ilk muzey 1920-ci ildə Bakıda, ilk memorial muzey isə 1938-ci ildə Şəkidə fəaliyyətə başlayıb.

***– Müsahibə üçün təşəkkür edirik.***

***Ləman TƏHMƏZ***
***XQ***

*XQ-nin təbrik payı*

# Bənövşə ətirli yazıların müəllifi

**Mehparə Əliyeva ali jurnalist təhsilli istedadlı qələm sahiblərindəndir. Onun barəsində bu qeydləri yazmaq bir həmkar kimi mənim üçün olduqca xoşdur. Birincisi ona görə ki, o, savadlı, bilikli, peşəkar jurnalistlərdəndir. Beləlləri isə, təəssüf ki, çağdaş jurnalistikamızda çox deyil. Birincidən heç də az əhəmiyyəti olmayan ikinci səbəb isə budur ki, Mehparə xanım çox sadə, səmimi, abırlı-həyalı, ismətli Azərbaycan xanımıdır.**



Mən onun imzasını "Xalq qəzeti" ilə birləşməzdən əvvəl 18 il çalışdığı "Respublika" qəzetinin səhifələrindəki bir-birindən maraqlı yazıları ilə tanıyırdım. Amma həyatda heç vaxt üz-üzə gəlməmişdim və ötən ildən "Xalq qəzeti"ndə mədəniyyət şöbəsinin müdiri kimi çalışmağa başlayan yaxından tanımaq imkanı yarandı. Bu müddət ərzində onun həm yüksək peşəkar, həm də nəcib insani keyfiyyətlərini müşahidə etdim.

Tam səmimiyyətlə deyə bilərəm ki, Mehparə Əliyeva kollektivdə etik normaları ən yüksək səviyyədə gözləyən, onlara tam riayət edən, öz davranışı ilə əxlaqi dəyərlərimizi qoruyub saxlayan, gələcək nəsillərə ötürən dərin mənəviyyat adamıdır. O, rəhbərlik etdiyi şöbədə çalışan gənc jurnalistlərin istedadlarının parlamaları üçün əlindən gələni edir, qayğı və problemlərinə son dərəcə diqqətlə yanaşır. İnsafən, şöbədə yaradıcılıq şövqü aşıb-daşır. Buradakı səmimi, işgüzar mühit şəxsən mənə daxili məmnunluq gətirir.

Mehparə Əliyeva həm peşəkar, həm də məhsuldar jurnalistlərdəndir. "Xalq qəzeti"nin "daxili mətbəx"indən xəbərdar olanlar bilirlər ki, ölkənin 1 nömrəli aparıcı ictimai-siyasi qəzetində gərgin iş rejimi mövcuddur. Mən iş prosesində bircə dəfə də olsun onun kimdənsə və nədənsə narazı qaldığını, tam haqlı olduğu halda belə, hansısa həmkarına yüngül bir irad tutduğunu görməmişəm. Bəs deyirlər ki, müdirlər bir az sərt, bir qədər də acıdil olmalıdırlar ki, tabeçiliyində olanlar onu "saysınlar". Sən demə, bu qədər yumşaq qəlb sahibi ola-ola da rəhbərlik etdiyin şöbədə yüksək etibar və etimad mühiti yaratmaq mümkündür.

Mehparə Əliyevanın istedadlı və təcrübəli qələm əhli olaraq yüksək peşəkarlığına nümunə gətirmək üçün həmkarımın son bir neçə həftə ərzində 3 məşhur incəsənət xadimindən aldığı geniş müsahibələrdən söz açmağı özümə borc bilirəm. Bunlar Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə, Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar Rzayev, eləcə də Azərbaycan Heykəltaraşlar İttifaqanın sədri, Xalq rəssamı Natiq Əliyev ilə çox dolğun, məzmunlu söhbətlərdir. Qeyd etmək lazımdır ki, Mehparə xanımın müsahibləri ayrı-ayrı sənət sahələrinin korifeyləridir. Gərək həmin yaradıcılıq sahələrinə dərindən bələd olasan ki, müsahiblərini dəqiq, peşəkar suallarla danışdıra biləsən. Hər 3 müsahibəni əvvəldən axıradək birnəfəsə oxuyub başa çatdıranda, dilimdən qopan yeganə söz "afərin!" oldu.

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov bir dəfə dedi ki, Mehparə xanımın hər növbəti müsahibəsi dərc olunan gün onun kabinetində telefon zəngləri susmaq bilmir. Qəzetin daimi oxucuları, tanınmış ziyalılar baş redaktora belə gözəl müsahibə dərc etdiyinə görə minnətdarlıq etməyi özlərinə borc bilirlər. Arada əllərində tər gül dəstələri ilə redaksiyaya gələrək müəllifə yaxşı yazıya görə ürəkdən təşəkkür edənlər də olur. Əsl, istedadlı jurnalistin qazancı məhz oxucu diqqəti və sevgisidir!

Gənclik illərimdə "Bakinski raboçi" qəzetində müxbir vəzifəsində çalışırdım. Faner arakəsmə ilə ikiyə bölünmüş otaqdakı iç kabinetdə Oleq Zeynalov adlı orta yaşlı, çox istedadlı baş müxbir əyləşirdi. Adətən, ekoloji mövzularda esse və reportajlar hazırlayırdı. Mən dəfələrlə görmüşəm ki, redaksiyada çalışan makinaçılar əlyazmanı bitirər-bitirməz hələ qəzet səhifələrində işıq üzü görməmiş yazıya görə ona minnətdarlıq ediblər. Deyim ki, redaksiyada çox az jurnalist belə xüsusi jestə layiq görülürdü.

"Bakinski raboçi" qəzetində şahidi olduğum bu olaya bənzər hadisəni 30 ildən sonra "Xalq qəzeti" redaksiyasında müşahidə etmişəm. Belə ki, bir neçə dəfə qəzetin axşam növbəsində təcrübəli korrektorlar Sevda Səlimova və Mahmud Qəzənfəroğlunun dilindən bu sözləri eşitmişəm: "Mehparə xanım bu məqaləni necə də gözəl yazıb! Onun yazıları təzə, tər bənövşə kimidir!". Redaksiyada tərifə "xəsislik" edən həmkarım belə etiraf etdi ki, "Mehparə Əliyeva, həqiqətən, çox şirin yazır!".

O, jurnalist peşəsinə hələ yeniyetməlik illərindən könül verərək gələnlərdəndir. Naxçıvandakı 6 saylı şəhər orta məktəbinin yuxarı siniflərində oxuyarkən onun ilk qələm təcrübələri muxtar respublika mətbuatında işıq üzü görüb. Rəhmətlik valideynləri qızlarının jurnalistikaya olan sonsuz marağından xəbərdar idilər. Sevimli anası Zərifə xanım onu həkim görmək istəyirdi. Amma gənc Mehparə orta məktəbi gümüş medalla bitirib elə birinci imtahandan əla qiymət alaraq Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinə qəbul olunanda xeyir-duasını əsirgəmədi.

"Xalq qəzeti"nin mədəniyyət şöbəsi müdirinin əsas vəzifəsi Azərbaycan dövlətinin mədəniyyət siyasətinin əsas istiqamətlərini, bu sahədə əldə olunan uğur və problemləri əks etdirməkdir. Mehparə Əliyeva və rəhbərlik etdiyi şöbənin əməkdaşları onların qarşısına qoyulan bu vəzifənin öhdəsindən layiqincə gəlirlər. Qəzetin səhifələrində mədəniyyət mövzusu sistemli şəkildə, yüksək peşəkarlıqla, xüsusi zövqlə işıqlandırılır. Oxuculara təqdim olunan mədəniyyət xəbərləri öz operativliyinə görə də seçilir.

Təbii ki, yaxşı iş üz ağardır. Bu yazı üzərində işləyərkən baş redaktorun müavini, Əməkdar jurnalist Tahir Aydınoğlu Mehparə xanım barədə yazı yazmaq təşəbbüsümdən xəbər tutub onu xeyli təriflədi və dedi ki, bu xanımın redaktə etdiyi yazılara çox vaxt gözucu nəzər yetirməyə belə ehtiyac qalmır.

**Qəzetin baş redaktoru Əflatun Amaşovun da Mehparə Əliyeva haqqında fikirlərini öyrəndim:**

– Bilirsən ki, bu gün çap mətbuatı sosial şəbəkələr tərəfindən sıxışdırıldığından çətin günlərini yaşayır. Qəzet redaksiyaları bu sərt rəqabətə tab gətirmək üçün istedadlı jurnalistlərə meydan verib yaxşı yazılarla oxucuların qəlbinə yol tapmalıdır. Qəzetlərin tirajlarını kütləvi şəkildə artırmaq hələlik, təəssüf ki, mümkünsüz görünür. Amma zövqlü, diqqətli oxucu üçün keyfiyyətli qəzet buraxmaq mümkündür və başqa çıxış yolu da yoxdur.

Əflatun müəllimin fikrincə, qəzetlərə "ikinci nəfəs" vermək missiyası məhz istedadlı jurnalistlərin öhdəsinə düşür. Ümid etmək istərdik ki, hazırkı gənc və orta nəsil qələm sahibləri hələlik həlli çətin görünən bu işin öhdəsindən gələ biləcəklər.

Bir vaxtlar deyirdilər ki, kino sənəti meydana çıxandan sonra teatrlara ehtiyac qalmayacaq. Xoşbəxtlikdən belə olmadı. Teatr yaşayır və özəlliyini qoruyub saxlaya bilir. Çap mətbuatı da hələ uzun müddət yaşayacaq, xalqa və dövlətə xidmət edəcək.

Bu gün hörmətli həmkarımız Mehparə Əliyevanın 55 yaşı tamam olur. Şübhə etmirəm ki, bu özəl gündə onun gözünün işığı olan hər iki övladı, Birinci Qarabağ müharibəsi veteranı olan ömür-gün yoldaşı, xətrini çox istəyən həmkarları, doğma və yaxınları, eləcə də yeni yazılarını səbirsizliklə gözləyən sədaqətli oxucuları Mehparə xanımı ürəkdən təbrik etməyə tələsəcəklər. O isə həmişəki öz şəfqətli gülüşü ilə hər kəsə ürəkdolusu təşəkkür edərək qəlbində duyğusal anlar yaşayacaq. İstedadlı jurnalist həmkarımız Mehparə Əliyeva bu böyük sevgiyə, hörmət və ehtirama, həqiqətən, layiqdir!

***Məsaim ABDULLAYEV***
***XQ***

# "Tağıyev: Neft" bədii filminin London təqdimatı



**Londonda görkəmli xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin həyat və fəaliyyətindən bəhs edən "Tağıyev: Neft" bədii filminin təqdimatı olub.**

Şəhərin mərkəzində yerləşən Britaniya Film və Televiziya Sənətləri Akademiyasının (BAFTA) möhtəşəm "Princess Anne Theatre" zalında keçirilən təqdimatda Bakı Media Mərkəzinin rəhbəri və filmin baş prodüseri Arzu Əliyeva, prodüser Orman Əliyev, rejissor Zaur Qasımlı, Xalq artisti Pərviz Məmmədrzayev, Gürcüstan, Türkiyə, Özbəkistan və digər dövlətlərin səfirləri və diplomatik korpusun digər çoxsaylı nümayəndələri, Britaniya Xarici İşlər Nazirliyinin əməkdaşları, Britaniya parlamentinin Lordlar Palatasının üzvləri, "City of London", Millətlər Birliyi, Avropa Yenidənqurma və İnkişaf Bankı və sair təşkilatların nümayəndələri, bp şirkətinin təmsilçiləri, ictimai-siyasi xadimlər, Britaniyada yaşayan Azərbaycan icmasının üzvləri iştirak ediblər.



Azərbaycanın Böyük Britaniyadakı səfiri Elin Süleymanov Hacı Zeynalabdin Tağıyevin Azərbaycanın iqtisadi və mədəni həyatında oynadığı mühüm roldan bəhs edib. O, xeyriyyəçi-milyonçunun ən böyük arzularından birinin təhsilin inkişafı və müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbinin yaradılması olduğunu vurğulayıb.

Bildirilib ki, film Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Kino Agentliyinin dəstəyi, "Neqsol Holding", "Kapital Bank", "Bakcell" və "Norm" şirkətlərinin sponsorluğu ilə Bakı Media Mərkəzi tərəfindən istehsal olunub. Ekran əsəri "Tağıyev" çoxseriyalı layihəsinin birinci hissəsidir. Ekran əsərində XIX əsrin sonları – XX əsrin əvvəllərində Bakıda neft bumu kontekstində Hacı Zeynalabdin Tağıyevin sadə bənnadan nüfuzlu neft sənayeçisinə qədər uzanan həyat yolu təsvir olunur.

Mərasim iştirakçıları layihəni yüksəksəbiyyədə ərsəyə gətirən Bakı Media Mərkəzinin yaradıcı komandasını alqışlayaraq filmin Azərbaycan və onun tarixi, mədəniyyəti, dəyərləri, inkişaf yolu haqqında zəngin bilgi verdiyindən məmnunluqla söz açıblar.

Xatırladaq ki, "Tağıyev: Neft" bədii filminin bundan əvvəl Rusiyada və ABŞ-ın Los-Anceles şəhərində təqdimatları da böyük maraqla qarşılanmışdı.

***XQ***

# Şuşada beynəlxalq "Xarıbülbül" çal-çağırı başa çatdı




**Dünən Şuşada "Xarıbülbül" IX Beynəlxalq Musiqi Festivalı maraqlı təqdimatlarla davam edib.**

Xan qızı Natəvanın sarayının qarşısında Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət konsert təşkil olunub. "Romans və mahnı səhəri" adlı konsert proqramında görkəmli bəstəkarlar Arif Məlikov, Cahangir Cahangirov, Fikrət Əmirov, Qara Qarayev, Oqtay Kazımi, Süleyman Ələsgərov, Tofiq Quliyev, Üzeyir Hacıbəyli və Vasif Adıgözəlovun sevilən əsərləri səslənib. Dillər əzbəri olan həmin bəstələri gənc istedadlı musiqiçilər Aqşin Abdullayev, Elnarə Məmmədova, Həmid Abdulov, İsmayıl Zeynalov, Mara Hüseynova ifa ediblər.



*

**Festivalın ikinci gününün Cıdır düzündə keçirilən növbəti musiqi təqdimatında Azərbaycan, Özbəkistan və Türkmənistan Dövlət Rəqs ansambllarının iştirakı ilə konsert proqramı təqdim edilib.**

Qardaş xalqların milli musiqi və rəqs ənənələrini əks etdirən proqram festivalın beynəlxalq ruhunu və mədəni müxtəlifliyini bir daha nümayiş etdirib və tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb. Konsert proqramında iştirak edən kollektivlər öz ölkələrinin milli rəqslərini və geyimlərini təqdim edərək, Cıdır düzünü əsl musiqi və rəqs bayramına çeviriblər. Müxtəlif ölkələrin mədəniyyətlərini səhnədə bir araya gətirən proqram tamaşaçılara unudulmaz anlar yaşadıb.

*

**Günün ikinci yarısında Xan qızı Natəvanın sarayının qarşısında Xalq artisti Səkinə İsmayılova və tələbələrinin iştirakı ilə konsert proqramı da təqdim olunub.**

Musiqi axşamında "Rast" dəstgahı səsləndirilib. Gənc xanəndələr ustadları ilə birgə fərqli bir muğam axşamı təqdim ediblər. Xatırladaq ki, xalq mahnıları və muğamların ustad ifaçısı Səkinə İsmayılova bu il 70 illik yubileyini qeyd edir. Konsert proqramının sonunda səsləndirilən "Qarabağ" mahnısı tamaşaçılar tərəfindən ayaq üstə alqışlarla qarşılanıb.

Beləliklə, Azərbaycan xalqı üçün həm musiqi, həm də fəlsəfə sayılan muğam ifaları ilə "Xarıbülbül" IX Beynəlxalq Musiqi Festivalına yekun vurulub.

Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Şuşada keçirilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının əsas məqsədlərindən biri mədəni dialoqun inkişafına töhfə vermək və musiqiçilər arasında yaradıcılıq mübadiləsini təşviq etməkdir. Budəfəki festivalda da Azərbaycan ifaçıları və musiqi kollektivləri ilə yanaşı, digər ölkələrdən də incəsənət nümayəndələri unudulmaz çıxışları ilə ünlü Şuşa çal-çağırının tarixinə yeni səhifələr yazıblar.

***XQ***

*Səməd Vurğun–120*

# "Dilinə, millətinə, yurduna vurğun"

**Mayın 15-də Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində Azərbaycan ədəbiyyatı və elminin görkəmli siması, ictimai-siyasi xadim, Xalq şairi, AMEA-nın həqiqi üzvü Səməd Vurğunun anadan olmasının 120-ci ildönümünə həsr olunmuş "Dilinə, millətinə, yurduna vurğun" adlı ədəbi-musiqili məclis keçirilib.**



Mərasimi giriş sözü ilə açan muzeyin direktoru, akademik Rafael Hüseynov XX əsr Azərbaycan ədəbiyyatının qüdrətli simalarından biri olan Səməd Vurğunun ömür yolundan, çoxşaxəli fəaliyyətindən, onun Azərbaycanın ədəbi fikir salnaməsindəki rolundan danışıb. O, zəngin fəaliyyətinin qayəsində azərbaycançılıq amalı dayanan şairin milli-mənəvi dəyərlərimizin formalaşmasında böyük rol oynadığını bildirib, Səməd Vurğunu istedadlı insan, parlaq şəxsiyyət kimi xarakterizə edib. Qeyd olunub ki, böyük söz ustası ana dilinin saflığı uğrunda dönmədən mübarizə aparıb, xalq yaradıcılığının tükənməz xəzinəsindən bəhrələnməklə bu dilin bütün məna gözəlliklərini özündə əks etdirən, dərin bəşəri-ictimai məzmuna malik qiymətli əsərlər ərsəyə gətirib.

Akademik Rafael Hüseynov qeyd edib ki, Səməd Vurğun 1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının təsisçilərindən və ilk həqiqi üzvlərindən biri, ömrünün sonlarında isə vitse-prezidenti olub. O, vaxtilə Azərbaycan Elmlər Akademiyasının prezidenti olmuş akademik Musa Əliyevin Azərbaycan dilində nəşr edilmiş xatirələrində yaxın dostu Səməd Vurğunla bağlı qələmə aldığı fikirləri diqqətə çatdırıb.

"Səməd Vurğunun novator keyfiyyətlərlə zəngin bədii irsi bir məktəb kimi müasir Azərbaycan poeziyasına güclü təsir göstərib və bu gün də gənc nəslin milli-mənəvi dəyərlərə sədaqət ruhunda yetişməsində əhəmiyyətli rol oynayır", – deyə akademik Rafael Hüseynov əlavə edib.

Muzeyin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Nəzmiyyə Yigitoğlunun aparıcılığı ilə davam edən məclisdə Bakı şəhərinin məktəb və liseyləri təmsil edən şagirdlər Səməd Vurğunun şeirlərini səsləndirib, ədibin sözlərinə bəstələnmiş mahnılar ifa edib, "Vaqif" tamaşasından səhnələr göstəriblər.

Mərasimdə Abdulla Şaiqin ev-muzeyinin direktoru Ülkər Talıbzadə, şairin nəticəsi, Səməd Vurğunun ev-muzeyinin direktoru Vurğun Vəkilov və ədibin ev-muzeyinin əməkdaşları iştirak ediblər.

Muzeyin "Məktəblərlə və ictimaiyyətlə iş" şöbəsinin və Həmkarlar Təşkilatının birgə səyləri ilə baş tutmuş məclisdə məktəblilər Fəxri fərmanlarla təltif olunublar.

***Q.YUSİFOĞLU***
***XQ***

## “Xalq qəzeti”ndə Əməkdar jurnalist Musa Mərcanlı ilə görüş



**“İRS” jurnalının baş redaktoru, Əməkdar jurnalist Musa Mərcanlı redaksiyamızın qonağı oldu. Qəzetin yaradıcı kollektivi ilə səmimi görüşdə geniş fikir mübadiləsi aparıldı.**

M.Mərcanlı rəhbərlik etdiyi komanda ilə birlikdə ərsəyə gətirdikləri, çoxşaxəli Azərbaycan mədəniyyətinin, zəngin tarixinin və milli dəyərlərinin beynəlxalq arenada təbliğinə həsr edilən fundamental əsərlər silsiləsinin – Üçcildliyin 2026-cı il Dövlət mükafatına təqdim olunması ilə bağlı təəssüratlarını bölüşdü, çəkilən zəhmətin bəhrəsinin ölkənin elmi-mədəni həyatına layiqli töhfə olduğunu xüsusi vurğuladı. Müəllifin milli-mədəni irsin qorunması, tarixi yaddaşın bərpası və ölkəmizin müasir inkişaf mərhələsinin müxtəlif mühüm aspektlərini mükəmməl şəkildə əks etdirən genişmiqyaslı almanax-kitabları qəzetimizin kollektivi tərəfindən böyük maraqla qarşılandı. Təqdim olunan siyahıda yer alan “Şuşa”, “Azərbaycan. Yeni Era”, ölkəmizin mədəni sərvətlərini işıqlandıran “Tükənməz xəzinə”, çoxəsrlik dövlətçilik tariximizə işıq salan “Şirvanşahların minilliyi”, həmçinin xalqımızın dirçəliş yolunu bədii-fəlsəfi dillə ifadə edən “Dirçəliş. Başlanğıc” və “Daşları toplamaq vaxtıdır” kitabları xüsusi müzakirə mövzusu oldu. Bununla yanaşı, Zəfər tariximizin və torpaqlarımızın azad olunmasının rəmzi olan “Qarabağ: yeni sətirdən” və “Şuşa. Zirvədən uca” kitabları da qəzet əməkdaşları tərəfindən böyük diqqətlə və yüksək maraqla qarşılandı.

“İRS” jurnalının baş redaktoru Musa Mərcanlı onu da diqqətə çatdırdı ki, 2026-cı il Dövlət mükafatına layiq görülməsi üçün Bakı Dövlət Universiteti tərəfindən təqdim olunan bu nəşrlər çoxillik gərgin əməyin, xarici müəlliflərin də cəlb olunduğu dərin elmi tədqiqatların, etibarlı tarixi mənbələrin və sistemli yanaşmanın məhsuludur. Müəllif onu da xüsusi olaraq vurğuladı ki, yaradıcı heyətin əsas məqsədi Azərbaycanın şanlı tarixini, zəngin mədəni irsini və bu gün fəxrlə addımladığımız müasir inkişaf mərhələsini vahid, bütöv konsepsiya şəklində oxucuya təqdim etməkdir.

Bu fundamental əsərlərdə həm milli yaddaşımızın dərin qatları, həm də müstəqil Azərbaycanın bugünkü geosiyasi və mədəni reallıqları dolğun şəkildə öz əksini tapıb. Həm elmi, həm də ictimai əhəmiyyətinə görə bu nəşrlər cəmiyyətimiz üçün çox qiymətli mənbələrdir və dövlətin ən yüksək mükafatına layiqdir.

“Xalq qəzeti”nin Baş redaktoru Əflatun Amaşov sözügedən nəşrlərin yüksək polifrafik keyfiyyətini, mükəmməl dizaynını xüsusi qeyd etdi. O, bu kitabların həm məzmunu, həm də tərtibatı ilə Azərbaycan kitab sənətinə böyük töhfə verdiyini bildirdi. Baş redaktor bu çətin və şərəfli missiyanı uğurla yerinə yetirdiyinə, milli irsimizin dünyaya tanıdılmasında göstərdiyi xidmətlərə görə müəllifə və onun rəhbərlik etdiyi müəllif heyətinə təşəkkürünü bildirərək, onlara Dövlət mükafatı uğrunda yarışda və gələcək fəaliyyətlərində uğurlar arzuladı.

***Tacir SADIQOV***
***XQ***

*Təqvim yada salır*

## Qarabağın yüksəlişinə xidmət edən zəngin təcrübə

**Viləşçayın sahilində, Peştəsər dağ silsiləsinin ətəyində yerləşən axar-baxarlı Kürəkçi kəndi hər zaman özünün tanınmış ziyalıları ilə fəxr edib. Onlardan biri də bu günlərdə 65 yaşı tamam olan Məzahir Əliyevdir.**



Kənd məktəbində bir neçə il oxuduqdan sonra orta təhsilini Yardımlı şəhərindəki 1 nömrəli məktəbdə davam etdirənMəzahir Əliyev 1978-ci ildə əlaçı məzun kimi Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat fakültəsinə daxil olub. Ali təhsilini uğurla başa vuraraq təyinatla Bakıdakı “Azon” zavoduna göndərilib və mühəndis kimi əmək fəaliyyətinə başlayıb. Bacarıqlı mütəxəssis kimi tanınıb və çox keçmədən sex rəisi vəzifəsinə yüksəlib.

Məzahir Əliyev sonrakı illərdə özünün təsis etdiyi “Viləş” MMC-nin baş direktoru olub. Eyni zamanda, BDU-nun hüquq fakültəsində 2-ci ali təhsil alıb. 1995–2003-cü illərdə Azərbaycan Respublikası Prezidenti yanında Xüsusi İdarədə müxtəlif vəzifələrdə çalışıb. Bir ara Maliyyə-İqtisad Kollecində və ADPU-da hüququn əsasları fənnindən dərs deyib.

Gənclik illərindən media qurumları ilə də sıx əlaqə saxlayan, bu sahəyə böyük maraq göstərən Məzahir Əliyev sonrakı dövrdə “Poliqlot” Nəşriyyat-Tərcümə Mərkəzinin icraçı direktoru olub. Mətbuatda ictimai-siyasi mövzularda maraqlı yazılarla çıxış edib. Biz də onu 2004-cü ildən – AZƏRTAC-da hüquqşünas kimi işə başladığı vaxtdan tanıyırıq. Redaksiyamızla İnformasiya Agentliyi o illərdə eyni binada yerləşirdi. Demək olar ki, hər gün görüşürdük. Sadəliyi, səmimiyyəti və özünəxas səliqə-sahmanı ilə redaksiyamızda da hörmət-izzət qazanmışdı. Vəzifəsinin öhdəsindən bacarıqla gələ bilən Məzahir Əliyev, həmçinin agentliyin dünyanın aparıcı media strukturları ilə yaratdığı rəsmi qlobal tərəfdaşlıq münasibətlərinin hüquqi aspektlərinin həllində də fəallıq göstərib. 2016-cı ildə “Tərəqqi” medalı ilə təltif olunub.

Artıq 3 ildir ki, Məzahir Əliyev Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətində Regionların İnkişafı və Ərazilərin İdarəolunması Departamentinin müdir müavinidir. Bu xidmət Prezident İlham Əliyevin 21 iyul 2022-ci il tarixli fərmanı ilə yaradılıb və adları çəkilən rayonlara əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların, fərdi yaşayış evlərinin tikintisinin təşkili, yaşayış komplekslərinin idarə edilməsi, habelə müvafiq ərazidə abadlaşdırma, yaşıllaşdırma və mənzil-kommunal təsərrüfatı sahələrində fəaliyyət göstərən publik hüquqi şəxsdir.

Vaxtaşırı tikintilərin gedişatı ilə bağlı podratçı şirkətlərlə müzakirələr aparılır, hesabatlar dinlənilir və işlərin daha sürətli həyata keçirilməsi üçün tədbirlər görülür. Məzahir Əliyevin təmsil olunduğu departament də işğaldan azad edilmiş ərazilərin məskunlaşdırılması, ora qayıdan köçlərin rahatlığının tam təmin olunması, Qarabağda həyatın tam bərpası üzrə məqsədyönlü addımlar atır. Bir qayda olaraq, işinə ciddi yanaşan yubilyar hüquqşünas da üzərinə düşən vəzifləri layiqincə icra etməsi ilə seçilənlərdəndir.

İşi ilə əlaqədar ilk dəfə Qarabağa gedəndə Məzahir müəllim 1994-cü ildə orada igidliklə həlak olmuş həmkəndlisi Cəfər kişinin oğlu Rafiq Əliyevin sərrast bir atıcı kimi vuruşduğu və şəhadətə ucaldığı yerləri başdan-başa gəzdi. Bir daha fəxr etdi ki, işğalda olan torpaqlarımız uğrunda canını qurban verənlərdən biri də sıravi Rafiq olub və onun oxuduğu kənd məktəbi hazırda qəhrəman eloğlusunun adını daşıyır. Şəhid Rafiqin və mərhum əzizlərinin uyuduqları kənd qəbiristanlığında namazgah inşa etdirməsi isə Məzahir Əliyevin doğma el-obaya bağlılığını göstərir.

Başqa bir misal: Heydər Əliyev Fondunun ən yüksək səviyyədə bərpa etdirdiyi Ağdam Cümə Məscidi həm yerli sakinlərin, həm də qonaqların ziyarətinə həvəslə gəldikləri müqəddəs məkandır. Amma heç kəs bilmir ki, ibadət salonundakı 60 ədəd həsir xalçanı muzeyə ürəyinin hökmü ilə Məzahir Əliyev gətirib bağışlayıb. Bu fakt da onun dini-mənəvi dəyərlərə necə rəğbət bəslədiyinə daha bir misaldır.

Gözəl ailə başçısı olan Məzahir Əliyevin 2 oğlu var. Hər ikisi, demək olar ki, onun layiqli ardıcıllarıdır. Aydın polis sistemində işləyir, cinayət-axtarış bölməsində xidmət edir, Əli isə “bp-Azərbaycan”ın mühafizə xidmətində çalışır. Layiqli atanın övladları olmaları ilə qürur duyurlar.

***Əli ƏLİYEV***
***XQ***

## “AZƏRBORU” ASC səhmdarlarının nəzərinə!

“AZƏRBORU” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 30 iyun 2026-cı il saat 17.00-da səhmdar cəmiyyətin Sumqayıt şəhəri, Sülh küçəsi 1 nömrəli ünvanda yerləşən inzibati binasında keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1** “AZƏRBORU” ASC-nin müşahidə şurasının (direktorlar şurasının) seçilməsi.

**2** “AZƏRBORU” ASC-nin təftiş komissiyasının (müfəttişin) seçilməsi.

**3** “AZƏRBORU” ASC-nin 2025-ci maliyyə ili üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin təsdiqi.

Səhmdarlar ümumi yığıncağın gündəliyinin materialları ilə iş günləri saat 10.00-dan 17.00-dək, səhmdar cəmiyyətin Sumqayıt şəhəri, Sülh küçəsi 1 nömrəli ünvanda yerləşən inzibati binasında səhmdar cəmiyyətinin rəhbərliyinə müraciət etməklə tanış ola bilərlər.

***Səhmdar Cəmiyyətin***
***Müşahidə Şurası***

## “Baku Steel Construction” ASC səhmdarlarının nəzərinə!

“Baku Steel Construction” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 30 iyun 2026-cı il saat 15.00-da Bakı şəhəri, Binəqədi şosesi, 53 nömrəli ünvanda yerləşən səhmdar cəmiyyətin inzibati binasında keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1** “Baku Steel Construction” ASC-nin müşahidə şurasının (direktorlar şurasının) seçilməsi.

**2** “Baku Steel Construction” ASC-nin təftiş komissiyasının (müfəttişin) seçilməsi.

**3** “Baku Steel Construction” ASC-nin 2025-ci maliyyə ili üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin təsdiqlənməsi.

Səhmdarlar ümumi yığıncağın gündəliyinin materialları ilə iş günləri saat 10.00-dan 17.00-dək, “Baku Steel Construction” ASC-nin Bakı şəhəri, Binəqədi şosesi, 53 nömrəli ünvanda yerləşən inzibati binasında səhmdar cəmiyyətinin rəhbərliyinə müraciət etməklə tanış ola bilərlər.

***“Baku Steel Construction” ASC-nin***
***Direktorlar şurası***

## “Sumqayıt Sənayetikinti Avtonəqliyyat” ASC-nin 2025-ci il dekabrın 31-nə mühasibat balansı

manatla

| AKTİVLƏR | 2025-ci il | 2024-cü il |
|---|---|---|
| Torpaq, tikili və avadanlıqlar | 61595,31 | 63487.05 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | 61595,31 | 63487.05 |
| Ehtiyatlar | 5033,88 | 5314.88 |
| Qısamüddətli debitor borcları | 264851.00 | 261491.00 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 8285,01 | 11508.84 |
| Sair qısamüddətli aktivlər | 38713,54 | 33921.75 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | 316883.43 | 312236.47 |
| **CƏMİ AKTİVLƏR** | 378478.74 | 375723.52 |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 214881.20 | 214881.20 |
| Kapital ehtiyatları | 87907.67 | 87907.67 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 36187,02 | 32438.79 |
| **CƏMİ KAPİTAL** | 338975.89 | 335227.66 |
| **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 1762.00 | 1686.05 |
| Qısamüddətli kreditor borcları | 27260.32 | 36531.07 |
| Qısamüddətli öhdəliklər | 10480.53 | 2278.74 |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | 39502.85 | 40495.86 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | 39502.85 | 40495.86 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | 378478.74 | 375723.52 |

**Mənfəət və zərər haqqında hesabat (xərclərin xüsusiyyəti üzrə)**

| | | |
|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 122930.00 | 116560.0 |
| Sair əməliyyat gəlirləri | 28651.00 | 38158.70 |
| İşçi heyəti üzrə xərclər | 43806.17 | 23125.00 |
| Amortizasiya xərcləri | 4616.46 | 19849.91 |
| Sair əməliyyat xərcləri | 65066.77 | 77597.69 |
| Vergiqoymadan əvvəl mənfəət (zərər) | 38091.60 | 34146.10 |
| Mənfəət vergisi | 1904.58 | 1707.31 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 36187.02 | 32438.79 |
| Bazis hər bir səhmin mənfəəti | 0.336811 | 0.301925 |

Qeyd: 2025-ci il yanvarın 1-dən dekabrın 31-dək olan dövr üzrə maliyyə hesabatlarının düzgünlüyünün auditi sərbəst auditor Ş.Y.Gülməmmədov tərəfindən 2026-cı il martın 2-dən martın 4-dək aparılmış və müvafiq rəy verilmişdir. Əlaqə telefonu: 051-271-32-45.

## “Bakı Oksigen Kompani” ASC səhmdarlarının nəzərinə!

“Bakı Oksigen Kompani” ASC səhmdarlarının növbəti ümumi yığıncağı 30 iyun 2026-cı il saat 10.00-da Bakı şəhəri, Sabunçu rayonu Zabrat STQ, Babək (Zabrat 1 qəsəbəsi) 55 nömrəli ünvanda yerləşən səhmdar cəmiyyətin inzibati binasında keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1** “Bakı Oksigen Kompani” ASC-nin 2025-ci maliyyə ili üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin təsdiqlənməsi.

Səhmdarlar ümumi yığıncağın gündəliyi üzrə materiallarla iş günləri saat 10.00-dan 17.00-dək, səhmdar cəmiyyətin Bakı şəhəri, Sabunçu rayonu Zabrat STQ, Babək (Zabrat 1 qəsəbəsi) 55 nömrəli ünvanda yerləşən inzibati binasında səhmdar cəmiyyətinin rəhbərliyinə müraciət etməklə tanış ola bilərlər.

***“Bakı Oksigen Kompani” ASC-nin***
***İcra orqanı***

## “Azərtəkrarqarametal” ASC səhmdarlarının nəzərinə!

“Azərtəkrarqarametal” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 30 iyun 2026-cı il saat 14.00-da Bakı şəhəri, Nərimanov rayonu, Çəmənzəminli küçəsi, 36 nömrəli ünvanda yerləşən səhmdar cəmiyyətin inzibati binasında keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1** “Azərtəkrarqarametal” ASC-nin müşahidə şurasının (direktorlar şurasının) seçilməsi.

**2** “Azərtəkrarqarametal” ASC-nin 2025-ci maliyyə ili üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin təsdiqlənməsi.

Səhmdarlar ümumi yığıncağın gündəliyi üzrə materiallarla iş günləri saat 10.00-dan 17.00-dək, səhmdar cəmiyyətin Bakı şəhəri, Nərimanov rayonu, Çəmənzəminli küçəsi, 36 nömrəli ünvanda yerləşən inzibati binasında səhmdar cəmiyyətinin rəhbərliyinə müraciət etməklə tanış ola bilərlər.

***“Azərtəkrarqarametal” ASC-nin***
***Müşahidə şurası***

## “Bakı Hövsan Beynəlxalq Ticarət Dəniz Limanı” ASC səhmdarlarının nəzərinə!

“Bakı Hövsan Beynəlxalq Ticarət Dəniz Limanı” ASC səhmdarlarının illik ümumi yığıncağı 30 iyun 2026-cı il saat 11.00-da Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi, Şakir Ziyadov küçəsi 1 nömrəli ünvanda yerləşən inzibati binada aşağıdakı gündəlikdə keçiriləcəkdir:

**1** “Bakı Hövsan Beynəlxalq Ticarət Dəniz Limanı”ASC-nin maliyyə-təsərrüfat fəaliyyətinin 2025-ci il üzrə hesabatı və təsdiqi.

**2** Digər təşkilati məsələlər.

**Ünvan:** Bakı şəhəri, Suraxanı rayonu, Şakir Ziyadov küçəsi (Hövsan qəsəbəsi) 1.

***Direktorlar şurası***

## “Bakı Elektroştamp” ASC səhmdarlarının nəzərinə!

“Bakı Elektroştamp” ASC səhmdarlarının növbəti ümumi yığıncağı 30 iyun 2026-cı il saat 9.00-da Bakı şəhəri, Nərimanov rayonu, Araz küçəsi, 7 nömrəli ünvanda yerləşən səhmdar cəmiyyətin inzibati binasında keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1** “Bakı Elektroştamp” ASC-nin müşahidə şurasının seçilməsi.

**2** “Bakı Elektroştamp” ASC-nin təftiş komissiyasının (müfəttişin) seçilməsi.

**3** “Bakı Elektroştamp” ASC-nin 2025-ci maliyyə ili üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin təsdiqlənməsi.

Səhmdarlar ümumi yığıncağın gündəliyi üzrə materiallarla iş günləri saat 10.00-dan 17.00-dək, “Bakı Elektroştamp” ASC-nin Bakı şəhəri, Nərimanov rayonu, Araz küçəsi, 7 nömrəli ünvanda yerləşən inzibati binasında səhmdar cəmiyyətinin rəhbərliyinə müraciət etməklə tanış ola bilərlər.

***Səhmdar Cəmiyyətin***
***Müşahidə şurası***

## “Bakelektroqaynaq” ASC səhmdarlarının nəzərinə!

“Bakelektroqaynaq” ASC səhmdarlarının növbəti ümumi yığıncağı 30 iyun 2026-cı il saat 11.00-da Bakı şəhəri, Nərimanov rayonu, Mir Cəlal küçəsi 15 nömrəli ünvanda yerləşən səhmdar cəmiyyətin inzibati binasında keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1** “Bakelektroqaynaq” ASC-nin müşahidə şurasının (direktorlar şurasının) seçilməsi;

**2** “Bakelektroqaynaq” ASC-nin 2025-ci maliyyə ili üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin təsdiqlənməsi.

Səhmdarlar ümumi yığıncağın gündəliyinin materialları ilə iş günləri saat 10.00-dan 17.00-dək, “Bakelektroqaynaq” ASC-nin Bakı şəhəri, Nərimanov rayonu, Mir Cəlal küçəsi 15 nömrəli ünvanda yerləşən inzibati binasında səhmdar cəmiyyətinin rəhbərliyinə müraciət etməklə tanış ola bilərlər.

***Səhmdar Cəmiyyətin***
***Direktorlar şurası***

## “Boradigah çay-2” ASC səhmdarlarının nəzərinə!

30 iyun 2026-cı il saat 11.00-da “Boradigah çay-2” ASC səhmdarlarının ümumi yığıncağı Masallı rayonunun Boradigah qəsəbəsində “Boradigah çay-2” ASC-nin yerləşdiyi ünvanda keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

**1** “Boradigah çay-2” ASC-nin 2025-ci ilin yekunlarına dair hesabatı.

**2** Digər məsələlər.

**Telefon:** *050-537-04-08.*

***“Boradigah çay-2” ASC-nin idarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 86 (31055) 16 may 2026-cı il, şənbə

## İDMAN

### İdman Akademiyasında beynəlxalq elmi simpozium



**Azərbaycan İdman Akademiyasında (ASA) "Şəhərsalma və Memarlıq İli"nə həsr olunmuş "Şəhər mühitində idman: Fiziki fəallıq və idman imkanlarının inkişafı" (Sport in Urban Environment: Development of Physical Activity and Sports Opportunities) adlı beynəlxalq elmi simpozium keçirilib.**

Simpoziumun məqsədi şəhər mühitində fiziki aktivliyin artırılması, sağlam həyat tərzinin təşviqi, idman infrastrukturlarının inkişafı, urbanizasiya şəraitində idmanın sosial və iqtisadi təsirlərinin araşdırılması, həmçinin bu istiqamətdə beynəlxalq təcrübə mübadiləsinin aparılması olub.

Açılış mərasimində ASA-nın rektoru Fuad Hacıyev çıxış edərək şəhər mühitində idmanın inkişafı, fiziki fəallığın təşviqi və beynəlxalq elmi əməkdaşlığın əhəmiyyətindən bəhs edib.

Xarici universitetlərin nümayəndələrinin də məruzələrlə çıxış etdiyi simpozium panel sessiyalarla davam edib. İştirakçılar şəhər mühitində idmanın inkişafına dair elmi-praktik yanaşmalarını təqdim edib.

### Oxatanlarımız Avropa Çempionatında iştirak edəcəklər

**18–24 may tarixlərində Türkiyə Respublikasının Antalya şəhəri kamandan oxatma üzrə açıq havada növbəti Avropa Çempionatına ev sahibliyi edəcək.**




Gənclər və İdman Nazirliyinin və Azərbaycan Kamandan Oxatma Federasiyasının birgə dəstəyi ilə qitənin bu ən mötəbər yarışında ölkəmizi Yaylagül Ramazanova, Məhəmmədəli Əliyev, Fatimə Hüseynli, Lalə Əbdürəhmanova, Sərdar Vəliyev və Nurlan Rəhimli təmsil edəcəklər. Çempionatın proqramına uyğun olaraq, idmançılarımız fərdi, komanda və qarışıq yarış növlərində hədəf qarşısına keçərək ən yüksək nəticələr uğrunda mübarizə aparacaqlar.

Azərbaycan Kamandan Oxatma Federasiyasından verilən məlumata görə, milli komandamızın bu çempionata sistemli və yüksək səviyyədə hazırlığı üçün genişmiqyaslı təlim-məşq toplanışları təşkil olunmuşdur. Hazırlıq çərçivəsində Belarus milli komandasının üzvləri ilə Quba Olimpiya İdman Kompleksində birgə məşqlər keçirən oxatanlarımız, mayın 3-dən etibarən hazırlıq prosesini Antalyada, bilavasitə çempionatın keçiriləcəyi məkanda beynəlxalq təlim-məşq toplanışı ilə davam etdiriblər.

### Misli Premyer Liqasında XXXII tur



**Dünən futbol üzrə Azərbaycan Premyer Liqasında XXXII tura start verilib. İlk oyun günündə 2 qarşılaşma keçirilib.**

Yevləx şəhər stadionunda baş tutan açılış matçında autsayderlər – "Karvan-Yevlax" "Qəbələ" ilə qarşılaşıb. Oyun 1:2 hesabı ilə başa çatıb. Bu görüşdən sonra "Qəbələ" 24 xalla 11-ci, 14 xala malik Yevlax təmsilçisi isə sonuncu – 12-ci pillədə qərarlaşıb.

Günün son oyununda "Kəpəz" Sumqayıtdakı "SOCAR Polimer Arena"da "Araz-Naxçıvan"ın qonağı olub. Qarşılaşma 2:0 hesabı ilə Naxçıvan təmsilçisinin xeyrinə başa çatıb.

Beləliklə 43 xalı olan "Araz-Naxçıvan" 6-cı, 27 xalı olan Gəncə klubu isə 10-cu sırada yer alıb.

Qeyd edək ki, XXXII turun digər oyunları mayın 16-17-də keçiriləcək.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Tofiq Rüstəmov – 90*

# Tərcümə sənətinin ustad tərcümanı



Azərbaycan mətbuatının tanınmış simalarından biri, dərin analitik təfəkkürə malik publisist, nüfuzlu ziyalı, tərcüməçi, Əməkdar jurnalist, professor Tofiq Rüstəmovun bu il 90-cı ildönümüdür. Sözə məsuliyyətlə yanaşan, publisistikanı düşüncə və mövqeyin platforması kimi dəyərləndirən, zəngin yaradıcılığı ilə milli mətbuat tariximizdə özünəməxsus iz qoyan Tofiq Rüstəmov "Xalq qəzeti"nin baş redaktoru olduğu illərdə ölkəmizdə gedən ictimai-siyasi proseslərin operativ şəkildə işıqlandırılmasına, mətbuatın cəmiyyət həyatındakı rolunun möhkəmlənməsinə böyük önəm vermişdir. Onun bədii-publisistik irsində xüsusi yer tutan "Molla Nur" əsərinin tərcüməsi isə müəllifin həyat müşahidələrinin, ictimai proseslərə həssas münasibətinin və insan xarakterlərinə dərindən nüfuz etmək bacarığının bariz nümunəsidir.

Bu il "Molla Nur"un 190, onun tərcüməçisi, professor Tofiq Rüstəmovun isə 90 yaşı tamam olur. Yubiley ərəfəsində povestin ikinci nəşri oxuculara dəyərli hədiyyədir.

## Molla Nur

*(əvvəli qəzetin 2 və 9 may tarixli saylarında)*

Dağıstan müsəlmanları və bütün dağlılar üçün məscid həyəti yığıncaq meydanıdır. Onlar iş bölgüsü barədə danışmaq və dilbir olub rəislər əleyhinə çuğulluq etməkdən ötrü oraya yığışırlar. Həqiqət və iman evinin astanası sayılan məscid həyəti qeybət yuvası və qərəz məhkəməsi, fitnə-fəsad və xürafat ocağıdır; yaman söz danışanda, yamanlıq eləyəndə iki addımlığındakı müqəddəs məbəddən qorxub çəkinmək əvəzinə, onun kölgəsində gizlənməyə, çirkin niyyətlərinə onun adı ilə qol qoydurmağa çalışan insanın ötkəmliyi və ikiüzlülüyü görün necə qəribə şəkildə aşkar olur!

Yağışsız günlərdə də Dərbənddəki Came məscidinin həyətində adam əlindən tərpənmək olmurdu. Camaat çinarların kölgəsindəki hovuzun başına dolanır, güzgülərin, zərxaranın, güləbatın pərdələrin, üstündə Quran ayələri yazılmış bayraqların hələ də bərq vurduğu şüşəbəndə axışır və geri qayıdırdı. Neçə-neçə yerdə dövrə vurub dayananlar arasında dilavər möminlər (möhkəm imanlılar) xüsusilə seçilirdi. Möminlərin yanında böyüksaqqallar, yəni tükü uzun, ağlı dərin müsəlman kişiləri cərgəyə düzülmüşdülər.

Tüklülər, yəni yarımsaqqallar yaltaq görkəmi alıb ikinci dövrədəki uzunsaqqallar arasından burunlarını içəri soxmağa çalışırdılar, bunlar artıq bığı çıxmış, lakin hələ dili-ağzı açılmamış cavanlar idilər, Asiya məşvərətlərində yan-yörəsini tük basmamış ağız yalnız əsnəmək üçün açıla bilər. Nəinki vacib işlərə, hətta böyüklərlə söhbətə qarışmaq ixtiyarı olmayan tüksüzlər (və ya saqqalsızlar), yəni on yaşdan on yeddi yaşacan yeniyetmələr və gənclər dəstədəkilərdən aralı gəzirdilər. Burada üç hüquq pilləsindən, hüquqlarının kortəbii əsası isə saqqaldan ibarət olan ən sadə şəkilli ibtidai cəmiyyət aydın görünürdü. Lakin Dərbənd müdrikləri bütün ölçülərə uyğun gələn, göy qurşağının bütün rənglərinə çalan, hənalı və hənasız saqqallarından nə bir damcı yağış qopara bilir, nə də onu əvəz etmək üçün yol tapırdılar. O qədər danışdılar, o qədər deyişdilər, o qədər üyüdüb tökdülər ki, boşboğazlıq selinin ağzını bir yerə yığıb dörddaşlı dəyirman tikmək olardı; onsuz da suyun yoxluğundan köhnə dəyirmanlar bir həftə idi ki, işləmirdi. Bununla belə, bütün mübahisələr ümidsiz bir sualla qurtarırdı necə eləyək? Sonra bir anlığa araya sükut çökürdü; daha sonra ah-vay sədaları qatar-qatar havaya qalxırdı. Hamının çiyinləri qulaqlarına, qaşları papaqlarına dəyirdi; şikayət səsləri yalvarışla dolu "aman, aman!" qışqırığına qovuşurdu. Nəhayət, Məhəmməd nəslindən olduğu üçün irsən müqəddəs sayılan bir ağamir səsini ucaltdı, Məhəmmədin qohumları da ki, məlum olduğu və sübut edildiyi kimi, ondan yaşıl çalmalarla birlikdə nəsilbənəsil ötürülən əbədi müqəddəslik ruhunu irs almışlar. Ağamir köylərdən ilham aldı, qəlyanını tüstülətdi və ağzını açıb Şiraz tütününün ətri ilə qarışıq qızıl kimi sözlər danışmağa başladı.

–Siz Allaha üz tutub "aman, aman!" deyirsiniz. Belə olar a! İndi dərbəndlilər Allahdan aman istəyirlər, sinə döyürlər, çarəsizlikdən saqqallarını yolurlar! Elə bilirsiniz ki, Allah rəhmə gəlib bir sözə görə günahınızdan keçəcək? Quruca tövbənizə inanacaq? Xeyr, yoldaşlar, xeyr! Murdar ağızla Quranı öpməzlər! Allah rus komendantı deyil ki, onu baş əyməklə, yalvar-yaxarla aldadasan: o sizi çoxdan tanıyır! Sizin ürəkləriniz həzrət Cəbrayılın insan cinayətlərini yazdığı Secil kitabındakından da ağır günahlarla qaralanıb, amma oruc-namazla ürəklərinizi təmizləmək yadınıza da düşmür. Orucluq vaxtı gündüzlər qəlyan tüstüsü udmaq belə mömin bəndələrə haram buyurulduğu halda, küncdə-bucaqda çörək gəvələyirsiniz, yaxud donquz yeyənlərin evində çay içirsiniz, guya gecələr üç dəfə, qurşağınız partlayanacan yemək sizə azlıq eləyir! Əməllərinizin axırı da budur ki, cəhənnəm dərələrinin zəqqum ağacı torpağa kök atıb. İndi yeyin onun acı bəhərini, yeyin o ilan başlarını. Siz xəlvətə çəkilib bağışlanmaz günaha batmağa – araq içməyə həvəskarsınız, amma Allahın üzünə qapını bağlaya bilməzsən, onu inandıra bilməzsən ki, könülsüz, naxoşluq üzündən, dərman yerində içirsən! O sizi gündüz günəşin nuru ilə, gecə min-min ulduzun gözü ilə izləyir. O, beyninizdəki hər fikri adbaad bilir, ürəklərinizdəki ən incə titrəyişi eşidir. Yerin-göyün hər sirrindən agah olan Allah-Taala necə də bilməsin; mən özüm qalabəyi olmaya-olmaya bilirəm ki, günahkar dodaqlarınıza nəinki araq, həm də çaxır vurursunuz! Görün Allah peyğəmbərimizə nə deyib: "Kim bu dünyada şərab içirsə, onu cənnətdə şərab kimi axan bəxtəvərlik çeşməsinə yaxın qoymaram!". Siz, şərab içənlər, ümidvar olmayın ki, cənnətdə peyğəmbərin vəd verdiyi həzz şərabından dadacaqsınız, çünki bu zəhrimarı hamınızı fəlakətə sürükləyən kafirlərin düzəltdiyi şüşələrdən sorursunuz! Zəmilərinizin yağış üzü görəcəyinə də ümidvar olmayın, çünki ədəbsiz istəklərinizin atəşi ilə Allahın səbrini yerli-dibli tükətmisiniz! Bu, cəhənnəmdə düçar olacağınız dəhşətli yanğının ilk nişanəsidir. İndi torpağın sinəsi cadar-cadar olduğu kimi, dodaqlarınız da bir gilə su həsrəti ilə çatlayacaq, üzünüzə şeh belə qonmayacaq. Allahu əkbər! Allah böyükdür! Siz öz əlinizlə başınıza iş açdınız...

Amma, – bağışla ya rəbb, – nə üçün damarlarında peyğəmbərin saf qanı axan, başında müqəddəs Quran qanunları inci kimi düzülən bizlər sizə görə əziyyət çəkirik? Vay, vay! Günahlar pak bəndələri napaklardan ayıran əl-Əraf səddini dağıdıb, indi o hamının başına uçur, govurlara qoşulub bismillahsız kəsilmiş qoyun əti yeməyəni də, Allahın buyurduğu kimi diz üstə deyil, stulda oturub, – zəmanəyə bax, adətlərə bax!.. – plovu əllə yox, murdar qaşıqla yeyəni də torpağa gömür! Hələ bu harasıdır...

Hamının ağlaşması və "şah Hüseyn, vay Hüseyn" sədaları vaizin səsini batırdı: axı Şərqdə göz yaşları heç neçəyədir. Həm də mənim zənnimcə, bütün bu kələklərin, bu qışqır-bağırın məqsədi vardı, çalışırdılar ki, günahlar, bəlkə də günahkarlar adbaad sadalanmasın; atalar demişkən, oğru öz sirrini özü açar, bu qədər adamın arasında onu necə gizlədəsən? Müsəlman öz evində, öz xalçasının üstündə ən pozğun avropalının da əlinə çöp verər, evdən qıraqda isə o, təmkinli dolanar, ağır oturub batman gələr, ədəbsiz iş tutmaz, ağzından tərbiyəsiz söz çıxarmaz; odur ki, meydanda onun qapı dalındakı oyunlarından danışmaqdansa dostyana xəncəri böyrünə yortsanız daha yaxşı olar. Avropalıların əksinə olaraq, müsəlmanlarda bazar şəhərin, kandar isə evin ən ədəbli hissəsidir, özü də kandarın ancaq yarısını, küçəyə baxan tərəfini nəzərdə tuturam: bu sirri bilən tək mən deyiləm.

Nitqinin dinləyicilərin zəif damarına toxunduğunu görən saqqallı dil pəhləvanı özünü tox tutdu, təkəbbürlə gülümsündü, həyatin bütün künclərinə göz gəzdirib nəhayət, nəzərlərini göyə qaldırdı və sakit səslə dedi: "Əlhəmdülillah!". Həmin anda onun sağ əli qırmızı saqqallını dartışdırırdı, özü isə ildırım saçmağa hazır dayanan Yupiterə oxşayırdı. Bu Mir Hacı Fətəli İsmayıl oğlu doğrudan da yaman zirək "nizatül büsəra" idi! Bəzən bir avazla ötərdi ki, deyərdin bülbüldür, əsl bülbüldür! Hər sözü noğul kimi gillənir, gülab kimi adamın canına yayılır; qulağınızı ərəb-fars kəlmələri ilə elə doldurar ki, mat qalarsınız; külli Dağıstanda onun dediklərinin heç olmasa yarısını anlayan ikicə adam da tapılmaz, – Dağıstanda isə, Allaha şükür, qanmazlar yaşamır. Bütün Farsistan şairlərini əzbər bilən komendant mirzəsi belə hərdən ağamiri tərcümə eləyəndə dili topuq çalır. O hara, ağamir hara!

Bizim səfiyyə camaata yaxşı öyüd-nəsihət verdi, özünün də kefi duruldu. Ətrafda hamı arı kimi vızıldayırdı: "Dürüst söz! Gerçək dedi! Allah, inşallah!". Eyni zamanda hamı arı kimi onu tərif balına tuturdu. Mömin hacı iştahla dodaqlarını yalayıb başına toplaşanlara dedi: "Qulaq asın, qardaşlar!" – və bir qədər mülayimcəsinə təzədən sözə başladı:

– Bəs indi biz nə eləyək, yoldaşlar! Elə bəndə varmı ki, Allahın qarşısında müqəssir olmasın! Günahlarımız göyün üçüncü qatına ucalıb, amma qalan dörd qat hələ xudavəndi-aləmin mərhəmətindədir. O, müqəssirlərlə bərabər günahsızları da cəzalandırır, həmçinin bir mömin bəndənin xatirinə neçə-neçə mürtədlər qəbiləsinin günahından keçir. Günahkarların da, günahsızların da mədəsi yemək istəyir; biz də elliklə Allah-Taaladan yağış dilədik. Görünür, qara-qura fikirlərimizin ucbatından duamız Allah dərgahına yetişməyib! Uğur yoxdur! İndi bir söz deyəcəyəm, qardaşlar: bilmirəm ürəyinizə yatacaq ya yox, ancaq onu mələklərin kəlamına bənzətmək olar. Öz qulaqlarınızla eşitdiyiniz, öz gözlərinizlə gördüyünüz kimi, ata-babalarımız quraqlığın ağır vaxtında ruhən və cismən pak olan bir cavanı seçib dua-səna ilə Allaha yaxın yerə, dağların uca zirvəsinə göndərərdilər. O, Şahdağın təpəsindən qar yığıb bardağa doldurar, qohum-əqrəbası üçün sidq ürəklə dua eləyər, bardağı yerə qoymadan Dərbəndə gətirər və ərimiş qarı dənizə səpələyərdi. Allah böyükdür! Qəflətən dəniz kükrəyib coşar, buludlar göyün üzünə yığışar, bərəkət leysanı cansız torpağı dirçəldərdi!

*(ardı var)*

***Tərcümə Əməkdar jurnalist Tofiq RÜSTƏMOVUNDUR***

## HAVA

### Aranda yağış və dolu, dağlarda qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı proqnozlaşdırılır. Gecə və səhər bəzi yerlərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi arabir güclənəcək.**



Havanın temperaturu gecə 15-18, gündüz 19-24 dərəcə isti olacaq. Atmosfer təzyiqi 750 millimetr civə sütunundan 753 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 70-75, gündüz 55-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, axşam isə şərq rayonlarında bir qədər güclənəcəyi, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qara keçəcəyi ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 14-17, gündüz 20-25, dağlarda gecə 4-8, gündüz 8-13, bəzi yerlərdə 17 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

## "Azər-Avtonəqliyyat" ASC səhmdarlarının nəzərinə!

28 iyun 2026-cı il saat 17.00-da "Azər-Avtonəqliyyat" ASC səhmdarlarının növbəti illik ümumi iclası keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Cəmiyyətin 2025-ci il üçün maliyyə-təsərrüfat fəaliyyətinin müzakirəsi və təsdiqi.

**2.** Təşkilati məsələlər.

**3.** ASC-nin müşahidə şurası üzvlərinin və sədrinin seçilməsi.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

**Ünvan:** *Gəncə şəhəri, Ş.İ.Xətai prospekti 85B.*

***"Azər-Avtonəqliyyat" ASC-nin idarə heyətinin sədri Abbasov Gündüz Mehdi oğlu.***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi, kollektivi və üzvləri palatanın üzvü, sərbəst auditor Qulu Soltanova həyat yoldaşı

**RƏNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan şəhərindən İlqar Abbasov Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimliyə əzizi

**ZAKİR ABBASOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

AMEA Biologiya və Tibb Elmləri Bölməsinin üzvləri və bölmənin kollektivi Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İradə Hüseynovaya əmisi

**ƏLİ HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3231
SİFARİŞ 633
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Nurlan ABDALOV
Çapa imzalanmışdır 00:00